Məqalədə ictimai iaşə müəssisələrində mühasibat uçotunun bir sıra önəmli məsələlərindən bəhs olunur. Burada mühasibat uçotunun hüquqi və normativ tənzimlənməsi, ictimai iaşə fəaliyyətinin əsas göstəriciləri, məhsul istehsalı, mal əməliyyatları və biznes fəaliyyətinin digər sahələrinin uçotunun elektron işlənməsi imkanları araşdırılaraq, onların müasir dövr üçün əhəmiyyətli olan xarakterik xüsusiyyətləri şərh edilmişdir. İctimai iaşə müəssisələrində müasir qanunların və mühasibat uçotu standartlarının tətbiq edilməsi xüsusiyyətləri, xidmət sferasının bu sahəsində mühasibat uçotunun dövlət tərəfindən tənzimlənməsi məsələləri, müəssisənin biznes fəaliyyətinin və iaşə xidmətlərinin göstərilməsi proseslərinin normativ sənədlərlə tənzimlənməsi qaydaları araşdırılmış, ictimai iaşə xidmətlərinin göstərilməsində kiçik və orta sahibkarlıq subyektlərinin daha çox xüsusi çəkiyə malik olması müəyyən edilmişdir. Əhaliyə ictimai iaşə xidmətlərinin göstərilməsi proseslərinin tənzimlənməsi qaydalarına əsaslanmaqla, xidmətin təşkili və göstərilməsi (satışı) proseslərinin sənədləşdirilməsi və həmin sənədlərin mühasibat uçotu işləmələrində istifadə edilməsi məsələləri araşdırılmışdır. Azəarbaycan Respublikasının Dövlət Statistika Komitəsinin mətbuatda yayımladığı statistik məlumatlar əsasında ölkə üzrə ictimai iaşə xidmətlərinin həcmi və bu xidmətlərin göstərilməsi ilə məşğul olan subyektlərin tərkibi təhlil edilərək, ölkənin istehlak bazarının tərkibində ictimai iaşə xidmətlərinin tutduğu mövqe müəyyən edilmiş, eləcə də müasir dövrdə bu xidmətlərin, əsasən, qeyri-dövlət sektoruna aid olan sahibkarlıq subyektləri tərəfindən yerinə yetirildiyi aydınlaşdırılmışdır. İctimai iaşə müəssisələrində "1C:Бухгалтерия 8 для Азербайджана" adlanan mühasibat uçotu proqramı təminatının istifadə edilməsi şəraitində elektron mühasibat uçotunun işlənməsi imkanları araşdırılaraq, həmin proqram təminatının xarakterik xüsusiyyətləri göstərilmiş və onun tətbiqi zamanı mühasibat uçotu proseslərinin yerinə yetirilməsi əməliyyatlarına dair imkanlar qiymətləndirilmişdir.

**Açar sözlər: Xidmət sferası, ictimai iaşə xidməti, menyu, kalkulyasiya.**

# “Kapital” Bankda Müştəri Məmnuniyyəti Tədbirləri və Mövcud Problemlərin Aşkarlanması Məsələlərinin Təhlili

**Müjgan Qafarova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Müştərinin istək və ehtiyaclarını təmin etməyin ən yaxşı yolu əvvəlcə müştərini təmin etməkdir. Bu baş verərsə, müştəri şirkətə bağlanır və şirkətin daimi müştərisi olaraq qalır. Bir şirkət tərəfindən göstərilən yaxşı xidmət müştəri məmnuniyyətini artırır və bu müsbət inkişaf istər-istəməz müştərilər arasında xoş xəbərlərin yayılmasına səbəb olur. Narazı bir müştəri xidmətdən narazılığını görüşdüyü bütün insanlara izah edir. Bu fikirləri eşidən insanların çoxu bu problemi ən azı 10-20 nəfərə izah edir və beləliklə bu proses davam edir. Heç bir reklam kampaniyası bu mənfi sözləri düzəltməyə kömək edə bilməz və düzəltsə də onları düzəltmək asan olmayacaq.

Son vaxtlar iqtisadiyyatda rolu və artan əhəmiyyəti xidmətlər sahəsində araşdırma, xidmətlərin təsnifatı və marketinqin bu sahədəki xüsusiyyətlərinin dəqiq müəyyənləşdirilməsini tələb edir. Xidmət sektorunda marketinq yaxın vaxtlarda xarici ölkələrdə tətbiq olunmağa başlamış və ölkəmizdə müstəqil bir mövzu və ya fəaliyyət sahəsi olaraq hələ tam formalaşmamışdır. Çünki xidmət sahələri müxtəlifdir və xüsusiyyətləri bu sahədəki marketinqə həlledici təsir göstərir.

Bank xidmətlərinin reklamı bank işinin əsas hissəsidir, çünki məhz potensial müştərilərə həm bankın varlığı, həm də bank məhsulunu almağın rentabelliyi barədə məlumat verməyə imkan verir. Bu gün bir çox bank reklam büdcələrini azaldıb, amma bu göstəricinin dəyərini artıra bilənlər var. Bu vəziyyətdə ən son texniki rabitə vasitələrindən istifadə edərək üz-üzə əlaqə, telefon danışığı kimi əlaqələr mümkündür. Məqalədə bank xidmətlərinin inkişafı üçün əsas vasitələrdən bəhs olunur və eyni zamanda Azərbaycanda fəaliyyətdə olan aparıcı bankladan biri Kapital bankın tərəfindən istifadə olunan marketinq strategiyaları metodlarının qısa təhlili verilir.

**Açar sözlər: Bank sistemi, Kapital bank, müştəri məmnuniyyəti, xidmət marketinqi, bank xidmətləri.**

# Pandemiya Dönəmində Elektron Ticarət Tendensiyası: Elektron Ticarətdə Rəqəmsal Marketinqin Üstünlükləri

**Zeynəb Səfərli**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Çində başlayan və qısa müddətdə bütün dünyaya yayılan Covid-19 virusu,2020-ci ildən etibarən dünyada qlobal bir sağlamlıq mübarizəsinın başlamasına səbəb oldu.Sosial məsafə qaydası,fərdi təcrid və karantin tətbiqetmələrini vurğulayan tədbirlər dünyadakı cəmiyyətlərin sosial-iqtisadi dəyişiklikləri yaşamasına səbəb oldu. Covid-19 pandemiyası ilə artan onlayn xərclər e-ticarət və rəqəmsal reklam investisiyalarına da təsir etdi. .Covid-19 pandemiyasının, iş dünyasına təcili ekoloji və sosial problemlərin öhdəsindən gələ biləcək real və dürüst marketinqə keçmək üçün əla bir fürsət təklif etdiyini iddia edirik.Tədqiqat, pandemiya prosesi dövründə dəyişən istehlak təcrübələri, e-ticarət xərcləri və rəqəmsal reklam investisiyaları mövzularında, müvafiq sahədəki müxtəlif milli və beynəlxalq tədqiqatları araşdıraraq hazırlanan nəzəri bir məqalədir. Prosesdən ən çox təsirlənən sektorların başında;turizm, səyahət, əyləncə mərkəzləri, restoran və kafelər gəldiyi müddətdə araşdırmalar bazar-qida sektorunda "ehtiyac əsaslı" istehlak xərclərinin əhəmiyyətli dərəcədə artdığını göstərdi. Rəqəmsal marketinqin artdığı Covid-19 pandemiyasında, bir çox sektordakı müvəqqəti dayandırmalar, elektron ticarət xərclərindən fərqli olaraq reklam investisiyalarının azalmasına səbəb oldu. Pandemiyanın istehlakçı etik qərar qəbuletməsinə necə təsir edə biləcəyinə dair bəzi gələcək yolları da araşdırırıq.Elektron ticarət üçün rəqəmsal marketinq, perspektivlərə çatmaq üçün etibarlı bir yoldur. Doğru rəqəmsal marketinq strategiyası, e-ticarət uğurunun açarıdır

**Açar sözlər: Elektron ticarət, Covid-19, rəqəmsal marketinq, reklam xərcləri.**

# Azərbaycanda Birbaşa Xarici İnvestisiyaların İqtisadi Artıma Təsirlərinin Analizi

**İsrafil Hacıyev**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Dünya iqtisadiyyatı son illərdə xüsusilə texnologiyanın inkişafı, mal və xidmətlər bazarının liberallaşdırılması ilə sürətlə inkişaf etmişdir. İnkişaf etməkdə olan ölkələrin kifayət qədər kapitala sahib olmamaları, onları daha çox xarici mənbələrlə böyüməyə aparır. Öz mənbələri çatışmayan ölkələr birbaşa xarici investisiyaları (BXİ) ölkələrinə yönəltməyə və xarici borcla investisiya qoyuluşunun dəyəri yüksək olduğu üçün onları investisiyaya yönəltməyə çalışırlar. Bu səbəbdən xarici investisiyalar getdikcə inkişaf etməkdə olan ölkələr üçün ən vacib inkişaf vasitələrindən birinə çevrilir. Kapital yığımının olmaması inkişaf etməkdə olan ölkələrin tərəqqisi üçün ən vacib maneədir. İnkişaf etməkdə olan ölkələr xarici kapitalı bu çatışmazlığın həlli kimi gördülər. Rəqabət səviyyəsində daha güclü mövqe əldə etmək üçün infrastrukturun yaxşılaşdırılmasında birbaşa xarici investisiyalar daha çox nəzərə çarpır. Xarici borc əvəzinə birbaşa xarici investisiyalar cəlb edərək, ölkələr kapital axını təmin edirlər. Eyni zamanda birbaşa xarici investisiyaların texnologiya ötürülməsini təmin etmək, məşğulluq yaratmaq və ixracı təşviq etmək kimi bir çox üstünlükləri var. Bu tədqiqatda Azərbaycanda birbaşa xarici investisiyaların iqtisadi artıma təsirlərinin statistik məlumatlardan istifadə etməklə 2000-2017-ci illəri əhatə edən dövr üzrə təhlil edilmişdir. Beləliklə, aparılan təhlil əsasında deyə bilərik ki, Azərbaycanda birbaşa xarici investisiyaların iqtisadi artım üzərində müsbət təsiri vardır.

**Açar sözlər: Birbaşa xarici investisiyalar, neft və qeyri-neft sektoru, Azərbaycan iqtisadiyyatı.**

# Azərbaycanın Yanacaq-Enerji Kompleksinin Qlobal Enerji Sisteminə İnteqrasiyasının Əsas İstiqamətləri

**Elnarə Veyisova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Müasir dövrdə Azərbaycanın yanacaq-enerji kompleksinin qlobal enerji sisteminə inteqrasiya prosesləri əhəmiyyətli dərəcədə artmışdır. Son illər ərzində ölkəmiz tərəfindən həyata keçirilən layihələr həm regionda, həm də Cənub-Şərqi Avropa ölkələri içərisində Azərbaycanın rolunu əhəmiyyətli dərəcədə artırır. 2012-ci ildə Azərbaycan və Türkiyə arasında müqavilə imzalanıb və 2014-ci ildə Cənub Qaz Dəhlizinin təməli qoyulub. Cənub Qaz Dəhlizinin hissələrinə- Şahdəniz qaz-kondensat yatağının tammiqyaslı işlənilməsi, Cənub Qafqaz Boru Kəmərinin genişləndirilməsi, Trans-Anadolu Boru Kəməri layihəsi, Trans-Adriatik Boru Kəməri layihəsinin həyata keçirilməsi aiddir. Uzunluğu 3500 km olan Cənub Qaz Dəhlizi Azərbaycanın təbii qazını Türkiyə və Cənub-Şərqi Avropa ölkələrinə çatdıracaqdır. Layihənin Enerji təhlükəsizliyi Aİ və Şərq Tərəfdaşlığı ölkələri ( Azərbaycan, Belarusiya, Ermənistan, Gürcüstan, Moldova, Ukraniya) arasında imzalanmış Enerji Birliyinə əsaslanır. Azərbaycanın yancaq-enerji kompleksinin inkişaf və səmərəliliyinin artırılması üçün Dövlət Proqramları və Strateji Yol Xəritələri işlənib hazırlanmış və qəbul edilmişdir. Hal-hazırda ixracın 90%-ni neft və neft məhsulları təşkil edir. Azərbaycanın yanacaq-enerji kompleksində neft, qaz, elektrik enerjisi qlobal enerji sisteminə inteqrasiyasında üstünlük təşkil edir. Bu məqalədə əsas bu sahələrə önəm verilmiş və təhlil edilmişdir. Eyni zamanda, son 5 ildə (2015-2019-cu illər) Azərbaycanın yanacaq-enerji kompleksinə daxil olan neft, qaz, elektrik enerjisi sahələrinin hasilat, idxal, ixrac, nəql, inteqrasiya göstəriciləri müqayisəli təhlil edilmiş və çıxarılan nəticələr müəyyən edilmişdir.

**Açar sözlər: Cənub Qaz Dəhlizi, qlobal enerji sisteminə inteqrasiya, TANAP, TAP, yanacaq-enerji kompleksi.**

## Azərbaycanın Yanacaq-Enerji Kompleksinin Qlobal Enerji Sisteminə İnteqrasiyasının Əsas İstiqamətləri

**Afaq Kərimli**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Müstəqilliyin ilk zamanlarında bir çox sosial-iqtisadi problemlərlə üzləşsək də zamanla bu problemlərin həllinə nail ola bilmiş, müstəqil bir dövlət kimi beynəlxalq aləmdə təsirli rol oynamağa başlanılmışdır. Ölkəmizdə neft və qeyri-neft sektorunun inkişafı ilə əlaqədar mühüm layihələr, tədbirlər reallaşdırılmış və yüksək sosialiqtisadi nailiyyətlər əldə olunmuşdur. Sosial sahələrə, xüsusilə təhsil məsələlərinə göstərilən qayğı və bu istiqamətdə qoyulan investisiyalar Azərbaycanda öz müsbət nəticələrini verməkdədir.

Bildiyimiz kimi hər bir inkişaf etmiş ölkənin iqtisadi tərəqqisinin əldə olunmasında əsas səbəb kimi göstərilən göstəricilərindən biri təhsilidir, hansı ki, təhsil özlüyündə həmin ölkənin təhsil sferasında həyata keçirtdiyi islahatlar, qərarlar, strategiya və layihələrin nəticəsidir. Sənayeləşmənin əsas hərəkət verici qüvvələri elm, texnika və iqtisadiyyat olduğunu bilirik. Bu gün texnologiya əsridir və texnologiya elmi biliklərə əsaslanır və bunun nəticəsi olaraq öz növbəsində davamlı və yenilikçi bir yanaşma tələb edir. İnkişaf edən və mütəmadi yenilənən texnologiyaya, istehsal prosesinə və idarəetmə sistemlərinə asanlıqla uyğunlaşmağa imkan verəcək bilik və bacarıqlara malik təhsilli işçi qüvvəsinin mövcudluğu hər zaman ölkənin iqtisadi inkişafını sürətləndirəcəkdir. Universitetlər yenilikçi elmin istehsalçısı olduğu halda, sənaye yeni texnologiyaların və iqtisadi böyümənin yaradıcısı olmuşdur. Burada dövlətin üzərinə düşən vəzifə də elmi tədqiqatlar üçün maliyyə dəstəyinin təmin olunmasıdır. Universitet, sənaye və dövlət arasındakı bu üçbucaqlı əlaqə iqtisadi böyüməyə təkan verən əhəmiyyətli bir təsir göstərsə də, bu əməkdaşlıq həmişə səmərəli olmur. Universitet, sənaye və dövlət əməkdaşlığı, hər səviyyədə optimizasiyaya ehtiyacı olan bir sahədir və hətta tərəflərin ümumi faydalarına uyğun olaraq məcburi bir sahədir.

**Açar sözlər: Universitet, sənaye, dövlət, təhsil, texnologiya.**

# Azərbaycanda Məhsulların Reklam Mövuzlarının Rəqəmsal Marketinq Kontekstində Təhlili

**Məhəmməd Kərimli**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Son dövrlər internetin sürətlə böyüməsi, sosial şəbəkələrin bir çox insanın gündəlik həyat tərzinə çevrilməsi təbbi ki, biznesləri burdan kənarda qoya bilməzdi. Təsadüfi deyil ki, son 25 il ərzində ümumi internet istifadəçilərinin sayı 302 dəfə artıb. Belə ki, 1995-ci il 16 milyon (dünya əhalisinin 0.4% hissəsi) aktiv internetdən istifadə edirdisə, hazırda 4.833 milyon (dünya əhalisinin 62% hissəsi) internetdən istifadə edir.

İnsanların tez bir zamanda internetdən istifadəni öyrənməsi, artıq onlarda onlayn ticarətə də maraq oyatmağa başladı. Bu səbəblə son dövrlərdə onlayn alış edən istehlakçıların sayı çox sürətlə artmağa başladı. 2019-cu ildə təxminən 1.92 milyon insan onlayn olaraq məhsul və ya xidmət alıblar. Bu alışlar zamanı xərclənən məbləğ isə 3.5 trilyon dollardan çox olub.

Bu mövzunun tədqiq olunmasının əsas səbəblərindən biri də, son dövrlərdə insanların internetdə, xüsusən də sosial şəbəkələrdə çox böyük vaxt keçirmələri ilə bağlıdır. Belə ki, rəqəmsal marketinqin ən böyük qollarından biri sosial media marketinqidir (sosial şəbəkələr vasitəsilə marketinq fəaliyyətinin həyata keçirilməsi). Son dövrlər sosial şəbəkələrdə də istehlakçıların sürətlə artması, artıq bu kanalın da onların alış qərarlarına təsir etməsinə gətirib çıxarır. Hazırda dünyada 3.96 milyon (dünya əhalisinin 51% hissəsi) sosial şəbəkələrdən istifadə edir və ortalama sosial şəbəkələrdə kiçirilən vaxt 144 dəqiqədir. Bu rəqəmin özü sosial şəbəkələrin nə qədər güclü alət olduğunu və insanların alış davranışına təsir etdiyini deməyimizə imkan verir.

**Açar sözlər: Rəqəmsal marketinq, reklam mövzuları, təhlil prosesi.**

# Aile Ortamının Öğrencilerin Okul Kültürüne Uyumu Üzerindeki Etkisi: Bir Ortaokuldan Bulgular

**Mehmet Selçuk Akbaş**
**Muhsin Halis**
**Bolu Abant İzzet Baysal Üniversitesi**

**Özet**
Aile ortamında var olan birtakım olumsuzlukların öğrencinin okul kültürüne uyumunda sıkıntı yaratacağı hipotezine dayanan bu araştırma; İstanbul'un Gaziosmanpaşa ilçesinde bulunan Karlıtepe Ortaokulunun 7/D sınıfında gerçekleştirilmiştir. 7/D sınıfına kayıtlı öğrencilerin okul kültürüne uyumunu tespit eden kriterler belirlenip öğrenciye uygun olan kısımlar işaretlenmiştir. Sonrasında aynı öğrencilerin ailevi durumlarına ilişkin kriterler belirlenip veliden alınan bilgiler ve e-okul veli-öğrenci bilgi sistemi ışığında işaretlenmiştir. Her işaret "1"puan olarak hesaplanmıştır. Okul kültürüne uyumda öğrencinin artan puanları onu risk grubuna dâhil etmektedir. Aynı biçimde öğrencinin ailesine ilişkin kriterlerde de artan puanlar ailevi riski ortaya koymaktadır. Bu puanların bir biriyle orantılı biçimde artış göstermesi ise araştırma hipotezinin doğruluğunu kanıtlayacaktır. Bu çalışmanın amacı; okul kültürüne uyum sorunu yaşayan öğrencileri, uyum sorunlarını ve sebeplerini net bir biçimde saptamak ve gerekli tedbirleri alarak öğrenciyi kazanmaktır.

**Anahtar Sözcükler: Okul kültürü, okul kültürüne uyum, okul kültürüne uyumda aile faktörü.**

# Azərbaycanda E-bələdiyyənin Formalaşması və İnkişaf Perspektivləri

**Nərmin Mustafayeva**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Vətəndaşlarla bələdiyyələr arasında qarşılıqlı kommunikasiya üsullarından biri İKT-dir. Ölkənin sosial-iqtisadi inkişaf prioritetlərindən biri bələdiyyələrdə elektron kommunikasiya texnologiyalarının formalaşdırılması və inkişafıdır. Bələdiyyələrin inkişafı baxımından "E-bələdiyyənin" yaranması məsələsi təqdim olunan məqalənin aktuallığını ortaya çıxarır. Məqalənın yazılmasında məqsəd bələdiyyələrin fəaliyyətində sakinlərin iştirakı, hesabatlılıq, şəffaflılıq, bələdiyyə ofislərinin fəaliyyətinin elektronlaşması, bələdiyyələrin səmərəliliyinin artırılmasını təmin edəcək E-bələdiyyə sisteminin formalaşmasının ölkə, bələdiyyə, cəmiyyət üçün önəmini qeyd etmək, ümumi olaraq ölkədə və bələdiyyələrdə İKT sahəsindəki mövcud vəziyyəti, xarici ölkələrin bələdiyyələrin elektronlaşması ilə bağlı həyata keçirdikləri layihələri, proqramları analiz etməklə inkişaf yollarını, E-bələdiyyə sistemin formalaşması mərhələlərini irəli sürməkdir. Elektron bələdiyyənin inkişaf amillərinin müəyyənləşməsi məqalənin elmi nəticəliyini əhatə edir. Məqalənin elmi yeniliyi Elektron bələdiyyənin formalaşdırılması və inkişafı perspektivlərinin irəli sürülməsi, bələdiyyələrdə İKT-dən istifadəni sürətləndirmək üçün vəzifələrin müəyyənləşdirilməsidir. Hansıki bu perspektivlərin reallaşdırılmasıyla bələdiyyələrin kompüterləşməsi, maliyyə-büdcə sistemlərində proqramların tədbiqi, bələdiyyənin veb saytının yaranması, ön və arxa ofislərinin, klassik funksiyalarının, kommunal xidmətlərinin elektronlaşması, elektronlaşdırılmış sənəd dövriyyəsinin tədbiqi, vətəndaşların qərar qəbulunda iştirakı, yerli özünüidarəetmə orqanlarının yerləşdikləri ərazilərdə informasiya köşklərinin yaranması, vətəndaş panellərinin quraşdırılmasına nail olunacaq.

**Açar sözlər: E-bələdiyyə, elektron sənəd dövriyyəsi, informasiya kommunikasiya texnologiyaları, bələdiyyə xidmətləri.**

# Müasir Əmək Bazarı və Məşğulluq

**Anar Yaqubov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Bildiyimiz kimi əmək bazarı cəmiyyətimizin social-iqtisadi həyatında önəmli faktorlardan biri hesab olunur. Əmək bazarında işçi qüvvəsinin, əməyin şəraiti, əmək haqqının kəmiyyəti, insanların məşğulluq təminatnın dəyəri qiymətləndirilir. Əmək bazarında bir növ işəgötürən və işaxtaranların maraqları üzləşdirilir. İnsan faktoru əhəmiyyət kəsb edən məsələlərdən hesab olunur. Əmək bazarı işaxtaranların öz imkanlarına, bacarıqlarına uyğun iş tapmaq, işəgötürənlərin isə öz fəaliyyətlərini həyata keçirmək üçün şərait yaradan ərazidir. İşaxtaranlar əmək fəaliyyəti barədə düşünərkən bu və ya digər formada peşələrə, ixtisaslara gələcəkdə olan tələbatı nəzərə almalıdırlar. Əmək bazarının müasir vəziyyətini qiymətləndirməyi bacarmaq və baş verə biləcək hal və vəziyyətlərə qarşı hazır olmaq vacibdir. Müasir əmək bazarında daimi olaraq məşğulluğa tam zəmanət vermək mümkün deyil. Əmək şəraitinə olan tələbat bir çox amillərdən məs, dövlətin bu sahədə həyata keçirdiyi islahatlardan, iqtisadiyyatın strukturundan, rəqabətdən, bazar qiymətlərindən, əməyin səmərəliliyini müəyyən etmək üçün lazım olan müasir bilik və bacarıqlara mənimsəməkdən asılıdır. Məhsul və xidmətlərin dəyişməsi ilə əlaqədar işçi qüvvəsinə olan tələb də dəyişir. Xüsusilə elm və texnologiyaların sürətli inkişafı və bu vasitələrdən düzgün səmərəli şəkildə istifadə edə biləcək işçi qüvvəsinə olan tələbi də formalaşdırır. Bu səbəbdən yüksək peşəkarlıq, təşəbbüskarlıq, aktivlik göstərmələri, əmək bazarında inkişaf etmək üçün başlıca amillərdən biridir.

**Açar sözlər: Əmək bazarı, işçi qüvvəsi, elm və texnologiya.**

# “Covid-19” Pandemiyası İlə İnnovativ Mübarizə

**Leyla Süleymanova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Məqalədə günümüzün vəbasına çevrilmiş “Covid-19” pandemiyasından, onun ölkə iqtisadiyyatına və sahələrinə olan təsirlərindən, innovasiya ilə qarşılıqlı əlaqəsindən, onun qarşısının alınması üçün innovativ işlərdən danışacayıq. Bəşər tarixi yarandığı gündən insanlar yer üzündə aclıq, qıtlıq, müxtəlif növ ölümcül xəstəliklər kimi hadisələr ilə qarşılaşmışdır. Tarixdə “Suçiçəyi”, “Vərəm”, “Taun”, “İspan Qripi” kimi dəhşətli xəstəliklər olmuşdur ki, bu xəstəliklər hələ də günümzdə yayılmaqdadır. 2020-ci il heç də bəzi digər illər kimi yaxşı gəlmədi. Çinin Huan vilayətində meydana gələn “Covid-19” virusunun ilk başlarda qarşısının alınması üçün tədbirlər görülməyə çalışılsa da, virus hər səfərində özünü yeniliyərək başqa formalarda təzahür edir, yəni olduğu mühitdə yox olmamaq üçün həmin mühitə uyğunlaşır, adaptasiya olur. “Covid-19” pandemiyası səbəbi ilə ölkələrdə üz-üzə olan tədris prosesi, yerindəcə alışverişlər, sektorlar üzrə olan işlər dayandırılmışdır. Qapalı məkanlarda görüşlər ləğv olunmuşdur.Təhsildə, işdə, alışverişdə və görüşlərdə onlayn (distant/məsafədən) formaya keçirilmişdir. Onlayn, yəni məsafədən olan görüş forması keçirildikdən sonra ölkələrdə elm, texnologiya sahəsinin nə qədər mühüm rol oynadığını, bu sahələrə ciddi formada nəzarətin əhəmiyyətliliyi göz qabağına gəldi. Elm və Texnologiya dedikdə, bu sahələr üzərində innovasiyanın adı da qeyd olunmalıdır. Onlayn alışların, işlərin və təhsilin keçirildiyi bu müddətdə çetinlikliklərin aradan qaldırılması, insanların evdə darıxmaqlarının qarşısının alınması, ev şəraitində vaxtlarının səmərəli təşkil olunması, işlərinin asanlaşdırılması üçün innovativ fəaliyyətlər iqtisadiyyatın hər sektoru üzərindən nəzərdən keçirilməli, innovasiyaya dəstək verilməli, bu sahənin inkişafını təmin etmək lazımdır. Bu məqalənin yazılmasına səbəb, hal-hazırda bütün dünyanın aktiv mövzusuna çevrilən, qlobal problemlərdən biri olan “Covid-19” pandemiyası ilə savaşmağa dəstək olmaq, virusun yayılmasının azaldılması üçün iqtisadiyyatın sektorlarında innovativ düşüncə və fəaliyyətlərin təbliğ və təşviqinə nail olmaqdır.

**Açar sözlər: Covid-19, innovasiya, pandemiya, iqtisadiyyat, texnologiya.**

# Regional İnkişafın Klaster Modeli: Yuxarı Qarabağ və Kəlbəcər-Laçın İqtisadi Rayonlarının Misalında

**Fərrux Rəhimov**
**Azərbaycan Dövlət Aqrar Universiteti**

**Xülasə**
İkinci dəfə müstəqillik əldə etdikdən sonra Azərbaycanda regionların inkişafı istiqamətində bir çox addımlar atılmış, dövlət proqramları icra edilmişdir. Bu islahatlar və proqramlar əlbəttə ki, işğaldan azad edilən Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarında da icra ediləcək. Bu məqalədə son illərdə xüsusi ilə inkişaf etmiş ölkələrdə regional inkişaf modeli olaraq uğurla istifadə edilən klasterləşmə modelinin əsas xüsusiyyətləri araşdırılaraq adı çəkilən bölgədə bu modelin tətbiqi imkanları tədqiq edilmişdir. Klaster modelinin əsas xüsusiyyəti regional ixtisaslaşmanı təşviq edərək, eyni və ya bənzər məhsulları istehsal edən, bu istehsalla bağlı müxtəlif xidmətlər göstərən, elmi-tədqiqat aparan, vasitəçilik və təchizatçılıq edən və digər maraqlı tərəflərin könüllü şəkildə qruplaşmasıdır. Klasterləşmə ilə bağlı elmi ideyaların tarixi A. Smit, A. Marşal kimi iqtisadçıların tədqiqatlarına qədər gedib çıxsa da əsasən 1990-cı ildə M. Porterin əsərlərindən sonra daha bu model daha çox araşdırılmağa başlandı. İqtisadiyyatın bütün sahələrində tətbiq oluna bilən modelin vacib xüsusiyyətlərindən biri də özəl sektorun burada mərkəzi rolu öz üzərinə götürərək dövlət və qeyri-hökumət sektoru ilə də yaxından əməkdaşlıq etməyinə əsaslanmasıdır. Ölkəmizə klasterləşmə istiqamətində atılan ən böyük addımlardan biri (dövlət büdcəsi hesabına və dövlət müəssisəsi olsa da) aqroparkların yaradılması və KOB klaster şirkətinin təşkil edilməsi, həmçinin klasterləşmə ilə bir çox dövlət proqramında xüsusi bəndlərin olmasıdır. Apardığımız tədqiqat işğaldan azad edilmiş bölgələrin bir çox xüsusiyyətləri nəzərə alınaraq burada aqrobiznes və turizm istiqamətində klasterlərin qurula biləcəyini göstərdi. Bu istiqamətdə nəzərə alınmalı olan bəzi məsələlər təkliflər formasında məqalədə öz əksini tapır.

**Açar sözlər: Klaster, aqropark, Yuxarı Qarabağ, Kəlbəcər-Laçın, aqrobiznes.**

# The Entrepreneurial Ecosystem in Azerbaijan and Uzbekistan, Cross-Country Analysis

**Aydan Sadigbayli**
**Jasur Karimov**
**Siegen University**

**Abstract**

As soon as the collapse of the Soviet Union, widespread democratic, economic, social, structural reforms began in most of the former centrally planned economies. One of the main aims was to shift the economic system from a centrally planned economy to an open market economy by choosing the most optimal approaches. In order to reach the targets, there were a number of issues that inherited from the previous system to be solved in the early 1990s. Many scientists, scholars, policy makers proposed their own way of transformation. There has been so much debate and research about advantages and disadvantages of gradual or radical (shock therapy) ways of reforms, and it has been continuing so far. However, it is still quite a challenge to choose one. Because, initially every country had different financial, labour, industrial cultural capabilities. Therefore, a group of countries like Russia, Estonia, Poland, Latvia, Lithuania, Kyrgz Republic and etc. chose rapid changes while other countries like Kazakhstan, Hungary, Croatia, Azerbaijan, Ukraine, Uzbekistan and etc. went for gradual ways of reforms. Due to those reforms, during the first decade of transition process nearly every transition countries faced dramatic decline of GDP by more than 40% overall between 1990 and 1995 . To compare during the Great Depression (1930-1934), the US' GDP decreased by about 27%.

This paper provides cross-country analysis of the transition period, in case of Azerbaijan and Uzbekistan. The paper is based on mainly descriptive research analysis, and at the same time enriched with several empirical examples. Moreover, there are several issues in the entrepreneurial ecosystem during the transition process, as well as opportunities to take the interactive entrepreneurial ecosystem to a new level.

**Keywords: American-style mixed economy, West European–style welfare state, Entrepreneurship, Innovation, Products, Innovative entrepreneurship, Government support of innovative Business.**

**Təşkilatlarda Sosial Münaqişələrin İdarə Olunmasında Yaranan Problemlərin Aradan Qaldırılması İstiqamətləri**

**Xətimə Bağırova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Məqalədə təşkilatlarda baş verən sosial münaqişələrin idarə edilməsinin əsas istiqamətləri araşdırılmış, baş verən problemlərin aradan qaldırılması istiqamətləri təhlil olunmuşdur.
İnsanlar qrup şəklində çalışdıqda, münaqişə ən çox gözlənilən nəticələrdən biridir. Əksər menecerlər iş vaxtının çox hissəsini insanlarla əlaqəli problemlərdən qaynaqlanan münaqişələr və ya problemlərlə məşğul olmaq üçün sərf edirlər.
Münaqişələrin düzgün idarə olunmaması işçi qüvvəsinə qarşı müxtəlif enerjinin paylanmasına, düzəldilməsi lazım olan səhv istiqamət danışıq səhvlərinə və nəticədə əldən verilmiş fürsətlərə səbəb olur. Təşkilati münaqişə ilə bağlı itkiləri hesablamaq çətindir. Bu işin məqsədi münaqişənin diaqnozu və effektiv idarə olunması üçün metodları təmin etməkdir. Münaqişə mürəkkəbdir, çünki ən azından idrak, psixoloji, fizioloji və kontekstual dinamiklərin qarşılıqlı əlaqəsini əhatə edir. Əksər münaqişə nəzəriyyələri münaqişənin anlaşılması və idarə olunması üçün yalnız psixoloji və və ya iqtisadi bir yanaşma tələb edir.
Münaqişə, qrupun bir və ya daha çox üzvünün inanclarına və ya hərəkətlərinə başqa bir qrupun bir və ya daha çox üzvü tərəfindən müqavimət göstərildikdə və ya qəbul edilmədikdə fərdlər arasında və ya qrup daxilində ortaya çıxan bir növ qarşıdurma, fikir ayrılığı və ya uyğunsuzluğa aiddir. Münaqişə fərqli insanların əks fikir və hərəkətlərinə aiddir və bununla da antaqonist bir vəziyyət yaranır.
Münaqişənin müxtəlif səbəbləri olduğundan ona münasibət və rolunun obrazları da müxtəlifdir. Hər bir münaqişənin həlli praktikasının məqsədi əvvəlcə münaqişənin səbəbini müəyyənləşdirmək və sonra yaratdığı problemləri həll etməkdir.

**Açar sözlər: İdarəetmə, sosial münaqişələr, işçi qüvvəsi, menecment, davranış strategiyası.**

# Восстановление Российского Рынка в Условиях Промышленного Рынка

**Василий Иусиумбели**
**Национáльный Исслéдовательский Тóмский Госудáрственный Университéт**

**Резюме**
Равенство общественности, провозглашенное урегулированием Советского Союза, не может быть принято в качестве выигравшей заявки. Правительство, которое принимает в экономику только государственный сектор, управляло экономикой из центра, отменив баланс потребности-предложения. Страна достигла определенного уровня благодаря большому труду и самопожертвованию общественности и стала одним из лидеров в мире в космической и военной области вместе с США. Конкуренция между США и СССР длилась сорок пять лет из-за того, что правительство СССР не могло добиться развития экономики. Из-за развала экономики Содружество независимых государств заменило СССР как экономический союз и приняло модель свободной торговли.
Модель свободной торговли полна случайностей и нитей. В Турции частный сектор достиг многих областей в начале 1990-х годов под воздействием случайностей и угроз в стране и за ее пределами. Частный сектор, производящий товары, начал с торговли чемоданами и продолжил с официальными моделями экспорта. В эти годы частный сектор также начал производить сахарные машины с государственным сектором. Сегодня количество этих компаний достигло восьми, и эти компании продают свои машины на международном рынке. Считается, что через 10-15 лет Турция станет очень могущественной страной в международной и российской сферах, если будет следить за технологическими улучшениями во всех сферах.

# İstehsal Müəssisələrində Pul Vəsaitlərinin Uçotu və Maliyyə Hesabatlarında Əks Olunması Prosedurlarının Təkmilləşdirilməsi

**Mehriban Rüstəmli**
**Azərbaycan Dövlət İqtisad Univertsiteti**

**Xülasə**
İstehsal müəssisələrində pul vəsaitlərinin uçotu və maliyyə hesabatlarında əks edilməsi mühasibat uçotunda ən məsuliyyətli sahələrdən biri sayılır. Buna görə mühasibat uçotunda bu sahənin təkmilləşdirilməsi ən aktual məsələdən biri hesab olunur. Bütün bu məsələlər nəzərə alınaraq, həm də respublikamızın mütəxəssisləri bu mövzu barədə geniş müzakirələr edirlər. Bunlar içərisində nağd pul vəsaitlərinin beynəlxalq standartlara uyğun olaraq tənzimlənməsi ilə bağlı müxtəlif elmi tədqiqatlar və məqalələr dərc edilmişdir. Bu sahədəki alim və mütəxəssislərimizin mühasibat və pul vəsaitlərinin uçotu barədə fikir və məqalələri böyük əhəmiyyət kəsb edir. Onların tədqiqatlarında bu istiqamətdə informasiyalara geniş yer verilmişdir. Pul vəsaitlərinin saxlanması və müəssisələr arası hesablaşmaların aparılması məqsədilə hər bir müəssisə bankda hesablaşma hesabı, xarici ölkələrlə məhsul və ya xidmətlərin alış satışı üçün xarici hesablaşma hesabları və digər hesabları açılır.Təqdiqatda pul vəsaitlərinin uçotu haqqında geniş məlumat verilmiş, onların maliyyə hesabatlarında həm kassa, həm də bank əməliyyatları üzrə uçot formaları göstərilmiş, pul vəsaitlərinin uçotunun səmərəli və düzgün formada istifadə olunması istiqamətlərində müəyyən təkliflər verilmişdir. Ödəniş sisteminin təkmilləşdirilməsinin yollarından biri də nağdsız pul ödənişlərin genişləndirilməsi, müasir texnologiyaların və məlumat ötürülməsi metodlarının tətbiqi, məlumat sistemlərinin təhlükəsizliyinin artırılması və bütün hesablaşma iştirakçıları üçün səmərəli və etibarlı xidmət göstərilməsi üçün tədbirlər görməkdir.

**Açar sözlər: Pul vəsaitlərin uçotu, maliyyə hesabatı, istehsal müəssisə, mühasibat uçotu.**

## Violation of IPR in The Process of Illicit Activities During The Occupation of Azerbaijani Territories

**Nargiz Hajiyeva**
**Azerbaijan State University of Economics**

**Abstract**
The article examines the problems of intellectual property arising from illegal activities during the occupation of Azerbaijani territories and the economic and political factors affecting it. The main purpose of the study is to conduct the volumes of illegal imports and exports, unlawful violations of intellectual property rights, illicit exploitation of goods, services, and other natural resources in those lands. The illegal activity carried out by Armenia during the occupation of Nagorno-Karabakh and its surrounding areas, the intellectual property violations faced by Azerbaijan in the import-export process in these territories are analyzed in the research work. The practical significance of the research lies not only in its contribution to the political and economic but also in the legal field, as well as in the connection of intellectual property with the political economy.
**Keywords: Intellectual property rights, Azerbaijan, Nagorno-Karabakh, Armenia, illegal activities.**

**Təchizat Zənciri Konsepti ilə Müəssisələrin Maliyyə Menecmenti Arasında Əlaqənin Xüsusiyyətləri**

**Nigar Eminova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Bu məqalənin əsas məqsədi təchizat zənciri konseptinin tarixi, yaranması şərtləri və mahiyyəti barədə məlumat verərək onun həm mikro səviyyədə, həm də makro iqtisadi müstəvidə ölkə üçün mühüm rol oynadığını izah etməkdən ibarətdir. Mövzunu aktual edən bir sıra səbəblər vardır. Heç təsadüfi deyildir ki, ölkə Prezidenti Cənab İlham Əliyevin qəbul etdiyi 2016-cı il 6 dekabr tarixindəki Fərmanı Azərbaycan Respublikasında təchizat zəncirinin əsas təməl konsepti sayılan logistikanın, o cümlədən də bütünlükdə ticarətin inkişaf etdirilməsinə aid Strateji Yol Xəritəsi olmuşdur. Ölkə başçısının ticarət və logistik idarəetmənin inkişaf etdirilməsinə göstərdiyi qayğı bununla da bitməmişdir, beləki regionların inkişafına dair qəbul edilmiş və icra edilmiş dövlət proqramları ölkədə yerli və xarici təchizat zəncirlərinin bərqərar olması üçün şərait yaratmışdır. Məqalədə eyni zamanda beynəlxalq təcrübə araşdırılmış və təchizat zəncirinin maliyyə menecmentinin inkişaf etdirilməsi ilə bağlı ən geniş istifadə olunan modellər və xüsusi alətlərin işlənmə mexanizmləri təsvir edilmişdir. Məqalədə eyni zamanda təchizat zəncirlərinin fəaliyyətlərinin yekun məqsədi istehlakçıların günü-gündən artan və dəyişən tələblərini qarşılamaq, onların məmnuniyyətini qazanmaq, son nəticədə isə onları daimi müştərilərə çevirmək olduğu xüsusilə vurğulanmışdır.

**Açar sözlər: Təchizat zənciri, logistika, maliyyə menecmenti.**

# Pərakəndə Ticarət Şəbəkələrində Müştəri Məmnuniyyətinə Təsir Edən Amillər

**Asiya İsayeva**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Müştərinin ehtiyaclarını, gözləntilərini, və davranışlarını tanımaq və təmin etmək heçdə asan deyildir və ən əsası da bunu bilmək bazarda hər zaman uğur qazanmağı təmin etmir. Bu gün müştəriləri razı salmaq daha çətin hala gəlmişdir. Çünki, məlumat əldə etmənin asanlaşması nəticəsində, müştərilər artıq daha ağıllı, daha tələbkar, daha bilinçlidir. Lakin, ticarət müəssisəsi müştəriləri ilə münasibəti düzgün təşkil edərsə, onun maliyyə göstəricilərinə müsbət təsiri olacaqdır. İnkişaf edən müştəri münasibətləri müəssisəyə daha çox gəlir gətirir. Bu proses müəssisənin rəqabətə dayanıqlığını və inkişafını da təmin edir. Əgər ticarət müəssisələrin planında müştəri məmuniyyətinin təmin olunmasına yer verilməyibsə, şübhəsiz ki, müasir dövrdə həmin müəssisələrin məhsullarının satışı aşağı olacaqdır.
Alıcılarına keyfiyyətli məhsul və ya xidmət təklif etmək bütün müəssisələrin təməl məqsədi olmasına baxmayaraq, bu müştəri məmnuniyyətini təmin etmək üçün yetərli deyildir. Bunun üçün müştərilərlə əlaqəni inkişaf etdirmək və onların gözləntilərini qarşılamaq lazımdır. Müştərilər müəyyən bir markanın məhsulundan öz gözləntilərini tapsalar belə rahatlıqla rəqib markalara maraq göstərə bilərlər. Bunun qarşısının almanın tək yolu güclü müştəri əlaqələri quraraq müştəri sədaqətini qazanamaqdır. Müştərilər müəssisələrin daima diqqət mərkəzində olmalıdırlar, çünki, onlar yalnız müştərilərinə kifayət qədər diqqət yetirdikdə əlavə dəyər qazana bilərlər. Sadiq müştəri bazası olmayan müəssisələr rəqibləri qarşısında müdafiəsizdirlər.

**Açar sözlər: Müştəri, məmnuniyyət, sadiqlik, satış.**

## Analysis of The Contributions of Tourism to Socio-Economic Development

**Laura Maulenova**
**Hoca Ahmet Yesevi  Uluslararası Türk Kazak Üniversitesi**

**Abstract**
Tourism is in a position that has an active role in the rapidly developing world and is constantly improving. The supply and demand arising in the tourism sector has become an important market for socio-economic development in a region. Tourism economies and the social and cultural effects of tourism activities play an important role in the development of a region. Especially in countries where the supply of touristic products is too high to be denied, the phenomenon of tourism contributes greatly to these regions both economically, socially and culturally.
In this study, it is aimed to explain the relationship between the tourism industry and other industries, and the socio-economic effects of inputs and outputs in tourism enterprises. In this sense, the study also aims to determine the benefits of tourism and tourism businesses to provide socio-cultural change and balanced development in the region. In this respect, not only present situation analyzes but also future analyzes are included in the study. Especially, the socio-economic contributions of the goods and services exchanges made by accommodation businesses with businesses in other sectors to the region have been investigated. In the study, statistics on tourism over the world countries and Kazakhstan were given and the economic benefits of the sector were mentioned.
**Keywords: Socio-economic effects, tourism economy, Kazakhstan tourism sector.**

# Göygöl Rayonunun Turizm Klasteri kimi Problemləri və İnkişaf Perspektivləri

**Əligül Ağayev**
**AR İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu**

**Xülasə**

Tədqiqatda ABŞ-ın Texas ştatında yerləşən Frederiksburq qəsəbəsinin turizm klasteri modeli əsasında Azərbaycanın Göygöl rayonu (Yelendorf şəhər mərkəzi) üçün dayanıqlı turizm klasterinin yaradılması imkanı araşdırılmışdır. Bunun üçün turizm klasterlərinin inkişaf problemlərini müəyyən edilmiş, klasterin əsas elemetlərini təhlil olunmuş, Azərbaycanın Göygöl rayonunuda dayanıqlı turizm klasterinin yaradılmasına mane olan səbəblər öyrənilmişdir. Araşdırmada turizm klasterlərinin yaradılmasının nəzəri metodoloji əsasları, klasterlərin mövcudluq mərhələləri, klasifikasiyyası, müəlliflərə görə turizm klasterlərinin elementlər sistemi öyrənilmişdir. Turizm klasterlərinin dayanıqlı inkişaf amilləri araşdırılmış, təcrübə səfəri zamanı ABŞ-ın Texas ştatının Frederiksburq qəsəbəsində mövcud turizm klasteri tədqiq olunmuş, uğur amilləri öyrənilmiş və nəticələr qeyd olunmuşdur. Həmçinin, Azərbaycanın Göygöl rayonunun turizm klasteri tədqiq olunmuşdur, klaster və SWOT analiz aparılmışdır. Keyfiyyət yönümlü tədqiqat metodu vasitəsi ilə Göygöl rayonunda turizm klasterinin yaradılmasına mane olan əsas problemlər müəyyən olunmuş və aradan qaldırılması üçün təkliflər hazırlanmışdır. Modelin tətbiq olunması ilə Göygöl rayonu nümunəsində dayanıqlı turizm klasterinin yaradılması mümkün hesab olunur. Gələcəkdə uğurlu təcrübə digər rayonlarda da tətbiq oluna bilər.

**Açar sözlər: Turizm, klaster analizi, Göygöl rayonu.**

# Azərbaycanda Yerli Məhsulların Reklam Mövzuları və Sloqanlarının Təhlili və Təkmilləşdirilməsi

**Aqil Nəsibov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Azərbaycanda reklam iqtisadiyyatı inkişaf etməkdə olan bir sahəsidir. Ölkəmizin sosial-iqtisadi inkişafının müasir şərtləri daxilində reklam marketinq kommunikasiya sisteminin bir elementi olaraq həyatın bütün sahələrini əhatə edən çox vacib bir rol oynayır.

Azərbaycanda reklam sənayesinin öyrənilməsinin aktuallığı bir neçə aspektlə əlaqədardır. Yarandığı dövrdə reklam satışları artırmaq üçün tamamilə iqtisadi bir vasitə kimi baxılırdısa, indi onu bir sənət yolu kimi məlumat, kütlə üzərində təsir yolu kimi qiymətləndirməyə dəyər. Bəzən reklamlar o qədər təsirli olur ki, gündəlik danışıq dilinə artıq daxil edilir, məsələn, məşhur Red Bull - qanadlandırır şüarı kimi. Bunda əhəmiyyətli bir rolu Azərbaycanda dəyişən əhalinin geniş təbəqələrinin reklam qəbuletməsini, rabitə kanalı kimi ona etibar etmək istəklərini (və ya istəməmələrini) təhlil etməsi oynayır.

Hər gün artan rəqabət şəraitində hər bir şirkətin əsas vəzifələrindən biri də alıcı cəlb etməkdir. Reklam fəaliyyətləri məhz bu funksiyanı yerinə yetirmək üçün hazırlanmışdır.

Reklam müasir cəmiyyətin dinamik, sürətlə inkişaf edən bir hissəsidir. Dünyadakı dəyişikliklərlə paralel olaraq daim inkişaf edir: siyasi, iqtisadi, sosial. Reklam növü, tərkibi və forması da istehsalın, texnologiyanın və kadrların inkişafından çox asılıdır. Zaman keçdikcə reklam iqtisadiyyatın müstəqil bir qolu kimi inkişaf etməyə başladı. Özünün qanunauyğunluqları, funksiyaları, prinsipləri və hədəfləri var. Reklam bəşər tarixinin və mədəniyyətinin xüsusi bir hissəsinə çevrildi.

**Açar sözlər : Reklam və sloqanlar, yerli məhsul, təhlil və təkmilləşdirmə.**

# Основные Пути Совершенствования Учета, Аудита и Анализа Запасов в Производственных Организациях

**Улькяр Мамедова**
**Азербайджанский Государственный Экономический Университет**

**Резюме**

В статье рассматривается проблема учёта, анализа и аудита запасов, с которым сталкивается предприятие (неликвиды). Вследствие этого организации приходится создавать накопления под обесценения, где затрагивает счета прочих расходов и в дальнейшем убавляет свой финансовый результат и ухудшает финансовое положение. На базе вышеизложенного выявлены пути роста важных показателей запасов. Сформулированы показатели, которые показывают состояние, достаточность и эффективность применения средств, вложенных в запасы. Представлены мероприятия по улучшению регулирования запасами в производственных организациях.

Главными направлениями динамики политики контроля запасами для ООО «Delta Group C.O.» будут:

- рост величины запасов для быстрой их оборачиваемости и уменьшению издержек производства;
- организация материального снабжения в нужное время и в достаточных количествах;
- оптимизация затрат сырья в процессе производства;
- подготовка мероприятий по улучшению качества составления и контроля за расходованием запасов с помощью внедрения новых инновационных новшеств и особых программ.

Развитие цифровизации в контроле запасами влияет на управление всей деятельности предприятия и даёт возможность предприятию отслеживать запасы, которые хранятся на складах, а клиентам – предоставить существенность в магазине необходимой продукции. Цифровизация позволяет снизить затраты, выбрать и принять наиболее оптимальные высказывания в логистике, в таблице поставок, улучшить качество потребительского обслуживания.

**Ключевые слова: Запасы, система регулирования запасами, система контроля XYZ, относительный уровень запаса в днях издержек.**

# Azərbaycanda Əmək Bazarının Vəziyyətinə Ümumi Baxış

Ülviyyə Məmmədova
Azərbaycan Dövlət İqtisad Universiteti

**Xülasə**

Məqalədə Azərbaycanda əmək bazarının mövcud vəziyyətinə ümumi baxış həyata keçirilmişdir. Müəyyən edilmişdir ki, əmək bazarının mövcud vəziyyəti Azərbaycanda iqtisadi və sosial dəyişkənliyi ilə xarakterizə olunur ki, bu da əmək bazarının elastikliyinə dəlalət edir. Elastiklik əmək bazarının xarici təsirlərə sürətlə uyğunlaşma və yeni iqtisadi şərtlərə uyğunlaşma qabiliyyətini nəzərdə tutur. Eyni zamanda, çevik əmək bazarı, əmək resurslarının tam istifadəsi və səmərəli bölgüsü üçün şərait yaradır ki, bu da nəticədə səmərəli məşğulluq strukturunu tələb edir. Ancaq, aparılan işlərə baxmayaraq, Azərbaycanın əmək bazarında hələ də problemlər yaşanmaqdadır. Bunlar əsasən özünü daimi iş yerlərinin azlığında, gənclər arasında işsizliyin və miqrasiyanın səviyyəsinin yüksək olmasında, işçi qüvvəsinin keyfiyyət göstəricilərinin əmək bazarının tələblərinə cavab verməməsində, qeyri-formal məşğulluğun səviyyəsinin hələ də böyük olmasında, əmək ehtiyatlarının zonalar üzrə qeyri-bərabər formada paylanmasında, iş yerlərinin mövsümi xarakter daşımasında, bir çox ixtisaslar üzrə əmək haqqının səviyyəsinin aşağı olmasında özünü göstərir. Bu da əhalinin məş¬ğulluğun təmin olunması istiqamətində siyasəti daim təkmilləşdirməyi tələb edir. Belə ki, məşğulluq sahəsində bir sıra istiqamətlərdə sistemli tədbirlərin həyata keçirilməsinə ehtiyac var.

**Açar sözlər: Məşğulluq, əmək, işsizlik, bazar, tənzimlənmə, əmək bazarı.**

# Qlobal Koronavirus Pandemiyasının və Xüsusi Karantin Rejiminin Yaratdığı Məhdudiyyətlərin Kənd Təsərrüfatının İqtisadiyyatına Təsiri

**Əbdülrəhim Dadaşov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
İqtisadiyyatın əsas istehsal sahələrindən biri olan kənd təsərrüfatı xarici effektlərdən asılı olaraq dəyişməkdədir. Belə ki, bu xarici təsirlər həm ölkə miqyasında, həm qlobal miqyasda baş verən proseslərlə əlaqədardır. Ölkə iqtisadiyyatının dayanıqlı inkişafına nail olunması üçün ərzaq təhlükəsizliyi məqsədləri üçün kənd təsərrüfatı məhsullarının artım tempi saxlanılmalıdır. Bununla yanaşı, ixrac potensialı olan kənd təsərrüfatı məhsulları ixrac edilməsindən daxil olmalar hesabına büdcə gəlirləri artım imkanları daim diqqətdə saxlanılır. İspan Qripi, Asiya Qripi, Hong Kong Qripi, HİV/GİÇS, SARS, Ebola və Donuz Qripi kimi bəşəriyyətin yaşadığı fərqli pandemiyalar, iqtisadiyyata, ətraf mühitə və hər hansı bir insan fəaliyyətinə böyük təsir göstərmişdir. Kənd təsərrüfatı, turizm, nəqliyyat, təhsil, səhiyyə, balıqçılıq, mədənçilik, sənaye, ticarət və s. kimi iqtisadiyyat sahələri də məhz həmin təsirə məruz qalmışdır. Hal-hazırda bəşəriyyət başqa bir pandemiya ilə - COVİD- kimi tanınan xəstəliyi yaradan yeni koronavirus infeksiyası ilə qarşılaşmışdır. 2019-cu ilin dekabr ayında Çində başlamış “Covid 19” koronavirus pandemiyası qısa müddət ərzində İrana, İtaliyaya, Almaniyaya və digər Avropa, Asiya, Afrika və Amerika ölkələrinə yayılmış, qlobal miqyasa çevrilmişdir. 2020-ci ilin fevral ayından etibarən isə Azərbaycanda ilk yoluxma faktları aşkar edilmiş, zaman keçdikcə də sürətlə yayılaraq iqtisadiyyata, o cümlədən kənd təsərrüfatına öz mənfi təsirlərini göstərmişdir. Məqalədə qlobal koronavirus pandemiyasının kənd təsərrüfatına, fermer təsərrüfatlarının fəaliyyətinə və maliyyə çıxışına təsiri, ölkədə və beynəlxalq təcrübədə tətbiq edilmiş qabaqcıl tədbirlərin nəticələri araşdırılmışdır.

**Açar sözlər: Kənd təsərrüfatı, fermer təsərrüfatı, qlobal pandemiya, koronavirus, karantin rejimi.**

# Необходимость Разработки и Совершенствования Системы Управления Охраной Труда (СУОТ) в Азербайджане

**Рза Абдулазизов**
**Азербайджанский Государственный Университет Нефти и Промышленности**

**Резюме**
В статье рассмотрена и проанализирована нынешняя ситуация, связанная с плохими условиями труда на рабочем месте и динамикой несчастных случаев на производстве и профессиональных заболеваний в мире и в частности в Азербайджане. Автором дана попытка раскрыть глубинные причины, экономические последствия, предложены пути решения посредством применения и совершенствования системы управления охраной труда (СУОТ) на предприятии. Обоснована необходимость пересмотра самой концепции СУОТ, ее совершенствовании и приближения к требованиям международных аналогов. Автором раскрыто понятие «охраны труда», разобраны понятия «техника безопасности» и «техническая безопасность». В статье также излагается тема аттестации рабочих мест по условиям труда, ее современное состояние в Азербайджане, разобраны нормативно-правовые акты, связанные с компенсациями и льготами, которые предоставлены работникам за вредные и тяжелые условия труда. Проведение АРМ является важным элементом СУОТ, которое можно отнести к профилактическим и превентивным мерам по предупреждению несчастных случаев и профессиональных заболеваний на производстве. Наличие одного стандарта и одного межгосударственного стандарта по СУОТ явно недостаточно для эффективного управления охраной труда на предприятиях, в связи с этим автором предлагается совершенствовать правовую базу по охране труда в Азербайджане и применение современных практик.

**Ключевые слова: Плохие условия труда, несчастные случаи на производстве, профессиональные заболевания, система управления охраной труда.**

# Distant Təhsilin İdarə Edilməsi

**Aytac Yusifova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Müasir dövrdə keyfiyyətli təhsil verilməsi ənənəvi təlim metodları ilə onlayn təlim vasitələrinin optimal (uğurlu) vəhdəti hesabına mümkündür.Məruzədə pandemiya ilə əlaqədar təhsilin demək olar ki bütün mərhələlərinin distant təhsil sistemə keçirilməsində həm təhsil alanlar həm də tədris edənlər üçün yaranmış çətinliklərdən və onların həll yollarından bəhs edilmişdir. Məruzənin əsas məqsədi distant təhsil sisteminə marağın artırılması keyfiyyətin təmin edilməsi və yeni metodologiyalardan istifadənin genişləndirilməsidir. Təhsilin onlayn rejimdə olması təbii ki, köhnə üsul tədris prosesinin və qiymətləndirmə metodlarının öz təsirini itirməsinə gətirib çıxarmışdır. Məqalədə göstərilmişdir ki, onlayn təhsildə tələbələrin mühazirə tipli dərslərə marağının çox aşağı olması ilə bərabər, bu mexanizm təhsilalanları əzbərləməyə və qiymət almaq xatirinə oxumağa təhrik edir. Hazırki dövrdə elektron tədris texnologiyalarını tətbiq etməyi bacarmayan, distant təhsilin təşkilinin əsaslarını mənimsəməyən müəllim özünün rəqabətə davamlılığını itirir, həm də müasir ünsiyyət üsullarında mobilliyinin olmaması səbəbi ilə tələbələr üçün maraqsız və arzu edilməz olur. Bu tip bilik, bacarıq və motivasiyaya sahib olmayan bir müəllim təhsilalanlarla qarşılıqlı ünsiyyət üçün virtual tədris mühitini qurmaq imkanlarından məhrumdur.Bunun qarşısını almaq üçün daha yeni metodlardan istifadə edərək dərslərin qarşılıqlı diskusiya şəraitində keçirilməsi məqsədə müvafiqdir və bu zaman tələbələrin dərs prosesinə marağının artdığı müşahidə olunmaqdadır. Qiymətləndirmə prosesində Kahoot və Quizziz kimi qiymətləndirmə vasitələrindən istifadə edilməsinin şagird və tələbələrin dərs prosesinə marağının artmasına gətirib çıxaran əsas amillərdən biri hesab edilir.

**Açar sözlər: Distant təhsil , onlayn təhsil, tələbə, tədris.**

# The Energy Factor as the Main Mechanism of Azerbaijan's Domestic and Foreign Policy

**Ali Karimli**
**Azerbaijan University of Construction and Architecture**

**Abstract**
Respublikamızda dövlət maliyyə nəzarətini Hesablama Palatası, Maliyyə Nazirliyinin Maliyyə Nəzarəti Xidməti ,Auditorlar Palatası,İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi xidməti,Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və öz səlahiyyətləri hüdudlarında digər orqanlar həyata keçirirlər. Dövlət maliyyə nəzarəti vasitəsi ilə planlaşdırılmış bütün vəsaitlərin zamanında dövlət fondlarına daxil edilməsinə və bu vəsaitlərdən məqsədyönlü istifadəyə nəzarət gerçəkləşdirilir. Hər bir nəzarət orqanı öz fəaliyyətlərdə sərbəst olsalar da, son məqsədi eynilik təşkil edir. Belə ki, dövlət maliyyə nəzarətini həyata keçirən orqanlar respublikamızda maliyyə dayanıqlığının artırılmasına, maliyyə resurslarından təyinatı üzrə istifadə olunmasına nəzarəti reallaşdırırlar.

Ölkəmizdə maliyyə nəzarətinin tədqiqi göstərir ki, maliyyə nəzarəti sisteminin hazırki dövrün tələblərinə uyğun təşkili və təkmilləşdirilməsi olduqca önəmlidir. Bu məqsədlə ilkin olaraq maliyyə nəzarətinin müasir formalarının təşkili və fəaliyyətlərinin təmin olunması, nəzarət sisteminin koordinasiyası, onun təsirinin artırılması təmin olunmalıdır.

**Açar sözlər: Maliyyə, hesablama palatası, nəzarət, vergi, gömrük.**

# Проблемы и Перспективы Кластеров

**Регина Гасанова**
**Азербайджанский Государственный Экономический Университет**

**Резюме**
Растущий интерес к кластерам - лишь один из аспектов более широкой переориентации исследований и экономической политики на микроэкономические основы процветания и роста. В дискуссиях по вопросам политики в предыдущие десятилетия в значительной степени преобладала макроэкономика и создание рыночных институтов в странах с переходной экономикой. Но хотя сейчас существует довольно широкий консенсус относительно типа макроэкономических и правовых условий, необходимых для достижения экономического прогресса, также становится все более очевидным, что этих условий недостаточно. В качестве нового подхода, призванного помочь странам в полной мере использовать потенциал улучшенного макроэкономического и правового контекста, усилия, основанные на кластерах, привлекли большое внимание. Хотя мало кто спорит о том, что концепция кластера становится все более популярной, не все исследователи согласны с тем, что это положительный момент. Некоторые критики утверждают, что определение кластеров слишком расплывчато, и поэтому концепция является проблематичным источником политических рекомендаций. Другие считают кластерное развитие полезным подходом, но обеспокоены его фактическим использованием в проектах, мало напоминающих исходную структуру. Эти проекты могут вызвать серьезную негативную реакцию против такого подхода, когда результаты так называемых кластерных усилий не оправдывают их порой завышенных обещаний. Однако специалисты-практики испытывают такое сильное давление, чтобы разработать новый, более эффективный подход к экономическому развитию, что они не могут позволить себе ждать разрешения этих теоретических споров.

**Ключевые слова: Концепция кластера, теоретические и практические аспекты, перспективы развития, мировой опыт, экономическое развитие.**

# Maliyyə Təhlilində İstifadə Olunan Manipulyasiya Modelləri

**Elay Zeynallı**
**Azərbaycan Dövlət Aqrar Universiteti**

**Xülasə**
Təqdim olunan məqalə bazar iqtisadiyyatının əsas reallıqlarından olan qeyri-müəyyənlik və risklərin mövcudluğu halında müəssisələrdə maliyyə hesabatlılığı prosesində manipulyasiya ehtimallarının predikativ modellər əsasında qiymətləndirilməsinə həsr olunub. Müasir dövrdə daha çox investisiya cəlb etmək. Bazar nüfuzunu artırmaq, müxtəlif öhdəliklərdən boyun qaçırmaq və s. məqsədlərə müəssisələr Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və yerli qanunvericilikdə seçim hüququ verilən məsələlərdə və hesablama prinsipindən istifadə edərək manipulyasiyaya meyillənirlər. Məhz bu halların maliyyə təhlilində qiymətləndirilməsi üçün ehtimala əsaslanan predikativ modellərdən istifadə olunur. Tədqiqatda kifayət qədər tanına “Healy”, “DeAngelo”, “Jones” və Beneiş “M modeli”nə yer verilmiş, modellərin elementləri, analitik imkanları, etibarlılıq dərəcələri, habelə üstünlük və çatışmazlıqları qeyd olunmuşdur. Bundan əlavə, yuxarıdakı modellərin törəməsi hesab olunan Spathis və Roksas modellərinə də nəzər yetirilmişdir. Sonda tədqiqatın yekunu olaraq müəyyənləşdirilmiş nəticə qeyd olunmuşdur.

**Açar sözlər: Predikativ, model, hesablama prinsipi.**

# Ölkəmizdə İdarəetmə Kadrlarının Hazırlanmasının Əsas Xüsusiyyətləri

**Zərniyar Hüseynova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Məqalədə ölkəmizdə idarəetmə kadrlarının hazırlanmasının əsas xüsusiyyətləri araşdırılmş və müasir metodları öyrənilmişdir. Məlum olduğu kimi, müasir əmək bazarında yüksək ixtisaslı idarəetmə kadrlarına xüsusi tələb var və bu tələbat ildən-ilə artır. Şirkətlər yeni kadr hazırlığına məhsuldarlığı, gəlirliliyi artırmaq və yüksək nəticələr əldə etmək məqsədi ilə başlıca vasitə kimi baxırlar. Kadrlar anlayışı hər hansı bir şirkətdə və ya təşkilatda çalışan insanları və işçilərlə əlaqəli qaynaqları idarə etməkdən məsul olan şöbəni təsvir etmək üçün istifadə olunur. Kadrların idarəedilməsi, insanları strukturlaşdırılmış bir şəkildə idarə etmək üçün təşkilatın ən vacib funksiyalarından birinə çevrilmişdir. İndiki mövcud vəziyyətdə, insan resurslarının idarəedilməsi, performans idarəetməsində artan nəzarət, işçilərin və bütövlükdə rəhbərliyin effektiv münasibətlərinin artan əhəmiyyəti sayəsində strateji əhəmiyyət qazanmışdır.
Məqalədə tədqiqatın əsas vəzifələri kimi Azərbaycanda və dünyada idarəetmə kadrlarının hazırlanması xüsusiyyətlərini araşdırmaq, Kadrların hazırlanmasının müasir metodları və onların qarşılıqlı əlaqəsini müəyyənləşdirmək, Rəqəmsal iqtisadiyyatda kadrların rolunu araşdırmaq, İKT və onun Azərbaycan iqtisadiyyatının inkişafında kadr motivasiyasının rolunu müəyyənləşdirmək və Kadrlarla işin səmərəliliyinin qiymətləndirilməsi analizini aparmaqdır.
Məqalənin informasiya bazası kimi, rəqəmsal iqtisadiyyat üçün kadrların seçilməsi, hazırlanması və motivasiyası üzərində apardıqları işlər təşkil etmişdir. Tədqiqatın əsasında mövzu ilə bağlı yerli və xarici mütəxəsislərin elmi əsərləri, yerli və xarici mətbuatda yer almış rəsmi internet saytlarında qeyd olunan məlumatlar təşkil edir.

**Açar sözlər: Kadrların idarəedilməsi, işə qəbul, dövlət xidmətləri, kadr hazırlığı, vəzifə.**

# Azərbaycanda Dövlət Gəlirlərinə Təsir Edən Amillər

**Lamiə Nağıyeva**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Hazırki dövrdə Azərbaycanın müasir iqtisadiyyatında dövlət büdcəsi vasitəsilə ölkənin sosial-iqtisadi sahələrinin perspektivinin müəyyənləşdirilməsi təmin edilir. Məqalənin hazırlanmasında məqsəd büdcə gəlirlərinin formalaşma xüsusiyyətlərini və qanunauyğunluqlarını elmi əsaslarla təklif və tövsiyyələri hazırlamaq, maliyyə sahəsində effektiv fəaliyyətin təmin edilməsi prosesində büdcə gəlirləri vasitəsi ilə idarəetmə sahəsində yaradılan şəraitin tədqiq edilməsidir. Tədqiqatın sistemli təhlili nəticəsində dövlət büdcəsi gəlirlərinin formalaşdırılması və idarə edilməsi mexanizminin təkmilləşdirilməsi, təlimatların hazırlanması üçün istifadə edilə bilər. Daha dəqiq desək, əldə olunan nəticələrin iqtisadi artımın və iqtisadiyyatın davamlı maliyyə sektorunun vacib amili kimi istifadə edilməsi büdcə sisteminin səmərəliliyinin artmasına, büdcə nəzarətinin gücləndirilməsinə, qeyri-neft sektorunda və sosial sahələrdə irəliləməyə xidmət edir. Dövlət büdcə münasibətlərinin hazırki müasir maliyyə münasibətlərinə uyğun şəkildə formalaşmasının təkmilləşdirilməsi büdcə mexanizminin milli iqtisadiyyatda davamlı irəliləməyə doğru təsirini müəyyən edir. Yuxarıda adları çəkilən problemlərin daha dəqiq araşdırılması Azərbaycanda formalaşmış büdcə gəlirləri siyasətinə uyğun olaraq yeni nəzəri metodiki qaydaların və praktik tövsiyyələrin hazırlanmasına imkan verir. Məqalədə qlobal iqtisadi böhran şəraitində dövlət büdcə sisteminin xüsusiyyətlərini, dövlət büdcə sisteminə təsir edən amillər nəzərdən keçirilmişdir. Eyni zamanda sosial yönümlü iqtisadiyyatda dövlət büdcə siyasətinin prioritetləri müəyyənləşdirilir, həmçinin büdcə prosesinin məhsuldarlığının idarə edilməsinə konseptual yanaşma təsvir olunur. Maliyyə nəzarətinin təkmilləşdirilməsi imkanları, büdcə gəlirlərinin idarə edilməsi üçün müvafiq təklif və tövsiyyələr təqdim olunmuşdur.

**Açar sözlər: Dövlət gəlirləri, büdcə, iqtisadi amillər.**

# Xidmət Müəssisələrində Maliyyə Hesabatlarının Tərtibi, Təsdiq və Təqdim Olunması Qaydası

**Samirə Əlizadə**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Mühasibat (maliyyə) uçotu sistemi tətbiq olunduğu mühitin praktiki tələbatlarını qarşılamaq üçün daima dəyişikliyə uğrayan və tərəqqi edən bir sistemdir. Buna görə dünya iqtisadiyyatının qloballaşması ilə əlaqədar olaraq işgüzar münasibətlər dünya miqyasında da geniş yayılmışdır. Beləliklə, böyük ticarət mübadilələrini əks etdirən pul məlumatları əlavə olaraq qloballaşır. Nəticə etibarilə, büdcə hesabatlarında bu məlumatları ehtiva edən dəyişikliklər var və bunların bütün dünyada qəbul edilmiş normalarla qarışdırılması vacibdir. Günümüzdə mühasibat (maliyyə) uçotu və hesabatının qarşısındakı problemlərdən biri də hesabat formalarının dövlətlərarası standartlara müvafiq şəkildə inkişaf etdirilməsidir. Maliyyə hesabatı formalarının dövlətlərarası standartlara müvafiq şəkildə inkişaf etdirilməsi məqsədilə bu standartlarda nəzərdə tutulan konseptual əsaslara, başqa sözlə desək mühasibat (maliyyə) uçotu və hesabatının bir sıra prinsiplərinə əməl edilməsi dövlətlərarası standartlara harmonizasiyada əsas vəzifələrdən biridir. Maliyyə hesabatları xidmət sferası müəssisələrində maliyyə vəziyyətinin strukturlaşdırılmış təsvirini özündə əks etdirir. Maliyyə hesabatlarının məqsədi xidmət müəssisələrində maliyyə vəziyyəti, nəticələri və maddi vəsaitlərinin hərəkəti barəsində məlumatları hazırlamaq məqsədi daşıyır ki, iqtisadi qərarlar alarkən geniş istifadəçi kütləsi üçün faydalı olsun. Maliyyə hesabatları xidmət müəssisənin rəhbərliyinə əmanət olunan resursların idarəsinin nəticələrini əks etdirir.

**Açar sözlər: Maliyyə hesabatları, xidmət müəssisələri, kapital, aktivlər, pul vəsaiti.**

# Azərbaycanda İnşaat Sektoruna Təsir Edən Daxili və Xarici Amillər

**Pərvin Hacıyeva**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
İnşaat sektoru ölkənin bütün istehsal potensialının maddi bazasının yenidən qurulması və qeyri-istehsal (mənzil, mədəni, sosial) sahəsinin inkişafı ilə bağlı mühüm vəzifələri həll edən ölkə iqtisadiyyatının əsas sahələrindən biridir. Böhrandan qurtulma sürəti və daxili iqtisadiyyatın rəqabət qabiliyyəti əsasən inşaat kompleksinin səmərəliliyindən asılıdır. Tikinti sənayesi, digərləri ilə yanaşı, bir ölkənin, regionun, şəhərin, rayonun iqtisadiyyatı və sosial sahənin əsasıdır. İnşaat sektoru hər bir ölkənin iqtisadiyyatında mühüm rol oynayır. İqtisadiyyatın digər sahələri üçün əsas fondların yaradılması və modernləşdirilməsində iştirak edən iqtisadi proseslərin bir hissəsi kimi inşaat ən vacib və əsas istiqamətlərdən biridir. Bu sektorun səmərəliliyi - tikintinin dəyəri, əsas fondların müddəti və modernləşdirilməsi - ölkə iqtisadiyyatının sürətlə böyümək qabiliyyətini və əsas sosial-iqtisadi problemlərin həll sürətini müəyyənləşdirir. Məqalədə inşaat sektorunun inkişafı, milli iqtisadiyyatın inkişafında rolu araşdırılır. Tikinti sənayesinin mövcud vəziyyəti ümumiləşdirilir, əsas kapitala qoyuluşların strukturu təhlil olunur. İnşaat sənayesinin böyüməsi qaçılmaz olaraq ölkədə artan iqtisadi artıma və bir çox sosial problemin həlli üçün lazımi şərtlərin yaranmasına səbəb olur. Məqalədə eyni zamanda inşaat sektoruna təsir edən daxili və xarici amillər də araşdırılır. Milli iqtisadiyyatın inkişafına dair strateji hədəfin həyata keçirilməsinin uğuru bir çox amillərdən asılıdır. Geniş bir sıra problemlər üçün istifadə edilə bilən və müxtəlif xarici şəraitdə sabitliyini qoruya biləcək bir iqtisadi model yaratmaq lazımdır. İnnovasiyalı prioritet sahələri və perspektivli fəaliyyət sahələrini təyin edərkən gələcək inkişafa əhəmiyyətli təsir göstərən amilləri dəqiq müəyyənləşdirmək və nəzərə almaq lazımdır. Müasir şəraitdə əsas səbəbləri müəyyənləşdirmək və vaxtında onlara əməl etmək lazımdır, yalnız nəticələri ilə mübarizə aparmaq kifayət deyil.

**Açar sözlər: İnşaat sektoru, investisiyalar, milli iqtisadiyyat, daxili amil, xarici amil.**

**The Extent of Financial Crisis' Impact on The Dividend Distribution Behavior of Selected Listed Financial Sector Firms**

**Asheera Husniyah Mahamoodally**
**Cornel University**

**Abstract**

The financial crisis has inflicted global economic, social, and financial troubles. With the economic downturn, private and even public consumption were highly tightened, big corporations and/or small companies failed, which caused a disastrous spillover effect. Firms were obliged to close doors, people losing their jobs, and companies went bankrupt. It was a financial nightmare. Firms were forced to undergo changes in their accounting policies to survive in the calamity. The foremost policies, which radically were changed, included the dividend policies. Among some reasons to those forced modifications were the needs to cut down debt immediately, liquidity pressure, national/international regulatory bodies, changing laws, among others. The study investigates the impact of the financial crisis on a total of 60 financial corporations‟ dividend policies in USA, UK, and Turkey using data for time of 11 years, between 2005 and 2015. The study carries a fixed panel effects approach and results show that the dividends were affected but not drastically in the three countries cases. As a conclusion, the analysis contradicts the hypotheses that financial crisis severely impacted dividend distributions of financial corporations in USA and UK. Additionally, Turkey is not affected in 2008.

**Keywords: Financial crisis, dividend distribution, markets‟ reactions, ınvestors‟ panic panel data analysis.**

## Topdansatış Müəssisələrində Anbarların İnnovativ İdarə Edilməsi Yolları

**Səbinə Məmmədova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Müasir dövrdə ticarət sahəsində gün keçdikcə rəqabət daha da artmaqdadır və buna görə də rəqabətə tab gətirməyi hədəfləyən topdansatış şirkətləri əmtəə dövriyyəsi prosesini optimallaşdırmalı, eyni zamanda anbarlaşdırmanın logistik təşkili və idarə edilməsi ilə bağlı bir sıra tədbirlər həyata keçirməlidirlər. Topdansatış müəssisələrində anbarlaşdırma logistikasının təşkili malların satışı üçün effektiv marketinq strategiyalarının həyata keçirilməsi üçün şərait yaradır. Bu da öz növbəsində müştəri tələblərinə daha tez cavab verməklə istehlakçı tələbatını düzgün şəkildə formalaşdırmağa və vaxtında təmin etməyə imkan verir. Anbar sahəsindəki əsas problemlərin həlli: mülkiyyət seçimi, anbarların dizaynı və layihələndirilməsi, müasir texnoloji avadanlıqlarla təchiz edilməsi, anbar əməliyyatlarının mexanizasiyası, avtomatlaşdırılması və kompüterlə idarə edilməsi, anbar prosesinin səriştəli və hərtərəfli təşkili hələ də ölkəmizin iqtisadiyyatının demək olar ki, hər sahəsindəki əksər topdansatış müəssisələrinin işində zəif nöqtədir. Logistik yanaşma baxımından bu vəzifələr uzun müddət həll edilməmişdir. Anbar əmtəə bazarlarının və logistik sistemlərin ən vacib elementi hesab olunur. Müasir dövrdə ölkəmizdə topdansatış müəssisələrində anbar logistikası kortəbii şəkildə formalaşır. Anbarların tikilişi, dizaynı, qaldırma və idarəetmə avadanlıqlarının seçilməsi, iqtisadi göstəricilərin və anbarların texniki avadanlıqlarının parametrlərinin hesablanması zamanı bir qayda olaraq, müasir logistika tələbləri nəzərə alınmır. Bu, həm müəssisə, həm də bütövlükdə iqtisadiyyat səviyyəsində maliyyə və material resurslarının səmərəsiz istifadəsinə səbəb olur. Beləliklə, anbarlarda təşkilati və texnoloji proseslərin müasir standartlara uyğun təşkil olunması, əmtəə dövriyyəsinin anbarlar ilə əlaqəli proseslərində xərclərin azaldılması üçün geniş imkanlar açır və müvafiq olaraq paylama zəncirinin sonunda malların maya dəyərinin aşağı salınması imkanı yaranır.

**Açar sözlər: Anbar, logistika, anbar idarəetmə sistemi, müasir texnologiya.**

# Kiçik Sahibkarlıq Subyektlərində Mühasibat Uçotunun Köhnə və Yeni Qaydalarının Təhlili

**Fərid Abdullayev**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Kiçik sahibkarlıq subyektlərində mühasibat uçotu müasir maliyyə elmində və praktikasında aktual məsələdir, çünki bu sahədə sadələşdirilmiş mühasibat və hesabat prosedurunu tənzimləyən sənədlərə daim dəyişikliklər və düzəlişlər edilir, buna görə çox sayda mübahisəli məsələlər ortaya çıxır. Bundan əlavə, son illərdə kiçik sahibkarlıqlar subyektlərində mühasibat uçotu qaydalarında dəyişiklik edildi və artıq "Kiçik və orta sahibkarlıqlar üçün BMHS" tətbiq olunmağa başladı, nəticədə təşkilatların mühasibat məlumatlarının keyfiyyətinin yüksəldilməsinə kömək edən beynəlxalq maliyyə hesabat standartlarına keçid problemi meydana çıxdı. Beləliklə, bu məqalənin məqsədi kiçik sahibkarlıq subyeklərində tətbiq edilmiş əvvəlki qaydalarla, yeni qüvvəyə minmiş qanunların müqayisə və təhlil edilərək mühasibat uçotunun aparılmasına dair yanaşmanı təqdim etməkdir. Kiçik sahibkarlıq cəmiyyətin iş həyatının vacib sahələrindən biridir, buna görə də kiçik sahibkarlığı dəstəkləyən fəal siyasət olmadan müasir iqtisadiyyatın inkişafı qeyri-mümkündür. Beləliklə, qanunvericiliklə kiçik biznes nümayəndələrinə mühasibat və hesabat məsələlərində çox sayda güzəşt təqdim edir. Bunların əsasları ümumiləşdirilmiş sintetik hesablarla qısaldılmış hesablar planından istifadə etmək, sadələşdirilmiş reyestrlər sistemi, qısaldılmış mühasibat formasının formalaşdırılmasını tətbiq etməkdir. Eyni zamanda, bu güzəştlərdən istifadə edərək, kiçik müəssisələr mühasibat uçotunu məhsulda yaradılan hesabatların etibarlı və faydalı olması üçün təşkil etməlidirlər. Kiçik sahibkarlığın müasir inkişaf mərhələsi, idarəetmə sisteminin səmərəliliyini müəyyən edən, idarəetmə sisteminin xüsusiyyətlərindən asılı olaraq mühasibat sisteminin səmərəli qurulmasına həvalə olunan informasiya dəstəyinə tamamilə yeni yanaşma nəzərdə tutur. Ancaq dünya iqtisadi arenasına çıxmaları üçün mühasibat və hesabatların təşkili, aparılması ilə bağlı bu sahədə qanunvericiliyin qüsursuzluğunu və uyğunsuzluğunu aradan qaldıracaq təsirli mühasibat tənzimləmə sisteminə ehtiyac var.

**Açar sözlər: Kiçik sahibkarlıq, mühasibat uçotu, subyekt, qayda, vergi.**

# Beynəlxalq Marketinq Fəaliyyətində Yaranan Çətinliklərin Həll Olunmasında Yeni İstiqamətlər

**Səyyarə Yunusova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Müasir mərhələdə müəssisələrin fəaliyyətinin ən vacib sahələrindən biri beynəlxalq marketinq strategiyasının müəyyənləşdirilməsidir. Bu strategiyanın tətbiq edilməsi ilə yerli müəssisələr xarici iqtisadi fəaliyyətdə müəyyən fəallıq və uğurlar əldə edirlər. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, marketinq istehsal ilə əlaqəli ixrac-idxal əməliyyatlarının strateji planlaşdırılmasının üzvi bir hissəsidir. İnkişaf etmiş ölkələr öz marketinq siyasətini xarici iqtisadi əlaqələrə inteqrasiya etmiş və onu kapitalın dövriyyəsi və idarəetmə ilə əlaqələndirmişlər. Biznes planlarını tərtib edərkən mövcud daxili və xarici bazarın marketinq araşdırması və orada olan tələblərin müəyyənləşdirilməsi vacibdir (Сафарова Е.В. 2017: 255 стр). Hazırda müxtəlif ölkələrdə xarici ticarət əlaqələri idarəetməsi və imkanları hələ də çox yüksəkdir və əlaqələrin prioritetləri qarşılıqlı fayda və qeyri-rəsmi tənzimləmə prinsiplərinə əsaslanır. Beynəlxalq marketinq fəaliyyətində dərinə enmək strategiyasının məqsədi ən qısa müddətdə xarici bazara çıxmaqdır. Yerləşmək, rəqibləri aradan qaldırmaq və ya potensial rəqiblərin bu bazara girməsinin qarşısını almaq burada başlıca hədəflərdəndir. Xarici ticarət əlaqələrinin tənzimlənməsi və inkişafı üçün beynəlxalq təcrübənin dərinləşməsinin əsası elmi təhlildir. Ticarət əlaqələrinin dayanıqlı sistemi qarşılaşılan çətinliklərin öhdəsindən gəlməkdir (Şəkərəliyev A.Ş. 2013: s.258). Münasibətlərin tənzimlənməsi və yaxşılaşdırılması üçün müvafiq təklifin hazırlanması nəzəri, metodoloji və praktiki inkişaf üçün xüsusilə vacibdir. Yaranan problemlərin həllində yeni təklif olunan həllər və beynəlxalq marketinqdə artan strategiya qərarları vardır.

**Açar sözlər : Beynəlxalq marketinq, xarici ticarət, marketinq strategiyaları.**

# İstehsal Sferasında Fəaliyyət Göstərən Kiçik və Orta Sahibkarlıq Subyektlərində Gəlirlərin Formalaşması və Uçotunun Bəzi Məsələləri

**Kənan Zeynallı**
**Azərbaycan Dövlət İqtisad Uiversiteti**

**Xülasə**

Bazar iqtisadiyyatında mülkiyyətin müxtəlif formalarının təşəkkül tapması, dövlət mülkiyyətində olan müəssisələrin özəlləşdirilməsi, iqtisadiyyatın inkişaf etdirilməsi, onun ixrac potensialının artırılması sahəsində müvafiq normativ-hüquqi bazanın yaradılması, biznesin təşkili və idarə edilməsi mexanizminin, onun bütün həlqələrinin, o cümlədən uçot və hesabatın yenidən qurulması və beynəlxalq standartlara uyğunlaşdırılması ilə xarakterizə olunur. Məsələnin başlıca məqsədi - müəssisələrin malik olduğu mövcud potensialından səmərəli istifadə etmək, məhsul və xidmət vahidinə düşən maddi, əmək və maliyyə ehtiyatlarının həcmini azaltmaqla gəlirlərin artımına nail olmaq, bütövlükdə iqtisadiyyatın səmərəliliyini yüksəltməkdir.

Bu vəzifələrin həyata keçirilməsində gəlirlərin və xərclərin uçotu mühüm rol oynayır. Uçotu lazımi səviyyədə təşkil etmədən və aparmadan xərclər üzərində nəzarəti həyata keçirmək, müxtəlif itkiləri azaltmaq, qeyri-məhsuldar xərclərin səviyyəsini mümkün qədər aşağı salmaq, onları tamamilə aradan qaldırmaq mümkün deyildir. Gəlirlərin artırılmasının, maliyyə nəticələrinin yaxşılaşdırılmasının ən başlıca və etibarlı yolu xərclərin məhsul, iş və xidmət vahidinə kəmiyyətini azaltmaqdır. Gəlirlərin və xərclərin uçotunun səmərəli təşkili xeyli dərəcədə onların mahiyyəti və məzmununun düzgün açıqlanmasından, obyektiv tanınma kriteriyalarının müəyyən edilməsindən, həmçinin gəlir və xərclərin elmi-praktiki cəhətdən əsaslandırılmasından, təsnifatından və qiymətləndirilməsindən, uçotda əks etdirilməsi metodikasının mükəmməlliyindən asılıdır.

Qarşıda duran başlıca problemlərdən biri də gəlirlərin və xərclərin uçotunun təkmilləşdirilməsi, onun qabaqcıl beynəlxalq praktikaya uyğunlaşdırılmasıdır. Gəlirlərin və xərclərin uçotunun beynəlxalq praktikaya və standartlara uyğunlaşdırmadan müəssiənin fəaliyyətinin maliyə nəticələrinin mövcud səviyyəsini, onların dəyişilməsi meyllərini düzgün və obyektiv qiymətləndirmək, təhlil etmək qeyri-mümkündür.

**Açar sözlər: Kiçik və orta sahibkarlıq, istehsal, gəlirlərin formalaşması, uçot sistemi, hesablar planı.**

# Liderlik Xüsusiyyətləri və İş Yaşam Keyfiyyətinin Psixoloji Sahiblik və İş Stresinə Təsiri

**Gülər Əliyeva**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Çətinləşən rəqabət və qeyri-müəyyənlik şəraitində müəssisələr üçün insan resurslarının önəmi artmaqdadır. Belə ki, rəqabətin yüksək olması əksər şirkətlərin fəaliyyətində eyni və ya oxşar addımların atılmasına gətirib çıxarmışdır. Bu baxımdan, günümüzdə şirkətlərdə heyətin idarə edilməsi ilə bağlı məsələlər əhəmiyyət qazanıb. Bu tədqiqat, heyətin idarə edilməsi prosesini əhatə edən bir sıra dəyişkənlər arasındakı təsiri ortaya qoyur. Tədqiqatın əsas məqsədi liderlik xüsusiyyətləri və iş yaşam keyfiyyətinin işçilərin iş stresi və psixoloji sahiblənməsinə olan təsirini araşdırmaqdan ibarətdir. Tədqiqat prosesində Asan seçmə metodu ilə nümunə seçilmişdir. Seçilən nümunələrdən məlumatlar Anket metodu ilə toplanmışdır. Toplanan məlumatlar SPSS və AMOS proqramları vasitəsilə analiz edilmişdir. Analiz metodları olaraq SEM və Faktor analizindən istifadə olunmuşdur. Tədqiqatda bu dəyişkənlərlə bağlı aparılmış elmi araşdırmalardan, ədəbiyyatlardan, elmi məqalələrin və kitabların yer aldığı internet mənbələrindən və anket məlumatlarından istifadə edilmişdir. Anket məlumatlarının əldə edilməsi üçün toplama metodlarından Asan seçmə metodunun istifadə olunması tədqiqatın məhdudiyyətlərindəndir. Ədəbiyyat incələməsi zamanı, təqdiqat mövzusunun dəyişkənlərinin ayrı-ayrı müxtəlif elmi məqalələrdə yer alması, lakin daha öncə bu dəyişkənlərin tədqiqatda yer alan və bir-birinə olan təsirinin araşdırılmadığı qənaətinə gəlinmişdir. Tədqiqatın nəticələrindən fərqli istiqamətlərdə istifadə oluna bilər. Belə ki, həm müxtəlif sektorlarda fəaliyyət göstərən müəssisələrdə heyətin idarə edilməsi zamanı istifadə edilə bilər. Həm də, gələcəkdə bu mövzuda aparılacaq tədqiqatlar üçün tələbələr, akademik fəaliyyəti olan insanlar bu tədqiqatın nəticələrindən faydalana bilər.

**Açar sözlər: Liderlik xüsusiyyətləri, iş yaşam keyfiyyəti, iş stresi, psixoloji sahiblik.**

# Цифровизация Экономики на Примере Банковской Сферы Азербайджана

**Рашид Мамедов**
**Азербайджанский Государственный Экономический Университет**

**Резюме**
В статье представлен анализ финансового сектора Азербайджана с точки зрения готовности к цифровой трансформации. Исследуется текущее состояние банковской системы Азербайджана и тенденции ее развития с использованием цифровых технологий. В результате делаются выводы о новых возможностях банков в условиях цифровизации экономики. Мы полагаем, что цифровизация экономики приведет к увеличению использования безналичных платежей и удельный вес наличных платежей в Азербайджане снизится с 74% до 40%. Судя по прогнозам, объем безналичных платежей будет расти примерно на десятую часть ежегодно. Сейчас в Азербайджане внимательно изучается опыт внедрения технологий блокчейн, оценивая возможные риски и перспективы использования. Центральный банк запустил первый в стране пилотный проект на платформе блокчейн. В результате проекта клиент сможет открыть счет через видеоидентификацию, не приходя в банк. Если сейчас в Азербайджане около 30 банков, то их количество упадет до 20, а в ближайшие годы может быть и меньше. Такие процессы часто приводят к тому, что в объединенных банках старые инфраструктуры, не соответствующие новым реалиям, заменяются новыми, современными, шагающими в ногу со временем. С 2010,банки вложили примерно 25% своей чистой прибыли в финансовые технологии.

**Ключевые слова: Цифровая трансформация, банковское дело, цифровой банкинг, искусственный интеллект, интернет-банкинг.**

# Ölkəmizdə Turizm Xidmətləri Marketinqinin Müasir Vəziyyətinin Təhlili və Qiymətləndirilməsi

**Tofiq Məmmədov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Məqalədə Azərbaycanda turizm xidmətləri bazarının mövcud vəziyyətinin təhlili aparılmış və ölkə olan turizm xidmətləri bazarının marketinq yanaşmaları ətraflı şəkildə təhlil edilmişdir.
İqtisadi baxımdan turizm dünya təsərrüfatının aparıcı və ən dinamik sahələrindən biridir. Bu sürətli artım tempi ilə o, yüzilliyin iqtisadi fenomeni kimi qəbul edilmişdir. Turizm iqtisadi cəhətən inkişaf etmiş və inkişaf etməkdə olan bir çox dünya ölkələrinin fundamental əsasıdır. Turizm marketinqi birbaşa və ya müxtəlif agentliklər və media vasitəsi ilə turistlərə turistik yerlərin və xidmət növlərinin çatdırılması və səyahət həvəsinin artırılması prosesidir. Turizm marketinqinin əsas məqsədi insanların diqqətini müəyyən bir yerə cəlb etməkdir.
Beynəlxalq turizm bazarına inteqrasiya olunan Azərbaycan turizm bazarı yüksək potensiala malikdir və onun tam reallaşdırılmasına nail olmaq prioritet məsələlərdən biridir. Bu problemlərin həll edilməsi turizm sənayesinə dövlət dəstəyinin olmasını, onun inkişaf etdirilməsində böyük şirkətlərin, turizm obyektlərinin, otellərin, restoranların fəaliyyətinin məqsədəuyğun şəkildə qurulmasını, müvafiq proqramların həyata keçirilməsini, həmçinin turizm bazarının dərin və hərtərəfli təhlili və monitorinqinin aparılmasını, onun fəaliyyət xüsusiyyətlərinin aşkar edilməsini, rəqabətqabliyyətliyinin qiymətləndirilməsini, perspektiv inkişaf istiqamətlərinin proqnozlaşdırılmasını və s. tələb edir. Deməli, müasir dövrdə ölkənin turizm bazarının cari vəziyyətinin və perspektiv inkişaf istiqamətlərinin statistik qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir.
Tədqiqat nəticəsində əldə olunan rəy və təkliflər regionlarda turizmin inkişaf etdirilməsi, turizm müəssisələrində marketinq strategiyasının hazırlanması zamanı istifadə oluna bilər.

**Açar sözlər: Turizm xidmətləri, rəqabətqabiliyyətlilik, bazar iqtisadiyyatı, inkişaf istiqamətləri.**

# Green Consumers in Poland

**Magdalena Szczepaniak**
**University of Wroclaw**

**Abstract**

Over the last forty years people have become more concern about the environment, its problems and preservation. Global warming, acid rain or renewable energy sources are the terms that have been covered by media repeatedly. Consumers have started to search for green products and services as their environmental consciousness has been increasingly rising. Furthermore, governments have introduced pro-environmental regulations and laws. As a result, companies have been forced to implement the strategies of green marketing, and marketers began to consider the differences existing between various segments of market in terms of green awareness. Therefore, the major aim of this study is to divide the market into specific consumer groups according to the environmental variables that have been viewed as important in the consumption process of the eco-friendly products. The second purpose of this research is to determine whether the significance differences between segments exist in terms of demographic variables. The third goal is to discover a profile of green consumers in Poland.

The theoretical part of the study includes the review of literature on green marketing, environmental consciousness of Polish consumers, and segmentation of green markets. The basic assumptions, a brief history, various strategies and instruments of green marketing were investigated. Furthermore, the interpretations and the evolution of environmental consciousness in Poland were examined. Then, the concept of the green market's segmentation and its socio-demographic (age, gender, education, income) and environmental (green concern, perceived consumer effectiveness, economic factor, environmental knowledge, green purchase behavior, green activism, green habits) factors were presented. In the empirical part of the study the data were collected and analyzed.

**Keywords: Green Marketing, Green Consciousness, Green Concern, PCE, Economic Factor, Environmental Knowledge, Green Purchase Behavior, Green Activism, Green Habits, Green Consumers Profiles.**

**How The Users of Financial Statements Can Benefit From The Implementation of Fair Value Accounting?**

**Sanan Isagov**
**Azerbaijan State University of Economics**

**Abstract**

The paper analyzes the implementation and use of fair value accounting from the general perspective of the users of financial statements. To give more detailed review and understanding into the implementation of fair value accounting, paper analyzes the current usage of fair value accounting both in Azerbaijan and in the developed countries of the world. The paper goes deep into the proclamations both for and against fair value accounting and analyzes its advantages and disadvantages when compared to the generally used historical cost method. The challenges faced by companies while implementing the fair value accounting are examined in the paper and possible ways to overcome those challenges are suggested. It argues that since financial services industry is the main user of fair value accounting, joint efforts between the regulators and financial markets participants should prevail to establish proper guidelines for the usage of fair value accounting. The paper also explains possible ways that both internal and external users of financial statements can benefit from the implementation of fair value accounting. Exploring the differences between Azerbaijan's leading companies and world's leading companies in terms of utilization fair value accounting, the paper argues that more prevalent implementation of fair value accounting should be urged in order to bring more financial stability to the banking organizations; hence the economy itself in Azerbaijan. It is also advisable to explore the potential uses of fair value accounting in terms of data and hedging purposes in order to accelerate more sound decision-making in Azerbaijan's institutions.

**Keywords: Fair value, users, accounting, financial institutions.**

# Neft Qaz Sahəsində Müasir İnnovasiya Texnologiyasına Əsaslanan Sənaye Sahələri

**Maya Qocayeva**
**Azərbaycan Kooperasiya Universiteti**

**Xülasə**
Bəşəriyyətin texnoloji inkişafının hazırkı mərhələsinin iki əsas xüsusiyyəti diqqət mərkəzində qalmaqdadır: yeni elmi-texniki həll yollarının işlənib hazırlanması və tətbiqinin son dərəcə yüksək dinamikası; bu inkişafın çoxvektorlu olması. Texnoloji tərəqqinin sürətlə getməsi və müxtəlif sahələrdə yeni məhsulların sonsuz görünüşü sənaye müəssisələrini çətin vəziyyətdən çıxardı. Əgər əvvəllər innovasiyaların istifadəsi zaman və maddi imkanla əlaqəliydisə, bu gün sonsuz texniki innovasiyalar dünyasında oriyentasiya problemi, elmi və texnoloji tərəqqinin doğru gedişi seçimi ön plana çıxır. İnnovasiya termini yalnız bir sıra texnologiyalar deyil, informasiya və nou-hau mübadiləsi prosedurlarını, innovasiya yönümlü korporativ mədəniyyət və daha çoxunu əhatə edən geniş və kompleks bir sistem kimi başa düşülür. Təqdim olunan məqalədə müasir neft-qaz sənayesinin innovativ inkişafının texnoloji prioritetlərindən, habelə, qlobal neft və qaz sənayesinə kapital qoyuluşlarından bəhs olunmuşdur. Sözügedən məqalədə neft-qaz sənayesinin innovativ inkişafı üçün texnoloji prioritetlər müəyyənləşdirilmiş, o cümlədən, neft-qaz kəşfiyyatı və hasilatı sektorundakı son texnoloji yeniliklər nəzərdən keçirilmişdir. İnnovativ texnologiyanın sənayeyə tətbiqindən alınan nəticələr haqqında bəhs olunmuşdur. Dünyada və Azərbaycanda innovasiyalı texnologiyalara əsaslanan sənaye sahələri araşdırılmışdır.

**Açar sözlər: Neft-qaz sənayesi, innovasiya iqtisadiyyatı, innovasiyalı neft-qaz sənayesi, nanotexnologiya.**

# Corporate Management System and Risk Relationship in Banks

**Ziya Agayev**
**Azerbaijan State University of Economics**

**Abstract**

Corporate governance emphasizes the importance of setting standards in management practices by focusing on the relationship between managers, the board of directors, and shareholders. Thanks to corporate governance practices, the board of directors has the opportunity to conduct its activities in a transparent, accountable, and fair manner. Provides an environment for shareholders and the company to create risk management and information systems that can be effective in reducing risk. It is thought that corporate governance can be effective in reducing representation costs, as expressed in agency theory. Representation costs arise when managers maximize their benefits.

Corporate governance practices in banks are defined by rules and stand out in a structure that is emphasized and followed. Banks support firms through fund transfers and play an important role in economic growth. If banks have poor governance, it is thought to cause serious problems for the financial system and the economy.

Following the financial crisis in the United States in 2007 and the bankruptcy and government intervention in the banking sector, the top management of banks and corporate governance in banks are often discussed. The importance of corporate governance practices is clear in minimizing banking risk. Determining the impact of corporate governance practices on banks is critical to the banking sector and the economy as a whole.

**Keywords: Banking, banking systems, risk management, corporate governance, income, expenses.**

**Azerbaycan`da Şirket Akademileri Uygulamalarının Değerlendirilmesi**

**Haydar Abdurahmanov**
**Azerbaycan Devlet İktisat Üniversitesi**

**Özet**

Makalede Azerbaycanda Şirket Akademileri uygulamaları, onların verimli olup olmadığı araştırılmıştır. Herhangi bir işletmenin geliştirilmesinde sayısız nokta ve detay çok önemlidir. Personel eğitimi, belirlenen hedeflere ulaşmada önemli bir unsurdur. Mesele şu ki, modern faaliyetin pek çok alanı yoğun bir şekilde gelişiyor ve değişiyor, bu da zamana "ayak uydurma" ihtiyacını uyandırıyor. Yeni çalışanları işe almanın, şirkette halihazırda çalışanlara yeni bilgiler öğretmekten daha iyi olduğuna dair bir görüş var. Ancak bu yaygın bir örgütsel hatadır. Şirkette halihazırda pratik deneyime sahip bir çalışan, her zaman yeni gelenlerden daha iyidir.

Çalışanlar için eğitim sürecinin organizasyonu çok pahalı değildir ve sürekli değişen piyasa koşullarında yenilerinin eğitilmesi gerekir. Bu nedenle, en iyi çözüm çalışanları eğitmektir. Çalışanları eğiterek, bir kişinin hangi bilgileri aldığından ve ne kadar doğru anladığından emin olmak mümkündür.

Bir liderin, çalışanlarını doğru bir şekilde yönlendirmek için tüm yenilikleri bağımsız olarak yürütmesi her zaman mümkün değildir. Bu nedenle, gelişmiş bir eğitim kursu veya ek personel eğitimi seçeneği kullanılır. Aslında bu tür prosedürler çalışana maksimum fayda sağlar. Becerilerinin ve yeteneklerinin seviyesini artırabilir, daha yüksek bir seviyede iş yapmaya başlayabilir, bu da gelecekte kariyer basamaklarını yükseltme olasılığını ve daha ciddi ücret alma fırsatını tetikleyecektir. Bir işveren için personel eğitimi, tüm ekibin mesleki becerilerinin, becerilerinin ve bilgilerinin geliştirilmesinde önemli bir andır. Şirketin gelişimi, diğer hedeflerin gerçekleştirilmesi, iç süreçlerin iyileştirilmesi, pazar payının artması, müşteri sayısının artması ve müşteri memnuniyet düzeyinin iyileştirilmesi için öğrenilmesi ve geliştirilmesi ihtiyacı vardır. Burada da İK'nın öğrenme, geliştirme ve sürekli iyileştirme faaliyetlerinin şirket performansına ne ölçüde katkıda bulunduğuna şahit oluyoruz.

**Anahtar kelimeler: Azerbaycan, şirket akademileri, lider, çalışan, şirket.**

# Covid-19 Pandemiyası Dövründə Dövlət Qurumlarında İnsan Resursları Siyasəti

**Törə Əliyeva**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
2020-ci ilin mart ayında Dünya Səhiyyə Təşkilatı tərəfindən pandemiya elan edilən və dünya ölkələrinin sosial-iqtisadi həyatına təsir edən yeni növ Koronavirus infeksiyası əmək fəaliyyətinə də xüsusilə təsir etmişdir. Dövlət qurumlarının funksiyalarından olan vətəndaşlara xidmət etmək funksiyası ilə sosial məsafənin fərdlər arasında qorunması anlayışı prinsip olaraq qarşı-qarşıya gəlmişdir. Dövlət orqanlarında xidmətlərin göstərilməsi və işin davam etməsi dünya ölkələrində hələ də gündəmdədir. Covid-19 pandemiyası ilə dövlət xidmətlərinin göstərilməsi prosesi və qurumlardakı iş şəraiti karantin dövrünə uyğunlaşmağa məcburdur. Buradakı əsas məqsəd həm işçilərin , həm də vətəndaşların sağlamlığını qorumaqdır. Qlobal epidemiya məsafədən iş təcrübəsini, o cümlədən işçilərlə işə götürənlər arasındakı münasibətlərə təsir etdi. Çevik iş modeli hesab edilən məsafədən işin qurumlar və müəssisələr tərəfindən qəbul edildiyi görülür. Müasir qurumlarda və orqanlarda işçilər öz vəzifə funksiyalarını hər yerdən və tam olaraq yerinə yetirməsi üçün lazımi texnoloji infrastruktura malik olmalıdır. Xüsusi karantin rejimi dövründə dövlət xidmətlərinə olan tələbin dəyişməz qalması dövlət xidmətlərinin göstərilməsində rəqəmsallıqda yaranan artışa səbəb olmuşdur. Dövlət qurumlarında iş fəaliyyətinin dəyişməsi və karantin rejiminə uyğunlaşması bu qurumlarda insan resursları siyasəti yanaşmasına təsir etmişdir. İnsan resursları siyasətindəki artan elastiklik və sosial təsirlərə uyğunlaşma postpandemiya dövründə də davam ediləcəyi gözlənilir.

**Açar sözlər : Dövlət qulluqçuları, Covid-19, insan resursları, dövlət qurumu.**

# Sığorta Təşkilatlarının Gəlir və Xərclərinin Təhlili

**Toğrul Rüstəmov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Respublikamızda bazar münasibətlərinin formalaşması və sürətli inkişafı iqtisadiyyatın yeni sahələrinin yaranması ilə nəticələnmişdir. Həmin sahələrdən biri də sığortadır. Milli iqtisadiyyatın dinamik inkişaf edən sahəsi olmaqla sığorta vətəndaş və sahibkarlar arasında iqtisadi-sosial münasibətləri səciyyələndirir. Sığorta bazarına xas olan müsbət tendensiyalar fonunda sığorta bazarının və sığorta təşkilatlarının fəaliyyətinin tənzimlənməsi üçün zəruri hüquqi bazanın təkmilləşdirilməsinə ehtiyac var. Bu onunla izah olunur ki, praktikada sığorta sahəsində potensial və faktiki sığorta istehlakçılarının məlumatlılıq səviyyəsi aşağıdır, həmin məsələlərin mahiyyəti ilə bağlı sığorta münasibətləri iştirakçıları arasında konsensus yoxdur. Məqalədə bu problemlərin həlli istiqamətində düzgün idarəetmə qərarlarının qəbul edilməsi məqsədi ilə sığorta təşkilatlarında uçot-analitik sistemin mövcud vəziyyətini qiymətləndirməklə onun təkmilləşdirilməsi istiqamətləri nəzərdən keçirilmişdir.
Bazar iqtisadiyyatı şəraitində sığorta fəaliyyəti bir sahibkarlıq obyekti kimi nəinki gəlirlər hesabına xərclərin örtülməsi, eyni zamanda müəyyən mənfəət yaradılmasını nəzərdə tutur. Lakin sığorta şirkətləri eyni sosial mahiyyət daşıdığından onlar yüksək mənfəət ardınca qaçmamalıdırlar. İkinci tərəfdən sığorta təşkilatlarında yaranan mənfəət şərti xarakter daşıyır. Çünki sığorta sistemində mənfəət yaradılmır, ancaq bölüşdürülür. Məhz buna görə də sığorta sistemində mənfəət dedikdə müsbət maliyyə nəticələri başa düşülür. Sığorta şirkətləri nəinki sığorta fəaliyyətindən, eyni zamanda qeyri-sığorta fəaliyyətindən mənfəət əldə edə bilərlər. Yəni sığorta ehtiyatlarını öz xüsusi vəsaitlərini investisiyaya yönəldə bilərlər. Onu da qeyd edək ki,sığortaçının sığorta fəaliyyətinin məqsədi yalnız böyük sosial mahiyyət kəsb edən xidmət göstərilməsindən ,investisiya fəaliyyətinin məqsədinin isə ancaq mənfəət əldə edilməsindən ibarət olmayaraq onlar arasında qarşılıqı əlaqə vardır.
**Açar sözlər: Sığorta təşkilatları, maliyyə, gəlir, xərc, təhlil.**

# Направления Совершенствования Внутреннего Финансового Контроля в Акционерных Обществах

**Гюлтекин Рахимли**
**Азербайджанский Государственный Экономический Университет**

**Резюме**

В современных условиях внутренний аудит становится все более важной частью системы внутреннего контроля, которая является наиболее эффективным средством внутреннего контроля, направленным на объективную оценку совершенствования бухгалтерского учета на предприятиях и в организациях, а также на осуществление операций и оказание им необходимых консультационных услуг. В отличие от бухгалтерского отчета, управленческий отчет предназначен для стратегического и оперативного руководства, руководителей организационных подразделений и должен соответствовать управленческим требованиям на каждом уровне управления предприятием. Менеджерам среднего звена необходим внутренний отчет, в котором анализируются и выделяются ключевые показатели эффективности структурных и функциональных подразделений, которые они возглавляют. Менеджерам и специалистам нижнего уровня (мастера, начальники цехов, начальники отделов и служб) информация о результатах своей деятельности нужна при сравнении показателей с плановыми показателями.

Динамика развития внутреннего аудита в нашей стране, наряду с отсутствием разработки ряда положений о функционировании современных хозяйствующих субъектов, подчеркивает необходимость дальнейшего изучения вопросов внутреннего аудита в корпорациях, определения его целей и задач.

**Ключевые слова: Акционерное общество, внутренний аудит, финансовый контроль, совершенствование.**

# Pərakəndə Ticarət Müəssisələrində Auditin Təşkili

**Ruslan Qasımov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Məqalədə pərakəndə ticarət sektorunda fəaliyyət göstərən geniş miqyaslı müəssisələrdə alış və ödəmə əməliyyatlarının daxili auditi ilə bağlı analiz aparılmış və mövzu ilə bağlı audit təklifləri verilmişdir.
Alım və ödəmə prosesi ilə bağlı müəssisənin mövcud tətbiqləri araşdırıldıqda görülən əməliyyatların ümumiyyətlə əl ilə edildiyi görülür. Buna görə müəssisədə həyata keçirilən daxili audit fəaliyyətləri də əl sistemi üzərində qurulur. Araşdırmada aparılan təhlillər nəticəsində mövcud sistemin risklərə açıq olduğu, alış və ödəmə müddətinin meydana çıxa biləcək səhv və saxtakarlıqlara son dərəcə həssas olduğu, vaxt və pul xərclərinin yüksək olduğu başa düşülür.
Edilən qiymətləndirmələr nəticəsində ilk növbədə sistemli və effektiv daxili audit sistemi yaradılmalı, daxili audit fəaliyyətləri daxili audit hədəflərinə uyğun həyata keçirilməlidir. Buna görə həm alış, həm də ödəmə prosesi kimi digər bütün proseslərin inteqrasiya edilmiş bir proqram vasitəsilə elektron şəkildə həyata keçirilməli olduğu görülür. Daxili nəzarət və daxili audit fəaliyyətinin bir hissəsinin inteqrasiya edilmiş proqrama və ya digər köməkçi proqramlara əlavə ediləcək proqram tərəfindən yaradılacaq elektron nəzarətlərin köməyi ilə elektron şəkildə həyata keçirilə biləcəyi təklif olunur.

**Açar sözlər: Pərakəndə ticarət, müəssisə, audit, təşkilat, hesabat.**

# Azərbaycanda Kommersiya Banklarında Korporativ İdarəetmənin Əsas Problemləri və Həlli İstiqamətləri

**Ülkər Eminaliyeva**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Məqalədə Azərbaycanda kommersiya banklarında korporativ idarəetmənin problemləri araşdırılmış, bu məsələ ilə bağlı hüquqi bazanın mövcudluğu öyrənilmiş, bank sektorunun mövcud vəziyətinin qısa təhlili aparılmış, bankın korporativ idarəetmə ilə bağlı ümumi fəaliyyəti müəyyən olunmuş və bu problemlərin həlli istiqamətləri ətraflı şəkildə təhlil edilmişdir. Korporativ İdarəetmə, rəhbərliyə və idarə heyətinə bir şirkətin idarə olunması ilə bağlı problemlərlə daha effektiv məşğul olmağı təmin edən bir vasitədir. Korporativ idarəetmə, bütün maraqlı tərəflərin (səhmdarların, işçilərin, təchizatçıların, müştərilərin və cəmiyyətin) maraqlarının balanslaşdırılması üçün müəssisələrin müvafiq qərar qəbul etmə proseslərinə və nəzarətə sahib olmasını təmin edir. Buna görə də hər daim öz aktuallığını qoruyur.
Məqalənin əsas məqsədi Azərbaycanda bank sektorunda mövcud vəziyyətin təhlili, korporativ idarəetmə prinsiplərinə nə dərəcədə əməl olunduğu, bu sahədə əsas problemlər nələrdir və onları aradan qaldırmaq üçün hansı addımlar atıla bilər və korporativ idarəermənin bank sektorunda hansı dərəcədə effektiv olduğunu analiz etməkdən ibarətdir. Məqalədə istifadə olunacaq metodların informasiya bazasını Azərbaycan Respublikasının Qanunvericiliyi, ölkəmizdə və xaricdə nəşr olunan elmi məqalələr, təhlil olunmuş yerli və xarici bankların rəsmi illik hesabatları, elmi-praktiki konfrans materialları təşkil edir. Tətbiq etdiyimiz əsas metod isə GZIT (SWOT) təhlili və intervyu metodudur. Məqalənin elmi yeniliyi korporativ idarəetmənin rolu, ölkəmizdə fəaliyyət göstərən bankların mövcud vəziyyəti, qarşıya çıxan problemlər və onların həll olunması məqsədilə təklif olunan tövsiyələrdən ibarətdir.

**Açar sözlər: Korporativ idarəetmə, kommersiya, banklar, kredit təşkilatları, beynəlxalq təcrübə.**

# Оценка Факторов Эффективности и Качества Финансового Менеджмента в Коммерческих Банках

**Сабина Ахмедова**
**Азербайджанский Государственный Экономический Университет**

**Резюме**
Современная экономическая наука, методология и практика в области банковского дела в современных условиях испытывала серьезное влияние новейших теоретических положений, методик, консультантов и советчиков. С одной стороны, это дало возможность пополнить арсенал методов и инструментов банковского менеджмента, с другой, сформировало значительные проблемы. Поэтому на данный момент перед коммерческими банками на первый план выходит необходимость повышения качества банковского менеджмента и всех его компонентов. В первую очередь необходимо провести анализ эффективности деятельности коммерческого банка, точнее оценку качественных сторон деятельности банка, которое позволяет определить его надежность на основе оценки финансового менеджмента в коммерческом банке. Оценка качества менеджмента банков может варьироваться в самых широких диапазонах, вплоть до альтернативных в зависимости от того, кто осуществляет эту оценку, его интересов, задач, общественного позиционирования и иных характеристик. Оценка банковского менеджмента (управления банком) не осуществляется банком самостоятельно, а входит в комплекс оценок финансового состояния кредитных организаций, проводимых на основе соответствующих положений и иных нормативных документов. Как правило, оценка качества менеджмента любой коммерческой организации начинается с оценки экономической эффективности, т. е. изучения конечных финансовых показателей деятельности. Следовательно, основой оценки качества менеджмента в банковской сфере также выступает диагностика финансово-экономических аспектов деятельности, которые включают структуру коммерческого банка.

**Ключевые слова: Оценка финансового менеджмента коммерческих банках, эффективность банковского менеджмента, оценка качества банковского менеджмента.**

# Роль Интеграционных Тенденций в Мировой Экономике в Развитии Компаний

**Нармин Аллахвердиева**
**Азербайджанский Государственный Экономический Университет**

**Резюме**
В статье анализируется роль интеграционных тенденций в мировой экономике и важные аспекты современной литературы. Такая тема, как роль интеграции в мировой экономике стала основным предметом обсуждения.

Эта тема имеет особое значение в контексте ускорения и расширения интеграции и транснационализации в наше время. В основе этих тенденций лежат попытки корпораций выйти на международные рынки для увеличения прибыли и диверсификации рисков, а также для углубления и расширения экономических связей путем создания групп и ассоциаций для достижения национального экономического развития отдельных стран.

## Azərbaycanda Ərzaq Məhsulları ilə Təminatın Müasir Vəziyyətinin Təhlili

**Təbriz Mirzəliyev**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Məqalədə ölkəmizin ərzaq məhsulları ilə təminatının müasir vəziyyəti təhlil edilmişdir. Azərbaycanın dinamik iqtisadi-sosial inkişafı səviyyəsinə görə regionda əsas mövqeylərdən birini tutması, iqtisadi artım tempinə görə dünya üzrə tanınmış ölkə olması aqrar - ərzaq təsərrüfatının inkişafı üçün böyük imkanlar açır. Hal-hazırki vaxtda əhalinin ərzaq məhsulları ilə güvənilir, etibarlı surətdə təmin edilməsi dövlət qarşısında duran vacib və həyati əhəmiyyətli məsələlərdəndir. Həmin imkanların reallaşdırılması və formalaşdırılması üçün müvafiq istiqamətlərdə hüquqi-normativ baza yaradılmış, lazımi dövlət proqramları qəbul olunmuş və icra edilmişdir.

**Açar sözlər: Ərzaq təhlükəsizliyi, kənd-təsərrüfatı, infrastruktur, aqrar sektor, istehsal.**

# Methodological Assessment of the Economic Basis of the Credit Market

**Hussein Eyvazli**
**Azerbaijan State University of Economics**

**Abstract**

As one of the active issues of modern times, the credit market is of special importance in the economy. Translated from Latin, the word credit means "I trust, I believe" and "debt". A credit market is a set of relationships involving the issuance, use, and repayment of a loan under a contract with a lender and a borrower. It is considered to be the main mechanism that revives and activates the market economy. Credit relations arise between the creditor and the borrower from the moment the loan is issued. Credit market is a form of interaction between individuals, including free-thinking economic entities. The role of money as a product in the credit market is one of its main and distinctive features. Determining the nature of loan capital depends on the credit market. The main purpose of the article is to study the reasons for modeling the credit market in modern economic development, its usefulness and importance, the theoretical and methodological basis of the credit market. Thus, the credit market is a set of relationships related to the issuance, use, and repayment of credit under a contract with the lender and the borrower. It is considered to be the main mechanism that revives and activates the market economy. Credit relations arise between the creditor and the borrower from the moment the loan is issued. use, and a set of relationships related to the end of the debt.

**Keywords: Credit, market, capital, economic.**

# Təşkilatdaxili Yadlaşmanın Yaratdığı Problemlər, Həlli Yolları və İş Məmnuniyyətinə Təsiri

**Bəyim İmanova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Bugünkü şəraitdə fərd həm iş həyatını, həm də öz həyatını anlamadan uzaqlaşır. Çünki həyatın gətirdiyi yeniliklər həm fərdlər üçün maraqlıdır, həm də mahiyyətimizdən qopmağımıza və tədricən dəyişdirərək bəzi dəyərləri unutmağımıza səbəb olur. Bu nöqtədə qarşılaşdığımız yadlaşma anlayışı fərdi özünə, öz dəyərlərinə, cəmiyyətin dəyərlərinə və işlədiyi mühitə qarşı təcrid edir. Son illərdə çox məna kəsb edən yadlaşma anlayışı bəzilərinə görə cansıxıcılığın sinonimi, bəziləri üçün sosiologiyada analitik bir anlayışdır. Digər tərəfdən təşkilatdaxili yadlaşma isə təşkilatda işləyən şəxsin peşə inkişafı və dəyişməsinin rəhbərləri tərəfindən tanınması, qiymətləndirməsi və gözləntilərindən narazılıq yaşaması kimi ifadə edilir. Bu tədqiqatın məqsədi, təşkilatın işçilərində yarana biləcək yadlaşma səviyyələri, onun səbəb və həlli yolları ilə təşkilatın davamlılığı üçün zəruri şərtlərdən biri olan iş məmnuniyyəti arasındakı əlaqəni ortaya qoymaqdır. J. Clifford Mottaz (1981) tərəfindən yaradılan üç ölçülü yadlaşma miqyasından məlumat toplama vasitəsi kimi istifadə edilmişdir. Bu istiqamətdə yadlaşmanın alt ölçüləri (gücsüzlük, mənasızlıq, özünə yadlaşma), yadlaşmanın səbəbləri və həlli yolları ilə iş məmnuniyyəti arasındakı əlaqə araşdırıldı. İş məmnuniyyətini ölçmək üçün isə ən çox istifadə edilən Spectorun (1997) iş məmnuniyyəti ölçüsü istifadə edilmişdir. Yadlaşmanın 3 alt ölçüsü və iş məmnuniyyətinə aid olan ifadələr Likert şkalası ilə ölçülmüşdür. Bu məqalə eyni zamanda yadlaşma anlayışının araşdırarkən geniş mənada nə olduğunu, nəyə görə vacib olduğunu, necə idarə edilə bilən olması və iş məmnuniyyətinə necə təsir etməsini də araşdırır.

**Açar sözlər: Sosial yadlaşma, təşkilatdaxili yadlaşma, iş məmnuniyyəti.**

# Theoretical Methodological Basis of Anti-Crisis Management of the Banking System

**Kamran Keytiyev**
**Azerbaijan State University of Economics**

**Abstract**
Given the period of socio-economic changes, the formation of the foundations of the modern banking system is accompanied by the emergence of crisis phenomena in various areas of banking, the task of ensuring sustainable and stable development of the country's banking system is especially relevant. The pre-crisis management methodology applied to the banking sector has not been properly developed. There are a number of unresolved issues in regional bank management. Given the unequal economic development of individual regions, taking into account the regional aspect of the country is an important governance problem. Modern trends in the development of banking in the country show that the process of restructuring at the level of credit institutions has intensified. Currently, the priority for credit institutions is to ensure anti-crisis procedures, especially the prevention of bank failures. Bankruptcy of a bank is a completely normal and understandable phenomenon in terms of the incompatibility of the element base with the market system. however, the socio-economic consequences of the liquidation of a bank may lead to negative trends due to large losses of creditors during liquidation procedures. Therefore, it is extremely important to study the problems of developing mechanisms for the timely and rapid prevention of bankruptcy.

**Keywords: Banking, anti-crisis, system, finance.**

# Sosial Medianın İstehlakçı Davranışının İdarə Olunmasına Təsiri

**Teymur Əmirov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Günümüz dünyasını artıq internetsiz təsəvvür etmək artıq demək olar ki, mümkünsüz hala gəlmişdir. İnternetdə baş verən bu dəyişikliklər özü özlüyündə Veb 2.0 texnologiyasının inkişafına gətirib çıxarmışdır. Bu texnologiyalardan ən sürətli və önəmlisi isə sosial media olmuşdur. Sosial media dedikdə burada insanların özlərini sərbəst şəkildə ifadə edə bildikləri və digər iştirakçılar ilə daimi ünsiyyətdə qala biləcəkləri yeni nəsil məcra başa düşülür. Sosial media marketinqi isə bu istehlakçılar interaktiv qatılımlarına əsaslanan bir marketinq növüdür. Şirkətlər üçün sosial mediada bir xidmət və ya məhsulun istehlakçılar tərəfindən hansı həcmdə və nə tərzdə danışıldığı çox böyük önəm daşımaqdadır. Bu səbəbdən, sosial mediadakı istehlakçı davranışlarını araşdırmaq vacib hala gəlmişdir. Araşdırmanın nəzəri hissəsində sosial medianın istehlakçı davranışlarına təsiri, sosial media, sosial media marketinqi ilə əlaqədar olan ədəbiyyat araşdırması olmuşdur. Analiz hissəsində isə sosial media istifadəçiləri tərəfindən doldurulmuş anket sorğusundan istifadə edilmiş və nəticələr SPSS 24.0 proqramı ilə analiz olunmuşdur. Nəticə olaraq isə sosial medianın istehlakçı davranışlarına təsir etdiyi ortaya çıxmışdı.

**Açar sözlər: Sosial media, istehlakçı davranışı, istehlakçı davranışının idarə olunması, sosial media marketinqi.**

# Avtomobil Nəqliyyat Logistikasında İnnovativ Texnologiyaların Tətbiqi İstiqamətləri

**Nərgiz Mahmudova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
20-ci əsrin sonlarından başlayaraq informasiya texnologiyalarının təkmilləşməsi istənilən bütün sahələrdə dəyişikliklərə səbəb olmuşdur. Beləliklə, bir çox müəssisələr də fəaliyyət sahələrini bu yöndə quraraq texnologiyaların imkanlarından faydalanmağa başlamışdır. Bu faydalar öz növbəsində digər sahələrdə olduğu kimi nəqliyyat logistikası sahəsində də özünü biruzə verməyə başladı. Nəqliyyat logistikasında texnologiyaların tətbiqi xüsusi rola malikdir. Yenilikçi teknoloji tərəqqilər bir çox dəyişiklikləri öz növbəsində gətirmişdir. Bazarda rəqabət üstünlüyünə malik olmaq istəyən hər bir firma bu texnologiyalardan daim xəbərdar olaraq tətbiqini həyata keçirməlidir. Bundan əlavə effektli şəkildə tətbiq olunan texnoloji yeniliklər yerli və beynəlxlaq bazarda fəaliyyət göstərən logistika şirkətlərinin inkişafına səbəb olacaq. Məsələn, innovativ yeniliklər sifarişçilər ilə yükdaşıyanlar arasında sağlam inteqrasiyanın qurulmasına, beləliklə, daşıma xərclərinin azalmağına, müştərilər və şirkət əməkdaşlarının sürətli qarşılıqlı əlaqələrinin möhkəmləndirilməsinə, vaxt itkilərinin aradan qalxmağına və həm şirkət daxili həm də şirkət xarici risklərdə azalma nəticəsində performans indeksinin artımını bərabərində gətirə bilər. Avtomobil nəqliyyatı nəqliyyat sektorunun ən geniş yayılmış daşıma vasitələrindən biri olmağından savayı sektorda bazar payına görə seçim payı çox olan daşıma moduludur. Sağlam baza əsasında qurulmasının vacibliyi və tələb-təklif əsasında işləmə prinspinə görə nəqliyyat sektorunda avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları dünya ölkələri və logistika şirkətləri üçün vacib mövzulardan birinə çevrilmişdir. Azərbaycan nöqteyi nəzərindən baxılsa Azərbaycanın avtomobil nəqliyyat logistikası milli və beynəlxalq ehtiyaclara cavab verəcək formada olduğundan, sərnişin və yük daşımaları payının ən çox avtomobil nəqliyyatı vasitəsi ilə edilməsi kimi amillər bu yöndə qiymətləndirmələrin edilərək araşdırmaların aparılmasını vacib edən məsələlərdən biridir.

**Açar sözlər: Avtomobil nəqliyyatı logistikası, Azərbaycan, daşınma, müasir texnologiya.**

**Azərbaycanda Kiçik Sahibkarlıq Subyektlərinin Rəqabətinin Formalaşması və İnkişafı**

**Orxan Mahudlu**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Azərbaycanda rəqabət qabiliyyətli milli iqtisadiyyatın təkmilləşməsi ölkədə kiçik sahibkarlıq sektorunda da rəqabət strategiyasının inkişafını tələb edir. Ümumiyyətlə, bu sektor daxili bazara keyfiyyətli məhsul və xidmətlər təqdim edir, respublikanın iqtisadi potensialını, məşğulluğu artırır, dövlət büdcəsinin formalaşmasında vacib rol oynayır və ölkə iqtisadiyyatında rəqabəti artıraraq onun səmərəliliyinə təsir göstərir.

Digər tərəfdən, iqtisadiyyatda prioritetlərdən biri iş yerlərinin yaradılması mühitidir. Olduqca vacib bir ünsürdür. Bu çərçivədə kiçik müəssisə daxilində yeni iş yerlərinin açılması böyük müəssisələrə nisbətən daha ucuz başa gəlir. Kiçik sahibkarlıq subyektlərinin rəqabət qabiliyyəti də iş mühitinin düzgün qurulmasında olduqca vacibdir. Rəqabət iqtisadiyyatda müsbət nəticələrin əldə edilməsində vasitəçi bir rol oynasa da bəzi hallarda müəyyən problemlərə də səbəb ola bilər. Bu cür problemlərin aradan qaldırılması vacibdir. Bu halda kiçik sahibkarlıq subyektləri daha da inkişaf edə bilər. Burada əsas məqam rəqabətin düzgün, sistemli şəkildə qurulmasındn ibarətdir.

Biz bu tədqiqatda Amerikadan Şərqi Avropa və Asiyaya qədər olan bazarlarda uğurlu şirkətlərin öz güclü rəqiblərinə qarşı mübarizədə tətbiq etdikləri strategiya və taktikaları araşdırdıq. Məsələn, Rusiyadakı “Vist” və Çindəki “Şanxay Jahva” şirkətləri, “Kompaq” və “Unilever” kimi çoxmillətli şirkətlərə qarşı müvəffəqiyyətlə öz strategiyalarını qorumağı bacardılar. Filippinlərdəki “Collibee Foods” və Meksikadakı “Cameks” daxil olmaqla digərləri, öz ölkələrində öz gücünə əsaslanan beynəlxalq genişləndirmə strategiyalarını başlatdılar. Bu nümunələri öyrənərək, inkişaf etməkdə olan bazarlardakı digər şirkətlərin menecerləri öz strateji seçimləri barədə məlumat əldə edə bilərlər.

Yuxarıda qeyd olunanların hamısı ölkədə sosial-iqtisadi problemlərin həllində kiçik sahibkarlığın rəqabət strategiyasının təkmilləşdirilməsini təmin etmək, həmçinin tezisin aktuallığını təsdiqləyən mövcud vəziyyətin statistik baxımdan öyrənilməsinə ehtiyac yaradır.

**Açar sözlər: Kiçik sahibkarlıq, menecer, subyektləri.**

# Analysis of Retail Enterprise Financial Statements

**Samir Mammadov**
**Azerbaijan State University of Economics**

**Abstract**

The main indicators of a commercial organization are profit and loss. Profit, calculated by double-entry in the accounting records of a commercial organization, is an indicator of the ability to declare dividends to shareholders of joint-stock companies or income on investment capital of participants in limited liability companies. At the same time, the calculated values of the relative indicators of investment income and sales income serve as a guide for investors and heads of organizations to make informed economic decisions. One of the most important points in the establishment of enterprise finance is the proper and efficient use and management of financial resources. This point is implemented in enterprises through a financial mechanism. A financial mechanism is a system of managing the financial position of an enterprise. Its main goal is to increase the inflow of cash, which has a positive impact on the level of output. In short, it is to make more money by making more efficient use of the limited resources available to the enterprise. Thus, the process of assessing and forecasting the financial condition of the enterprise is carried out using the existing financial mechanisms, as shown in the research. One of the economic tools used to evaluate an entity's finances is financial statements. The object of research in the article is the retail enterprise of "Bazarstore" LLC. In the course of the research, the financial condition of the enterprise was assessed in terms of short-term and long-term perspectives.

**Keywords: Enterprise, liquidity, finance, retail.**

# Impact of Tax Exemptions and Exemptions on Economic Development

**Qudrat Shamiyev**
**Azerbaijan State University of Economics**

**Abstract**
Tax breaks are one of the most discussed topics in tax policy today. The uncertainty of the methodology or criteria for economically justifying tax benefits established by tax legislation and for assessing the effectiveness of these benefits makes it difficult to answer questions about the appropriateness, scarcity or abundance of these benefits. The study of important issues such as the study of the effectiveness of tax benefits and monitoring the effective use of these benefits can be considered as one of the key issues of successful economic policy in our country, especially tax policy. In this regard, the study of some theoretical and practical issues of assessing the effectiveness of tax incentives was accepted as the purpose of the article. In order to achieve this goal, tasks such as clarifying the nature of tax benefits from a legal and economic point of view, empirical analysis of their effectiveness and identification of key elements of the relevant information system have been set. In a market economy, one of the main tools of government intervention in the economy is taxes. One of the main methods of this intervention is tax breaks. It is through tax incentives that the state interferes in the process of regulating economic development. One of the main issues in this case is to improve the mechanisms for granting benefits, to assess their effectiveness. In improving the mechanisms for granting tax benefits from the provisions of the dissertation.

**Keywords: Tax, concession, economic, entrepreneurship.**

# The Work Ethic Values Of Ethnic Chinese And Ethnic Minangkabau In Indonesia

**Eliza Wati**
**Brawijaya University**

**Abstract**

The purposes of this research study are to compare the work ethic values between ethnic Chinese and ethnic Minangkabau in Indonesia, and to findthe causes of decreasing power of Minangkabau and the reason of increasing power of ethnic Chinese in business activities. The Chinese is minority group but they have a lot of big company in Indonesia under their control,hence they indirectlycan take control of the Indonesia economics. Although in Indonesia there are more than 300 ethnic groups, but the Chinese always manage to overrule the majority groups particularly in business activities. Therefore, this research is pivotal to understand how a minority group can possess huge power in trading activities, economy and business activities in a big country such as in Indonesia.

In order to compare the work ethic values between the Chinese and the Minangkabau, this researchused survey, questionnaire and also observation. According to statistical result, it was found that the Chinese had higher paternalistic values than the Minangkabau. However in other scales such as Locus of Control, Hard Work, Collectivism, Long-termism and Hedonism did not show a significant different between the Chinese and the Minangkabau. Meanwhilethe observation result elucidated thatthe Chinese wasnot using their religion values in their business activities while the Minangkabau wasusing their religious values in their business activities.

**Key words: Business Ethics, work ethic, locus of control, hard work, hedonism, paternalism, long-termism, collectivism.**

# Müştəri Münasibətlərinin İdarə Edilməsinin Müştəri Sədaqətinə Təsiri Mövzusuna Dair Bank Sektorunda Araşdırma

**Ülvi Əlizadə**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Tədqiqatın məqsədi əldə edilmiş məlumatlar əsasında ölkəmizdə müştəri münasibətlərinin idarə edilməsinin (CRM) müştəri sədaqətinə (loyallığına) olan təsirini araşdıraraq, CRM fəaliyyətlərinin həyata keçirilməsinin önəmini vurğulamaqdır. Müştərilər müəssisələr üçün ən dəyərli varlıq olmaqla yanaşı onların davamlılığını qoruyan əsas subyektlərdən biridir. Müştərisi olmayan bir firma satış edə bilmədiyinə görə mənfəət də əldə edə bilməz. Bu səbəbdən də müəssisələr CRM strategiyasını qəbul edirlər. Müştəri münasibətlərinin idarə edilməsi konsepsiyasının əhəmiyyəti, xidmətin daha sıx göstərildiyi sektorlarda artmaqdadır. CRM müştərilərə inam hissinin aşılanmasında, onlarla uzunmüddətli əlaqələr quraraq müştəri sədaqətinin və gəlir artımının təmin olunmasında vacib bir konsepsiya olaraq qalır. Xidmətin daha sıx göstərildiyi sahələrdən biri olan bank sektorunda müştərilərin ən vacib varlıqlar olduğunu nəzərə alsaq, burada fəaliyyət göstərən müəssisələrin bu konsepsiyanı görməzdən gələ bilməyəcəkləri mübahisəsiz bir həqiqətdir. Tədqiqat zamanı məlumat toplama metodu kimi anket üsuludan istifadə edilmişdir. Anket araşdırması Bakı şəhərində fəaliyyət göstərən dövlət və özəl bankların müştərilərinə tətbiq edilmişdir. Araşdırma üçün 5 hipotez bəlirlənmiş və hiptezlərin doğruluğunu yoxlamaq üçün reqressiya analizi, korrelyasiya analizi, t testi və One-Way Anova analizi tətbiq edilmişdir. Nəticədə, bank sahəsindəki müştəri münasibətlərinin idarə edilməsi üzrə fəaliyyətlərin müştəri sədaqətinə müsbət təsir göstərdiyi aşkar edilmişdir. Ancaq əldə edilən nəticələrlə əsasən ümumiləşdirmənin edilə bilməyəcəyinə inanılmaqdadır.

**Açar sözlər: Müştəri münasibətlərinin idarə edilməsi, CRM, müştəri loyallığı, müştəri sədaqəti.**

# Kiçik və Orta Biznesin İnkişafına Təsir Edən Amillərin Qiymətləndirilməsi Mexanizmləri

**Rəhim Qocazadə**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Mükəmməl bazar mühitinin yaradılmasının əsas amillərindən biri sahibkarlığın formalaşdırılması və inkişafıdır. Hər bir sahibkar biznesdə olan mənfəətini maksimallaşdırmağa çalışır və mənfəət əldə etmək üçün cəmiyyətə mal və xidmətlər istehsal edir, yeni iş yerləri təqdim edir, bir sözlə yeni bazar yaradır. Təbii ki, kiçik və orta sahibkarların yaratdığı yeni bazar iqtisadiyyatının dinamikliliyində, inkişafında və azad rəqabətliliyində başlıca rolu mövcuddur.

Dövlətin bazara təsir edən amillərdən biri olması danılmaz faktdır. Belə ki, dövlətimiz kiçik və orta biznesin təşəkkülü, inkişafı ilə bağlı bir sıra məqsədyönlü və sistemli tədbirlər həyata keçirmişdir. Atılan addımlarda sahibkarlar üçün böyük şanslar yaradılmış və biznesin inkişafı üçün dövlət tərəfindən lazımi dəstək göstərilmişdir. Lakin, bu sahədə bir sıra problemlər hələ də qalmaqda davam etməsinə baxmayaraq dövlətin strateji siyasəti davamlı olmalı, düzgün müəyyənləşdirilməli və sahibkarlıq fəaliyyəti qiymətləndirilməlidir.

Qiymətləndirmə, kiçik və orta biznesin kapital qoyuluşu, maliyyə və vergi məsələlərinin mürəkkəbliliyinin, informasiya bazasının aşağı səviyyədə olmasının, ölkə üzrə qeyri-bərabər səpələnməsinin daxili səbəblərinin müəyyənləşdirilməsi və sahibkarlara daha sərfəli, uyğun olan şansların yaradılmasıdır. Qanunvericiliyin əhatə dairəsinin natamam olması, bazarda olan inhisarçılıq meyilləri, bəzi məhdudiyyətlər kiçik və orta biznesin qiymətləndirilməsinin vacibliyini əks etdirir.

**Açar sözlər: Kiçik və orta biznes, sahibkarlıq, dövlət, iqtisadiyyat, qiymətləndirmə.**

# Amortizasiya Olunan İqtisadi Aktivlərin Uçotunun Hesabatda Təsnifatı və Prinsipləri

**Samir Musayev**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Əsas fondlar da daxil olmaqla uzunmüddətli aktivlərin uçotu və hesabatı sisteminin təkmilləşdirilməsi zərurəti bir sıra daxili və xarici amilləri üzə çıxardı. Azərbaycan Respublikasının (AR) dünya iqtisadi inteqrasiyasına daxil olması, ölkə iqtisadiyyatına xarici investisiyalar axınının artması, yerli müəssisələrin xarici firma və şirkətlərlə işgüzar və tərəfdaşlıq əlaqələrinin genişlənməsi və dərinləşməsi bu kimi əsas xarici amillərə çevrilmişdir. Eyni zamanda, bazar münasibətlərinə keçid dövründə hazırlanmış əsas vəsaitlərin uçotu və hesabatı qaydaları və standartları bazar iqtisadiyyatının tələblərinə cavab vermir və müvafiq iqtisadi və idarəetmə qərarlarını qəbul etmək üçün etibarlı və keyfiyyətli məlumat formalaşdırmaq iqtidarında deyil. Xarici və yerli müəssisələrin əmlakının tərkibi ilə tanışlıq göstərir ki, bu əmlakın əsas hissəsi əsas vəsaitdir. Buna görə də əsas vəsaitlərin uçotu və hesabatı sisteminin təkmilləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Əsas fondların tərkibi və strukturu, habelə istifadənin səmərəliliyi barədə tam və etibarlı məlumat yaratmaq üçün nəzərdə tutulmuşdur.

**Açar sözlər: Amortizasiya, iqtisadi aktivlər, mühasibat uçotu, əsas fondlar, aktiv.**

# Analysis of the Current Situation of Electronic Services in Azerbaijan

**Elvin Samedzade**
**Azerbaijan State University of Economics**

**Abstract**

Electronic payments are widespread with the development of e-commerce and Internet banking. Plastic cards have traditionally been the main means of payment in e-commerce. The latest payment instruments, in addition to ensuring customer satisfaction, have strengthened security measures against possible intrusions by online fraudsters. Creating a digital environment is the formation of effective relationships between government agencies, citizens and business relationships. Thus, the provision of basic services to citizens, ie individual documents, certificates, income tax and labor-related services, helps government agencies to provide services to citizens. In addition, company registration, social security, corporate taxes, and VAT-related services for businesses on the Internet help government agencies provide services to citizens. If we look again at the above ideas, we will see how relevant and modern the thesis is. Digital payment systems now play a very important role in people's lives, in real life, because payments can be made at home, at the nearest ATM, on the street vending machines, and so on. It saves time, which is one of the most valuable human resources, and creates a safe environment for health at a time when the Covid 19 epidemic is in full swing.The main purpose of the study is to study the causes of the digital economy, the characteristics of its development and the impact of information technology on the development of the digital economy.

**Keywords: Digital payment, service, e-commerce.**

## Analysis of the Impact of the Quality of Financial Statements on the Development of Credit Institutions in Azerbaijan

**Rustam Ulvi**
**Azerbaijan State University of Economics**

**Abstract**
Credit organizations have been and remain the main providers of banking services for both economic entities and the population. It calculates the volume of business lending operations, the receipt of deposits from the population; Without it, it is impossible to make settlements and money transfers between businesses quickly. The growing threat of a systemic banking crisis, the decline in lending, the sharp rise in credit debt due to exchange rate fluctuations, the unstable macroeconomic situation, all of these have sharply raised the issue of monitoring the activities of commercial banks in modern conditions.
Banks use a lot of information to make adequate decisions, but often resort to innovative technologies. Credit institutions are developing their own internal control programs, which greatly simplifies the control over the operations of banks. However, in order to conduct more new operations, banks are creating additional management and control devices. They create a multi-level management apparatus that makes it increasingly difficult for bank shareholders to control. Also, bank shareholders may not have sufficient information about the activities of a particular department, which can lead to abuse by bank employees. Banks to monitor the activities of their employees, forecast and assess their financial condition, seek the help of highly professional independent auditors, which has become one of the priority areas of financial and economic activity of banks. This increases declining confidence in the national banking system and provides long-term sustainable development potential.
**Keywords: Finance, reporting, quality, credit.**

# Azərbaycanda Hedonik İstehlaka Təsir Edən Səbəblər

**Səlimə Cəfərova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Bildiyiniz kimi istehlak, insanların dünyaya gəlməsi ilə başlayan və zamanla inkişaf edərək, həyatımızın mərkəz nöqtəsinə çevrilən bir iqtisadi varlıqdır. Zaman keçdikcə istehlak xərcləri insanın həyatda qalması üçün lazım olan zəruri xərclərdən şəxsi məmnuniyyəti təmin etmək üçün istifadə olunan ehtiyaclara çevrilmişdir. Əvvəllər fizioloji ehtiyacları ödəmək üçün istehlak məhsulları (yemək, içmə, mənzil) kifayət edərkən, bu gün makiyaj məhsulları, texnoloji məhsullar, lüks istehlak malları və hobbi əsaslı istehlak malları kimi müxtəlif çeşidlərdə bir çox məhsul ehtiyac halına gəldi. Beləliklə, bugünkü cəmiyyətlərdə istehlak fəaliyyətinin məqsədi dəyişməsə də, gözləntilərin, istehlak üslublarının və alətlərinin dəyişikliklər yaşadığı görülür. Nəticədə son illərdə yaranan, istehlakçı davranışı baxımından getdikcə daha çox əhəmiyyət kəsb edən istehlak da duyğuların üstünlük təşkil etdiyi hedonik istehlak davranışına diqqət yetirəcəyik. Hedonik istehlak, istehlakçının əyləncə və alış-verişdən zövq gözləməsinin prioritet olduğu bir istehlak formasıdır. İndi istehlakçılar yalnız ehtiyac duyduqları üçün deyil, həmdə alış-veriş zamanı emosional həzz ala biləcəkləri yerlərdə də alış-veriş edirlər. Ənənəvi rasional alış qərarları yerinə istehlakçılar alışlarını xarici və daxili amillər və ya situasiya amilləri təsiri altında edirlər. Eyni zamanda, hedonik istehlakın artması ilə istehlak sektorundakı markalar da bu istiqamətdə inkişaflarını həyata keçirmək üçün bu sahələrdə marketinq fəaliyyətlərini həyata keçirirlər. Əsas ehtiyaclar üçün marketinq fəaliyyətləri markalar tərəfindən əhəmiyyətli hesab edilmədiyi halda, hedonik istehlaka ehtiyac yaradan marketinq fəaliyyətləri sosial medianın təsiri ilə sürətlə artır. Bu səbəbdəndə bu gün tükənməyən bir istehlak çaşqınlığı var. İstehlakçılar, ehtiyaclarını asanlıqla görəbildiklərini düşündükləri məhsul və ya markalardan çox, məhsulun satın alındıqda onlara zövq verməsi ilə daha çox maraqlanırlar.

**Açar sözlər: Hedonik istehlak, hedonizm, macəra istehlakı, istehlak səbəbləri.**

# Человеческие Ресурсы и Проблемы Их Занятости

**Гусейн Ахмедов**
**Азербайджанский Экономический Университет**

**Резюме**

Данная статья посвящена изучению новейших проблем связанных занятостью человеческих ресурсов. В этой статье показывается влияние роботизации и Ковида-19 на занятость людей. В разделе введения говорится об актуальности проблемы занятости, что она существовала, существует и будет существовать и в будущем. Во втором разделе (Влияние роботизации на занятость) говорится о проводимых исследованиях учёными, об используемых ими методах исследования, показывается, сколько процентов в будущем роботы займут рабочие места, сравнение цены труда рабочего и робота. Показываются, какие профессии будут актуальными в будущем, а какие останутся в прошлом. В следующем разделе (Влияние пандемии Covid-19 на занятость населения) говорится о негативном воздействии пандемии на рынок труда. Даются статистические данные Международной Организации Труда в виде графиков таблиц, в которых указываются в процентах количество потери рабочих мест. Говорится, о мерах государства проводимых по борьбе с пандемией Covid-19 с целью уменьшения её отрицательного влияния на занятость населения. И в разделе выводы и результаты обобщаются выводы, сделанные на основе проведённого исследования.

**Ключевые слова: Человеческие ресурсы, проблемы занятости, ковид19,роботизация, безработица.**

## Theoretical Basics of Risk Insurance in Banking Organizations

**Fazil Muzaffarov**
**Azerbaijan State University of Economics**

**Abstract**

Each industry has its own risks, and there is always a need to insure against these risks. Banking is also one of the most risky activities. Depending on the analysis of the construction of banks and the solution of prospective risks, risk managers pay attention to this area, work to reduce the degree of risk and bring innovations. One of the subjects of these innovations is banking risk insurance. The main area of market risk is the risks associated with the products used by banks in their commercial activities.Bank risk insurance to some extent prevents banks from going bankrupt. Thus, one of the risks that has a significant impact on the capital of banks is credit risk, which is reflected in the credit of banks that are associated with problem loans. However, at a time when the volume of problem loans exceeds 1 billion manat, insurance companies are not interested in insuring credit risks and other risks of banks. Effective risk control should be used to limit the risks associated with commercial activities, analyze potential losses and establish a system for risk management. In this context, it is important to develop a model appropriate to the Bank's structure and use digital and analytical analyzes to test the sample with retrospective tests to identify the financial products needed to monitor market risks. Market risks can be classified as general market risk, turnover risk and interest rate risk, and liquidity risk.

**Keywords: Risk, trade, banking, insurance.**

# Entrepreneurship Ecosystem of Russia

**Buksukpaeva Raushaniia**
**Fedorovich Svetlana**
**Siegen University**

**Abstract**

This article analyzes the entrepreneurial ecosystem in Russia from the perspective of the transit period. We use scientific literature and statistical data to analyze the state of entrepreneurship in Russia as an important part of the economy. For this kind of analysis, we consider the specifics of the transition in Russia, the factors that influenced the key characteristics of the entrepreneurial ecosystem, and we provide a historical and political retrospective on current events. The main goal of the project is to understand where the entrepreneurial ecosystem of Russia currently stands in its development, what challenges it faces, and what the prospects are for its development.

**Keywords: Negative demographic trends, crime, collapse of the Soviet Union, West European–style welfare state, Entrepreneurship, Innovation, 2008 crisis, Innovative entrepreneurship, Government support of innovative Business.**

# Theoretical Basics of Auditing Commercial Banks' Funds

**Alipasha Hasanov**
**Azerbaijan State University of Economics**

**Abstract**

Increasing the requirements for the quality of the report, the reliability and presentation of the information contained in it, strengthens the control over the quality of inspections. In this context, audit firms are required to develop measures to improve the quality of inspections without significantly changing the complexity and duration.The urgency of the problem of inspection of commercial banks in modern conditions, the theoretical and practical significance for the banking system and the economy as a whole determined the choice of topic, the formation of the problem, the goals and objectives of the study.

Own funds are the most important indicator of commercial banks in Azerbaijan. Their importance is reflected in ensuring the normal operation of a commercial bank and its ability to meet its obligations. One of the main reasons for the financial difficulties and bankruptcy of commercial banks is the poor management of their capital. This is due to violations committed by banks during the formation and change of their capital, as well as incorrect calculation of its size and adequacy by the board. Banks enlist the help of external auditors to address problems with the use of their funds. In an environment of high competition and increasing risk, auditing should focus not only on validating the reliability of the reports, but also on in-depth analysis of their performance.

**Keywords: Audit, commercial, banking, funds.**

## Mechanisms of Formation of Local Self-Government Bodies in The World Practice

**Maleyka Bakhshaliyeva**
**Azerbaijan State University of Economics**

**Abstract**

One of the key issues of successful economic reforms in our country after the transition to a new economic system was the change of property relations and the creation of a new economic mechanism based on the diversity of property, independence and initiative of economic entities. In connection with the development of market economic relations, there was a reorganization of the single state property on the basis of the division into state, private and municipal property. As a result of the formation of a new territorial structure of state property, there was a demand for optimal adaptation of the volume and nature of property, depending on the nature of the issues to be addressed in terms of the interests of the population living within the administrative territorial units.

Undoubtedly, municipal property is one of the most important elements of the modern economic system. This property is the basis of the territorial reproduction system and includes a wide network of economic and social facilities within local municipal enterprises. The quality of life of the population living in the municipality depends to a large extent on the development of municipal enterprises and their efficient use. Because today the process of formation and formation of municipal property, as well as municipal enterprises is not yet complete. Thus, despite the creation of a certain legal and regulatory framework in this area, the use of production, financial and social forms of municipal property is not balanced.

**Keywords: Municipality, state, foreign international, Council of Europe.**

# Theoretical Basics of Small and Medium Enterprise Financing

**Mirsadiq Talibzade**
**Azerbaijan State University of Economics**

**Abstract**

The formation of the financial market is possible through economic and legal reforms and the creation of market infrastructure. At a time when savings and investments are made by different people, the emergence of a mechanism that ensures the conversion of savings into investments is becoming a topical issue. The financial market and its constituent elements, by performing the function of this mechanism, ensure the effective redistribution of capital resources between the subjects of economic activity. Despite the fact that the securities market is so important for the economy in modern times and the state is carrying out large-scale reforms, there is still a lack of information about it in our country.In the case of derivative financial instruments, a stock market participant works not with the fictitious capital (shares, bonds) itself, but with a document authorizing the purchase and sale of this capital. Derivative financial instruments are a type of contract that gives the right to conduct transactions with classical securities (first-tier securities): options, futures contracts, warrants, etc. Their main purpose is to insure the holder of the document against losses in the stock market game, as well as to protect it in the face of inflation and economic instability.

**Keywords: Entrepreneurship, prospects, lending.**

# Postneft Mərhələsində İnsan Kapitalının Formalaşması

**Səma Əmrahova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Müstəqilliyimizi əldə etdikdən sonra Azərbaycanda sosializmdən kapitalizmə keçidin baş verməsi ilə insan kapitalının inkişafı, onun formalaşması prosesi əsas hədəflərdən biri olmuşdur. Yenilik tələb edən iqtisadi şəraitdə ictimai istehsalın forması, onun texnoloji vəziyyəti də əsaslı dəyişikliklər istəyir. İnsan kapitalına yatırılan investisiyalar bu gün daha çox əhəmiyyət kəsb edir. Çünki, insan kapitalının inkişafı milli iqtisadiyyatın quruluşunun yaxşılaşmasına, mal və xidmətlərin keyfiyyətinin yüksəldilməsinə, beynəlxalq təşkilatların siyahılarında yüksək nəticələrə sahib olmağa imkan verir. İnsanın intellektual potensialı öz əhəmiyyətini biliklərin istehsal edilməsi, onların ötürülməsi metodu ilə ortaya çıxarır. Elə buna görə də bir çox tədqiqatçı insan kapitalını postindustrial cəmiyyətin bütün sərvətlərindən ən dəyərlisi kimi qiymətləndirmişlər. Çünki, demək olar ki, bütün ölkələrdə intellektual kapital iqtisadiyyatın artım tempini, ölkədəki elmi texniki tərəqqinin vəziyyətini müəyyənləşdirir. Nəticədə cəmiyyətdə təhsil sisteminə, hansı ki, insan kapitalının əsasını təşkil edir marağı artırır. Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsinə, əlverişli biznes mühitinin yaradılmasına, iqtisadiyyatın diversifikasiyasına və insan kapitalının inkişafına dair islahatlar həyata keçirilir. Bu islahatların uzunmüddətli dövrdə həyata keçirilməsi, genişləndirilməsi təhsilin keyfiyyətinin yüksəldilməsi, infrastuktur və onun quruluşunun təkmilləşdirilməsi, “elm-təhsil-istehsalat” münasibətlərinin idarə edilməsi üçün sürətli idarəetmə mexanizminin yaradılması, həmçinin şirkətlərin beynəlxalq arenaya inteqrasiyası üçün olduqca önəmlidir. Bu çalışmada əsasən, analiz, sintez, statistik təhlil və s. kimi metodlardan istifadə edərək postneft mərhələsində ölkəmizdə insan kapitalının formalaşması istiqamətləri müəyyən edilmişdir. Məqalənin nəticəsi olaraq isə insan kapitalının inkişafında təhsilin rolu, Azərbaycanda insan kapitalının inkişaf səviyyəsi, ona dövlətin təsiri imkanları, insan kapitalına əsaslanaraq iqtisadi inkişafa nail olma dərəcəsi və s. müəyyən edilmişdir.

**Açar sözlər : İnsan kapitalı, təhsil, iqtisadi inkişaf, Azərbaycan.**

## Banklarda Maliyyə Sabitliyinin Qiymətləndirilməsi: Z-skor

**Gültac Rəhimli**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Banklar maliyyə sisteminin mühüm elementi hesab edilir. Bu baxımdan maliyyə sisteminin davamlı və səmərəli fəaliyyətinin təmin edilməsində banklar böyük rola malikdir. Bankların iqtisadiyyatda müsbət hərəkətverici təsiri ilə yanaşı, bank sistemində yaranan problemlər də iqtisadiyyata mənfi təsir edir. Ona görə də bankların maliyyə sabitliyinin qiymətləndirilməsi həm bankın öz fəaliyyəti, həm də ümumilikdə ölkədə maliyyə sabitliyi baxımından mühüm əhəmiyyət kəsb edir. Lakin maliyyə sisteminin özünün mürəkkəb və daim yenilənən quruluşa sahib olması, həmçinin maliyyə sisteminin real iqtisadiyyatla çoxşaxəli əlaqələri bu anlayışın konkret bir tərifinin olmamasına, və bu da öz növbəsində maliyyə sabitliyinin qiymətləndirilməsində də müxtəlif yanaşmaların olmasına səbəb olmuşdur. Bu məqalədə banklarda maliyyə sabitliyinin qiymətləndirilməsi məsələsinə baxılmışdır. Bu məqsədlə ilk öncə maliyyə sabitliyi anlayışına müxtəlif yanaşmalar, həmçinin maliyyə sabitliyinin qiymətləndirilməsi metodları nəzərdən keçirilmişdir. Daha sonra elmi ədəbiyyatlarda bankların maliyyə sabitliyinin qiymətləndirilməsi üçün geniş istifadə olunan z-skorun hesablanma metodologiyası nəzərdən keçirilmiş və Azərbaycanın Mərkəzi bankının, həmçinin Kapital bank və Beynəlxalq bankın göstəriciləri əsasında hesablamalar aparılmışdır.

**Açar sözlər: Bank sistemi, maliyyə sabitliyi,  Z-skor.**

# Kənd Təsərrüfatı Məhsullarının İxrac Potensialının Artırılmasında İnnovasiyaların Rolu

**Səbinə Salahova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Ölkəmizdə kənd təsərrüfatı sahəsinin inkişafında və ixrac potensialının artırılmasında aktual məsələlərdən biri də istehsalda innovasiya texnologiyalarının tətbiqinin genişləndirilməsidir. Aqrar sənaye Azərbaycanın milli iqtisadiyyatı üçün ənənəvi sahədir və bu sektordakı inkişaf dinamikasında illər uzunu qazanılmış təcrübələr, ənənələr, formalaşmış kənd təsərrüfatı istehsal bacarıqları hesabına artım müşahidə edilmişdir. Ancaq aparılan araşdırmalar göstərir ki, qloballaşma dövründə, habelə elmi-texniki tərəqqinin hazırki mərhələsində bu yolla istehsalın intensiv inkişafına nail olmaq mümkün deyil. Ölkəmizin kənd təsərrüfatı potensialının ekstensiv inkişaf üçün az yararlı olduğunu nəzərə alsaq, istehsalın həcminin və ixracda kənd təsərrüfatı məhsullarının payının artırılmasına ancaq intensiv inkişafla nail oluna bilər. Bu isə dünya iqtisadiyyatında baş verən yenilikləri daim izləmək, müasir texnika və texnologiyadan istifadəni təmin etməklə mümkündür.
Mövzu etibarilə innovasiyaların tətbiqinin zəruriliyini və ixrac potensialının gücləndirilməsində onun rolunu ifadə edən bu məqalədə, ölkəmizdə kənd təsərrüfatı məhsulları istehsalının problemləri müəyyən edilmiş, görülən innovativ tədbirlər təhlil edilmişdir. Məqalədə innovativ yeniliklərin kənd təsərrüfatında tətbiqinin potensial ixrac məhsulları qrupunun çeşidlənməsini, məhsulların beynəlxalq standartlara uyğun istehsalını, dünya bazarında rəqabətədavamlı mal və məhsulların çıxarılmasını stimullaşdıracağından bəhs edilir.

**Açar sözlər: İnnovasiya, kənd təsərrüfatı, ixrac, aqrar sənaye məhsulları.**

# Dünya Təcrübəsi Əsasında İnnovasiya Fəaliyyətinin Formalaşdırılması Xüsusiyyətləri

**Əli Mürsəlov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Məqalədə dünya təsrübəsi istiqamətində innovasiya fəaliyyətinin formalaşmasının nəzəri aspektləri araşdırılmış, fəaliyyətin formalaşmasının konseptual əsasları öyrənilmiş və bu fəaliyyəti zəruri edən amillərin əsas xüsusiyyətləri müəyyən olunmuşdur. Hər bir milli innovasiya sistemi yenilikçi inkişafa təsir göstərən iki vacib amil qrupunu əhatə edir. Birincisi bunlara daxildir: struktur və iqtisadi xüsusiyyətlər, xüsusən də kiçik və orta firmaların iqtisadiyyatda rolu, iqtisadi fəaliyyətin sahələr üzrə bölüşdürülməsi və yeniliyə tələb. İkinci qrupa sahibkarları və işçiləri yeniliklər yaratmağa təşviq edən sosial-mədəni və institusional şərtlər daxildir. Bu qrupların hər birinin ölkənin innovativ imkanları üzərində öz təsiri var.

Son illərdə tədqiqatçılar özəyi ya ayrı-ayrı texnoloji istiqamətlər, ya da bazar seqmentləri, hətta sənaye sektorları olan sektor və sahələrarası innovasiya sistemlərinin formalaşması problemlərinə daha ciddi diqqət yetirirlər. Texnoloji və ya tədqiqat sahəsi çox dar  və ya daha geniş ola bilər. Sənayeyə xas bir yenilik sistemi ya bir spesifik texnologiyaya, ya da bir bilik sahəsinə, ya da bir sıra bilik sahələrinə və ya bir-birini tamamlayan texnologiyalara əsaslana bilər. Ən vacib texnoloji yeniliklər, yəni yüksək sosial əhəmiyyətə sahib olanlar, ümumiyyətlə bir sıra əlaqəli texnologiyalardan ibarət yeni bir texniki sistemin əsasını təşkil edir.

Məqalənin informasiya bazası AMEA Mərkəzi Elmi Tədqiqat İnstitutunun, Azərbaycan Dövlət Statistika Komitəsinin, Təhsil Nazirliyinin, İqtisadiyyat Nazirliyinin və digər təşkilatların və dövlət orqanlarının statistik və analitik materialları və nəticələri təşkil edir.

**Açar sözlər: Koseptual yanaşma, yenilikçi inkişaf, innovasiya fəaliyyəti, bazar iqtisadiyyatı, innovativ inkişaf.**

# The Relationship Between Personal Levels of Economic Returns and Education Indicators

**M. Bachirou Djibril Issoufou**
**Aix-Marseille University**

**Abstract**

The aim of this research was to examine the relationship between the educational indicators of Niger and France and the level of personal return. The method of study is the relational survey model and comparative research design. The sample of the study is from 1996-2015 covering the population group of Niger and France between the ages of 15-64. In the research, the personal education return (GDP per capita) was taken as a dependent variable. Literacy Rate, Means Years of Schooling, Education Expenditures and Population Growth Rate are independent variables.

The data of the study was obtained from the World Bank, OECD, UNESCO, İNS and İNSEE official internet sites with a data collection form based on the document scanning technique.

According to the findings of the study, Niger and France have a positive distribution of GDP per capita, literacy, means years of schooling and education expenditures, the rate of population growth and GDP per capita show a negative distribution. The relationship between education indicators and GDP per capita was examined. There was a very strong correlation between literacy, means years of schooling and education expenditures, and a moderate relation between population growth rate and GDP per capita. In the study, the results of the Stepwise Regression analysis for Niger and France's education indicators and per capita GDP, means years of schooling, education expenditures and the rate of population growth predicted GDP per capita significantly and literacy rates did not predict GDP per capita significantly.

**Keywords: GDP per capita, educational expenditures, means years of schooling, literacy, population growth rate.**

# Rəqəmsal Marketinqin Alıcıların Alış Davranışına Təsiri: Cins Faktorunun Rolu

**Elvin Batiyev**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Son dövrlərdə internetin sürətlə inkişaf etməsi və hamı üçün əlçatan olması biznesləri burada olmağa məcbur etmişdir. Belə ki, artıq bizneslər sosial şəbəkələr, əyləncə və xəbər portalları, vebsayt, e-poçt, mobil tətbiq və s. kimi rəqəmsal alətlərlə öz potensial müştəriləri ilə əlaqəyə keçməyə çalışırlar. Təbii olaraq istifadəçilər də artıq həm vaxta qənaət etmək, həm də daha geniş seçim şansı və məlumat verən rəqəmsal platformalardan öz alışları üçün aktiv istifadə edirlər. Rəqəmsal marketinqin nisbətən ucuz olması bu sahədə olan rəqabəti də çox kəskinləşdirir. Buna görə də şirkətlər artıq rəqəmsal marketinqə daha ciddi yanaşır və ondan daha məqsədyönlü istifadə etməyə çalışırlar. Təbii ki, bu zaman bir sıra suallar yaranır ki, rəqəmsal platformalar istehlakçıların alış davranışlarına hansı səviyyədə təsir edir. Hansı rəqəmsal marketinq alətləri daha effektivdir, hansı hədəf kütlə üçün, hansı marketinq kanalından, hansı reklam növündən istifadə etmək daha yaxşı olar. Bu suallara cavab tapmaq üçün rəqəmsal platforma istifadəçiləri arasında bir araşdırma keçirilmişdir. Araşdırmada 330 nəfər respondent iştirak edib. Bu respondentlərin hamısı Azərbaycanda yaşayır və 18 yaş və daha yuxarı şəxslərdir. Araşdırmanın əsas məqsədi isə rəqəmsal kanalların, rəqəmsal reklam növlərinin və ümumilikdə rəqəmsal marketinqin onların alış davranışına hansı səviyyədə təsir etdiyini öyrənmək olub. Bundan sonra isə bu dəyişkənlərin cinslər üzrə necə fərqləndiyi müəyyənləşdirilib.

**Açar sözlər: Rəqəmsal marketinq, istehlakçı davranışı, rəqəmsal marketinqin cinslər üzrə təsiri, rəqəmsal marketinq alışa təsiri.**

# Covid 19 və Onun İqtisadiyyata Təsiri

**Aynur Abdullayeva**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
İqtisadiyyat çox həssas sahədir. 2020-ci ilə öz neqativ damğasını vuran COVİD-19 pandemiyası inkişaf səviyyəsindən asılı olmayaraq bütün ölkələrin iqtisadiyyatının geriləməyinə səbəb oldu. Ölkələrin ÜDM-lərində əsaslı azalma və əhalinin sosial rifahının pisləşməsi müşahidə olundu. Dövlətlər tərəfindən bir sıra iqtisadi, sosial tədbirlərin görülməyinə baxmayaraq iqtisadi proseslərin tənzimlənməsi və normal hala gəlməsi heç də asan həll olunan məsələ olmadı. Hətta demək olar ki, antipandemiya tədbirləri iqtisadiyyata birbaşa və dolayısı ilə neqativ təsirlərini vurdu. Bəzi ekspertlərin fikrincə, pandemiyanın iqtisadiyyata vurduğu neqativ təsirləri yalnız yaxın 5 il ərzində bərpa etmək mümkün olacaqdır.
Currently, the international currency market is experiencing a drop in the value of national currency units of developed countries, the global economy is unstable. The article considers possible scenarios for the development of the situation and assesses the forecasts of analysts from leading credit institutions and authoritative economic publications. The purpose of this work is to study the impact of manipulations with exchange rates on the national economies of individual countries and on the world economy as a whole. The task of the authors was to reveal the concept of a currency war, to identify the causes of competitive devaluations, to present a scenario of possible consequences. The objects of study were the United States, China, Russia, Japan, as well as the EU countries, which are the most active subjects of competitive devaluation. The article uses extensive material from the world analytical agencies and departments, reviews and forecasts, scientific theoretical work of scientists. The authors consider the continuation of the policy of competitive devaluation in China, Rossm, Japan and the EU as a probable scenario of the global economy. Uncertainty in US policy towards the value of the dollar affects factors of macroeconomic stability, while a stable high dollar rate is attractive to investors and serves as the basis for the emergence of financial pyramids. It has been suggested that the preservation of the high dollar rate in comparison with the currencies of other countries in the future may lead to a collapse of the world financial market.

**Keywords: Devaluation; trade war; exchange rate; international trade.**

# İslam Ticarət Müqavilələri

**Elsevər Quliyev**
**Nərmin Məsimli**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
İslam qanunvericiliyində müqavilələr öz mahiyyətinə görə siyasi, ictimai, ticarət və nigah müqavilələri kimi təsnifləşdirilir. Şəriət tələbləri əsasında tərtib olunmuş İslam ticarət qanunları, müxtəlif növlü müqavilələr vasitəsi ilə iqtisadi münasibətləri tənzimləyir və hüquqi çərçivəsini müəyyən edir. Müqavilələr tərəflərin iştrakına görə bir tərəfli və iki tərəfli kimi təsnifləşdirilir. Bir tərəfli müqavilə, yalnız bir tərəf üçün öhdılik müəyyən edir və mahiyyətcə daha çox xeyyriyə müqaviləsidir. Hər iki tərəf üçün öhdəlik yaradan müqavilələr iki tərəfli müqavilələrdir və onların mətnində qeyri-müəyyənlik ifadə edən şərtlərin mövcudluğu yol verilməzdir. İslam Ticarət müqavilələrinin əsasını satış müqvilələri təşkil edir ki, bunlarda satılan məhsulun maya dəyərinin açıqlanmasından aslı olaraq Etibarlı satış (Amanah) və Razılaşdırılmış satış (Musavamah) kimi təsnifləşdirilir. İslam ticarət qanunlarına əsasən Amanah (Murabaha, Tavliyah, Vadiah) və Musavamah müqavilələri üzrə malların dəyərinin ödənişi yerində (dərhal) və yaxud möhlətli ödənişlə həyyata keçirilə bilər. Lakin, həmin müqavilələr üzrə malların çatdırılması yerindəcə (saziş imzalanan kimi) həyata keçirilməlidir. Bay Al-Arbun (Urbun), Salam və İstisna məhsulları üzrə, avans və yaxud bütöv müqavilə məbləğinin ödənilməsinə icazə verilir, malların çatdırılması isə satıcı tərəfindən gələcək zamanda həyata keçirilir. Həmin müqavilələr üzrə sifariş, məhsulların texniki xarakteristikaları əsasında həyata keçirilir.

**Açar sözlər: İslam ticarət qanunları, Şəriət, müqavilə, satış, ödəniş, çatdırılma.**

# Covid 19 Pandemiyası Qlobal Enerji Sektoruna Təsirləri

**Rəşad Nəsirzadə**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Koronavirus pandemiyası (Covid-19) nəsillər boyu ən böyük qlobal böhranın yaranmasına səbəb oldu, dünyadakı sağlamlıq sistemləri, iqtisadiyyatlar və cəmiyyətlər arasında şok dalğaları baş verdi. Görünməmiş bir vəziyyətlə qarşılaşan hökumətlər öz səylərini xəstəliyi nəzarət altına almağa və iqtisadiyyatlarını canlandırmağa yönəldilməkdədirlər. Pandemiyanın fəsadlarını sürətlə aradan qaldırmağa çalışan əsas sektorlardan biri də enerji hesab olunur. Enerji sektoru həm də bütün dünyada nəqliyyat, ticarət və iqtisadi aktivliyi ləngidən bu böhrandan ciddi şəkildə təsirlənməkdədir. Beynəlxalq Enerji Agentliyinin aprel ayının ortalarında dərc olunmuş gündəlik məlumatların son analizində biz tam kilidlənən ölkələrdə həftədə enerji tələbində ortalama 25 % azalma, qismən kilidlənən ölkələr isə ortalama 18 % azalma görə bilərik. Pandemiya dövründə enerji tələbindəki azalma sektora böyük zərbə vurmuşdur. Pandemiyanın enerji sistemləri və təmiz enerji keçidləri üçün nəticələri hələ də davam etməkdədir. Lakin biz xüsusilə üç sahəyə diqqət yetirməliyik: bunlar COVID-19 böhranının qlobal enerji tələbatı, CO2 emissiyalarının təsirləri, kilidlənmə və yavaşlama səbəbi ilə enerji tələbinin azalmasıdır. Tədricən ölkələrin normallaşma prosesinə başlamasından sonra qlobal enerji tələbatı artmışdır, lakin bu sonra 2019 səviyyəsinə yüksəlməsə də, neft qiymətləri yavaş bərpa olunmağa başlamışdır. Bu enerji sektorundakı qiymətlərin yavaş bərpası zamanı iri qlobal şirkətlərə üstünlük qazanmaqdadır, daha kiçik və zəif maliyyələşmiş şirkətlər isə geridə qalmağa qalmaqdadırlar. Neft qiymətlərindəki yavaş artım bizə yenilənə bilən enerji sektorunda ciddi bir ümid vermişdir. Bütün bunlarla yanaşı Covid-19 pandemiyası respublikamızın enerji sektoruna ciddi təsirlər göstərmişdir. Pandemiya zamanı Azərbaycan bazardakı qeyri sabitlik səbəbi ilə ciddi itkilərə məruz qalmışdır.

**Açar sözlər: Covid-19, enerji sektoru, enerjiə tələbat, neft sektoru.**

## Impact of COVID 19 to Petroleum Industry and Forecasting of Oil Prices in 2021

**Turgay Isgandarli**
**Chinedu Ejike**
**China University of Petroleum- Beijing**

**Abstract**

The spread of covid-19 in 2020 had a devastating effect in the world market sentiment as it grossly affected the demand for oil. The global crude oil price dropped sharply thereby affecting the global economy. The world fiscal situation is seriously affected by the prolonged disruption of economic activity due to the pandemic, coupled with the fall of oil prices and the decline in demand for oil products posed by quarantine and self-isolation measures. Based on previous studies, this paper comprehensively reviews the response caused by the shock of the covid-19 pandemic on the oil price and its major effect in determining the global oil price in 2021. In October 2020, worldwide crude oil prices in United States Dollar averaged USD 40 per barrel and are expected to stay at that price by the end of 2020, but to reach USD 47 per barrel in 2021, according to the Short Term Energy Forecast from the United States Energy Information Administration (EIA). On the other hand, in 2021, there are several analyst who do not see the rising global price of crude oil. Some claim that crude oil would hit considerably less than USD 30 per barrel of crude oil. This study provides a reliable basics for understanding the effect of the pandemic on crude oil price and a framework for future research.

**Keywords: Crude oil; oil price; Covid-19; oil&gas; per barrel.**

# Azərbaycanda Reklam Biznesinin İnkişaf Etməsinin Mühüm İstiqamətləri

**Hüseyn Talıbov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Reklam biznesi ilə reklam agentlikləri məşğul olur. Reklam agentliklərinin biznes fəaliyyətinin, həm də müasir şəraitdə Azərbaycanda reklam fəaliyyətinin təhlil olunması mümkün inkişaf perspektivlərinin qiymətləndirilməsi problemləri ilə bağlı tədqiqatların mübahisəsiz olaraq aktual olması anlamına gəlir.
Məqalədə reklam bazarının formalaşmasına obyektiv ehtiyacı, reklam bazarının və reklam kateqoriyasının və reklam bazarının mahiyyəti, məzmununu ümumiləşdirilmiş, bütün iqtisadi sistemin fəaliyyətinin ardıcıllığını təmin edən bir mexanizm kimi reklamın formalaşma qanunauyğunluqları sstemləşdirilmişdir. Bu məqsədlə həm respublika səviyyəsində (ADRA ) reklam agentliyinin biznes fəaliyyəti, həm də özəl bir reklam agentliyinin reklam biznes fəaliyyəti təhlil edilmiş, əsas problemlər ortaya cıxarılmış və bu problemlərin aradan qaldırılması ücün təklif və tövsiyyələr verilmişdir. ADRA və İDEART agentliyinin fəaliyyətində rəsmi statistika ilə, agentliyinin xərclərini, gəlirlərini dəqiq bilməklə təkmilləşmə üçün təkliflər vermək istərdim. Amma Azərbaycandakı reklam agentliklərinin heç biri öz xərclərini, gəlirlərini, bazar paylarını açıqlamırlar. Məqalədə reklamın və reklam bazarının əmtəə bazarının işləmə mexanizminə təsirinin nəzərə alınması, Azərbaycanda reklam bazarının formalaşma xüsusiyyətlərini öyrənməsi və gələcək inkişaf yolları nəzərdən keçirilmişdir. Reklam agentliklərinin xidmət səviyyəsinin aşağı olmasının səbəbləri və çıxış yolları göstərilmişdir.

**Acar sözlər : Reklam, ADRA, İdeart, biznes, SWOT təhlili.**

# Qarabağ Regionunda Ağıllı Kənd və Şəhər Layihələrinin İqtisadiyyata Verəcəyi Tövhələr

**Günay Musayeva**
**Bakı Dövlət Universiteti**

**Xülasə**

XX əsrin əvvəllərində bir çox Azərbaycana yaxın və uzaq ölkələr Qarabağın münbit torpaqlarından yararlanırdılar. Belə ki, Qarabağ Azərbaycanın dilbər guşəsi olmaqla yanaşı, həm də Azərbaycanın iqtisadiyyatının vuran nəbzi idi. Orada yetişdirilən məhsullar ət, yun, taxıl, çəltik, pambıq istehsalı, mineral sular, balıq istehsalı Qarabağda artıqlaması ilə istehsal olunur və dünya ölkələrinə ixrac olunurdu.Odlar Yurdu Azərbaycanda olan dünyanın 11 iqlim qurşağından 9-nun olması öz bəhrəsini verirdi.Qarabağdan ixrac olunan məhsulların əvəzinə Azərbaycan üçün lazım olan yeyinti və yüngül sanaye məhsullar idxal olunurdu. Xüsusilə Qarabağ xalçaları sərgilərdə nümayiş etdirilir, dünya səviyyəsində öz üstünlüyü ilə ölkəyə şöhrət gətirirdi. Azərbaycana məxsus “Qarabağ xalçaları” adı altında məhşurlaşmışdı. Bu xalçalar üzərində olan müxtəlif naxışlar öz rəng çalarları ilə seçilir və füsunkar gözəlliyi ilə dünya xalqlarını heyrətə salır və müxtəlif şirkətləri özünə cəlb edirdi. Demək olar ki, çox evlərin divarlarını bu xalçalar bəzəyirdi.Bu dövrdə firavan həyat yaşayan Azərbaycana turistlərin güclü axını var idi. Sovet Sosialist Respublika İttifaqı (SSRİ) dağılarkən mənfur düşmənin Cənnət Qarabağımızı işğal etməsi nəticəsində ölkəmizin iqtisadiyyatına güclü ziyan dəymişdir. Ölkəmizin münbit torpaqları, əsas əkinçilik və maldarlıq yeri, mineral suları, gözəl mənzərəli təbiəti ilə seçilən torpaqlarımız 30 ilə yaxın işğal altında qalmışdır.

**Açar sözlər: Qarabağ, Ağıllı kənd və şəhər, nəqliyyat, iqtisadi potensial, layihə.**

# Инновационные Пути Повышения Квалификации и Переподготовки Кадров

**Ульви Рзаев**
**Азербайджанский Государственный Экономический Университет**

## Резюме

Кадры основная движующая сила производства. Для решения разного рода производственных задач, требуется наличие высококвалифицированного персонала. В большинстве случаев, наличие квалифицированного персонала гарантирует успех для организации. Тем самым все участники рынка заинтересованы, иметь в своем распоряжении подготовленный состав работников.

Когда сотрудники становятся недовольными в организации, у них может развиться негативные поведения, которые препятствуют росту прибыли и производительности. Целью данного исследования является изучение стратегии, необходимые руководителям организаций для улучшения работы сотрудников организации. Рациональная расстановка и целесообразное использование кадров обеспечивает эффективность производства.

Одно из самых значительных вложений, которое может сделать в любой бизнес, - это его персонал. Однако это выходит за рамки простого факта выплаты заработной платы и льгот - чтобы быть действительно ценным элементом компании, необходимо искренне заботиться о сотрудниках. Им должны быть предоставлены инструменты и знания, чтобы они могли стать квалифицированными участниками, а также стимул использовать их новаторски. По словам Ричарда Брэнсона (2014): «Обучайте людей достаточно хорошо, чтобы они могли уйти, относитесь к ним достаточно хорошо, чтобы они не хотели этого». Корпоративный сектор начал понимать, насколько важны обучение и образование сотрудников для успеха бизнеса. Вот почему в настоящее время мы наблюдаем склонность компаний вкладывать средства в руководителей по обучению. Эти руководители образовательных учреждений глубоко понимают, как инновационное обучение может улучшить траекторию развития компании и как разрабатывать программы, которые увеличивают шансы на успех. Этот целостный подход доказал свою эффективность и предлагает возможности для предприятий любого размера. В интересах компании поощрять постоянный образовательный рост своих сотрудников - как структурированный, так и самостоятельный.

**Ключевые слова: Инновационные методы развития, квалификация кадров, эффективность методов, переподготовка кадров.**

# Azərbaycan Respublikasının Dövlət Büdcəsinə Vergi Daxilolmalarının Artırılması İmkanları

**Rəşad Əmənov**
**Azərbaycan Universiteti**

**Xülasə**
Tədqiqatın əsas məqsədi büdcəyə vergi daxiolamalarinin artirilmasi imkanlarının öyrənilməsidir. Bu məqsədlə, obyektiv və səmərəli vergi siyasətinin aparilmasi, vergi islahatlarının həyata keçirilməsi, vergi sisteminin təkmilləşdirilməsi və vergi sistimində şəffaflığın təmin edilməsi tədqiq edilmişdir. Müəyyən edilimişdir ki, dövlət büdcəsinə vergi daxilolmalarının artırılması üçün qeyri-neft-qaz sektorunun intensiv inkişafını daha da təkmilləşdirilməlidir. Dövlət vergilərinin yığilmasında şəffafliğa nail olunduğu üçün büdcəyə daxilolmalar artmışdır. Həmçinin vergi sistemində elektron xidmətin yüksəldilməsi yəni e-qaimə-faktura və e-vergi hesab-fakturalardan istifadəsi nəticəsində vergi daxilolmalarının artımında nisbətə yüksəliş olmuşdur.
Təhlillər göstərir ki, vergi mühitinin cəlbediciliyinin artırılması nəticəsində və eləcədə vergi inzibatçılığının təkmilləşdirilməsi, həmçinin vergi yükünün optimallaşdırılması nəticəsində əvvəlki illərə nisbətdə dövlət büdcəsinə vergi daxilolmaları müəyyən dərəcədə artmışdır. Günümüzdə torpaqlarımızın işğaldan azad olması və həmin ərazilərdə səmərəli və optimal dövlət vergilərinin və rejimlərinin tətbiq edilməsi büdcəyə daxilolmalarının artırılmasında xüsusi rola malik olacaqdır.
Sonda respublikamıza dövlət büdcəsinə vergi daxilolmaların artırılması imkanlar göstərilmiçşdir. Bu imkanlardan biri də tranzit nəqliyyat yollarının çəkilməsidir. Bundan əlavə büdcəyə vergi daxilolmalarının artırılması imkanlarindan biri kimi yeni iş yerlərinin açilması və dövlət tərəfindən sahibkarliğa verilən dəstək və bu dəstəy nəticəsində əhalinin işlə təmin edilməsi qeyd edilmişdir.

**Açar sözlər: ÜDM, dövlət vergiləri, vergi daxilolmaları.**

# Azərbaycanda Kiçik və Orta Biznesin İnkişaf İstiqamətləri

**Təranə İsmayılova**
**Azərbaycan Dövlət Aqrar Universiteti**

**Xülasə**

Müasir dövrümüzdə yeni iqtisadi münasibətlərə keçid şəraitində mükəmməl bazar mühitinin yaradılmasının başlıca amillərindən biri sahibkarlığın formalaşdırılması və inkişaf etdirilməsidir. Hər bir sahibkar öz mənfəətini maksimallaşdırmağa çalışır. Onun maddi sərvəti işinin, yaxud firmasının gətirdiyi gəlirdən asılıdır. Özü üçün mənfəət əldə edərək sahibkar həm də cəmiyyətə zəruri olan mal və xidmətlər istehsal edir, yeni bazarlar, yeni iş yerləri yaradır və mövcud olanları saxlayır, başqalarının yaratdığı mal və xidmətlərin istehlakçısı kimi çıxış edir və müvafiq vergilər ödəyir. Deməli, ölkədə, gəlir əldə etməyə cəhd edən sahibkar nə qədər çox olarsa, cəmiyyətdə bir o qədər varlı olar. Cəmiyyətdə sahibkarkarların fəaliyyətinin genişlənməsi həm iqtisadi fəallığı artırır həm də bazarda rəqabət qabiliyyətinin artmasına səbəb olur. Sosial yönümlü bazar iqtisadiyyatına keçid şəraitində sahibkarlıq ölkənin ümumi sosial-iqtisadi vəziyyətinə əlverişli təsir göstərir. İqtisadiyyatın dövlət sektorunun alternativi kimi çıxış edərək, o, rəqabət mühitinin formalaşmasına səbəb olur, əlavə iş yerləri yaradır və beləliklə də, cəmiyyətdə sosial gərginliyi azaldır.Sosial gərginliyin azaldılması sahibkarlıq fəaliyyətinə müsbət cəhətdən yardımçı olur.Cəmiyyətdə istər kiçik istərsı dı iri sahibkarlıq fəakiyyətinin genişlənməsi bazar iqtisadiyyatı şəraitində cəmiyyət üzvlərinin bazara olan tələbatını qarşılamağa imkan verir.

**Açar sözlər: Biznes münasibətləri, sahibkarlıq, rəqabətqabiliyyətli.**

**Qiymətli Kağızlar Bazarının Dövlət Tənzinlənməsi Mexanizminin Tətbiqi**

**Gəray Musayev**
**Kamran Ağazadə**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Qiymətli kağızlar bazarı sərbəst vəsait cəlb etmək üçün bir vasitədir. Kapitalın formalaşması üçün şirkətin bir neçə mənbəyi var: öz kapitalı, bölüşdürülməmiş mənfəət,amortizasiya və cəlb olunan mənbələr. Qiymətli kağızlar bazarının əsas vəzifələrindən və xüsusiyyətlərindən biri iqtisadi fəaliyyət miqyasının yenidən təşkili və genişləndirilməsi məqsədilə əmanətçilərin fondlarının strukturlaşdırılmasıdır. İkinci ən vacib funksiya, bazardakı hər hansı bir dəyişikliyin istifadəçilərə və investorlara elan ediləcəyinə qədər azaldılan məlumat məzmundur. Səhmlərin qiymətindəki enmə bu seqmentdəki işgüzarlığın azaldığını göstərir. Buradan belə çıxır ki, fond bazarının mövqeyi ölkənin gələcək vəziyyətini göstərir. Qiymətli kağızlar bazarı ilə iqtisadi xüsusiyyətlər arasındakı əlaqə iştirakçıların iqtisadi sahədəki müəssisənin gələcək fəaliyyətini proqnozlaşdırmağa çalışdığına görə yaranır, buna görə də lazımi məlumatları daim analitik axtarırlar.
Qiymətli kağızlar bazarında investisiyaların yenidən bölüşdürülməsi var. Bunun vasitəsilə kapital əsasən yüksək gəlirlilik sayəsində ən yüksək gəlirliliyi təmin edən sahələrə köçürülür. Qiymətli kağızlar dövriyyəsinin fond birjalarında və peşəkar vasitəçilərlə cəmləşməsi investisiya prosesini sürətləndirir. Qiymətli kağızlar bazarı ictimai-siyasi vəziyyətdəki dəyişikliklərə cavab verən maliyyə barometri rolunu oynayır. Dövlət və korporasiyalar səhm əməliyyatları yolu ilə milli iqtisadiyyatın struktur yenidən qurulmasını həyata keçirirlər. İkinci qiymətli kağızlar bazarını və xüsusən inkişaf problemlərini nəzərdən keçirin. Əsas problemi minimal aktivlik, aşağı inadkarlıq və spekulyativ fəaliyyətə meyldir. Azərbaycan Respublikasında ikinci dərəcəli qiymətli kağızlar bazarı zəif qanunvericilik bazası və işləməsi üçün aydın olmayan qaydalar səbəbindən yavaş-yavaş inkişaf edir. Müəyyən bir zamanda qüvvədə olan qanunlarda, ehtiyac duyulan və investor maraqlarını qorumalı olan normalar mövcud deyil. Təqlid qiymətli kağızlar ilə real qiymətli kağızlar arasındakı sərhəd çox bulanıqdır, fond bazarında iştirak edənlər üçün qaydaları pozduqlarına görə cəzalar yoxdur və əksər hallarda heç qaydaları belə yoxdur.

**Açar sözlər: Qiymətli kağzılar bazarı, dövlət tənzimləməsi, qiymətli kağızlar bazarının infrastrukturu.**

# Trade and Trade Policies in The Eurasian Economic Union Countries: Advantages, Disadvantages, Challenges in Member Countries

**Zaka Akbarov**
**Azerbaijan State Economic University**

**Abstract**

Eurasian Economic Union ( EAUE) is form of economic integration which covers five countries. There are Russian Federation, Kazakhstan, Belarus, Kyrgyzstan and Armenia. In general, this union serves 183,3 million people . The territory of this union equals to over 20 million sq.km which is 14% of the world's firm land.

Member countries get various advantages from this economic union. All member countries use same custom tariff and these tariffs influence the welfare of nations positively. So business finds easier vast markets, workforces can move more comfortable, people can purchase cheaper merchandise, etc.

Tariffs give a price advantage to locally-produced goods over similar goods which are imported, and they raise revenues for governments.

At the same time, some disadvantages exist and it prevents to increase the number of members, whereas members can be more than current beings**.**

**Keywords: EAUE, Russian Federation, Kazakhstan, Belarus.**

# Azərbaycandakı Təhsil Xidməti Sektorunun Mövcud Vəziyyətinin Təhlili

**Nail Mikayılov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Qlobal səviyyədə təhsil davamlı iqtisadi, sosial və insan inkişafının əsas amili kimi qəbul edilir. Bu baxımdan, təhsil, bir ölkənin ixtisası, texnoloji tərəqqisi və insan resurslarından istifadə etmə bacarığını əldə etmək yolu ilə potensialı və inkişaf bacarıqlarını strukturlaşdıran əsas elementdir. Məqalədə təhsil xidmətlərinə və onların keyfiyyətinə dair məsələlərə toxunulur. Eyni zamanda təhsil xidməti Azərbaycanda günü gündən inkişaf etməkdə və daha ixtisaslı kadrlar yetişdirməkdə mümhim rol oynayır. Biz təhsil xidmətini ibtidai formada almağa başlamışıq. Bunun ölkəmizdə orta təhsil, peşə təhsili və ali təhsil olaraq kateqoriyalandıra bilərik. Bunlarla yanaşı biz məqaləmizdə qeyri-formal təhsildən geniş danışacağıq. Azərbaycanda təhsil müəssisələrini ən geniş forması universitetlər və tədris mərkəzləri  kimi düşünə bilərik. Bu xidmətin də daha keyfiyyətli təqdim olunması üçün düzgün menecment sistemini qurmaq lazımdır. Biz təhsil xidməti müəssisələrində menecment sisteminin qurulması deyəndə, sistemli idarəetməni əsas ələ alacağıq. Bu iş ilk öncə düzgün kadr axtarışından başlamış, cəmiyyətin ehtiyacına uyğun fənnlərin tədrisi və onların metodiki göstəricilərini hazırlamaqdır. Düzgün təhsil xidməti üçün ilk öncə ələ alacağımız hissə, kadr heyəti olacaqdır. Tədrisdə mühim göstərici müəllimin sahəsi üzrə elmi və praktiki biliklərinə və təlimçilik qabiliyyətinə diqqət yetiriləcəkdir. Daha sonra bizim üçün mühim olan məsələ hansı fənnlərin tədrisi və o fənnlərin bu günki təcrübəyə nə qədər uyğunluğunu gözdən keçirməyə çalışacağıq. Güclü iqtisadiyyat üçün bizə yüksək hazırlıqlı mütəxəssislər lazımdır. Bu mütəxəssislərin hazırlığı elə bu cür peşəkar təhsil xidmətlərindən keçir. Daha sonra qeyri-formal tədrisin əhəmiyyəti və bunun üçün tətbiq olunan qeyri-formal təhsilin İSO29990 standartı barədə qısa bir məlumat verəcəyik.

**Açar sözlər: Təhsil, təhsil xidməti, təhsil sistemi, ali təhsil, qeyri-formal təhsil.**

# International Efforts to Expand Universal Access to Education in The Global South

**Aydin Aghayev**
**Norwegian University of Science and Technology**

**Abstract**

Education has started to be more wide-spread and more accessible in the globalized world. Goals of educational organizations are to solve gender parity problem in education and rise the quality of education in Global South. Gender discrimination problem and the importance of enrollment of female participants to education is the greatest problem of education. Moreover, the article also gives information about the education models that were introduced by several organizations.

**Keywords: UNESCO, education, investition, Global South, gender parity.**

## Development of Agrotourism Application in Ganja-Gazakh Economic Circle

**Jeyhun Musayev**
**Baku Business University**

**Abstract**
Azerbaijan has its geographical position, nature, history, and material-moral resources dating back hundreds of years. Therefore, there shouldn't be any problem for the development of agro tourism. Local citizens should be properly mobilized in this direction, and regional centers should be established for the development of agrarian tourism in each economic region. At the same time, special stimulating credit conditions should be created in the banking sector to build local small agro businesses in the regions. In this regard, the problem of self-financing of the regions will be eliminated and the dependence of the regions on the state budget can be minimized.
Tourism is one of the most potentially developing sectors of the non-oil sector in the Republic of Azerbaijan in a modern market economy. Since independence, the state has shown great interest in various areas of tourism in any part of the country, and the geographical location and climate zone of Azerbaijan is suitable for any type of tourism. As the youngest and most developed type of tourism in recent years, it is in the interest of the state in the field of agro-tourism. This type of tourism has been used and developed in many foreign countries for over a century.
Ganja-Gazakh economic region, the second largest economic region of Azerbaijan, is suitable for any field of tourism in terms of its economic and geographical location. For this reason, the main purpose of the study is to ensure the application of agritourism in the Ganja-Gazakh economic region and to study the issues of educating the population in this region in the field of tourism.

**Key words: Development of agro-tourism, regional potential, experience of agro-tourism in the world, financing of regions.**

**Müsir Şəraitdə Auditor Fəaliyyətinin Nəzəri və Metodoloji Əsasları**

**Əhilman Xəlilov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
İqtisadi idarəetmə sistemində xüsusi əhəmiyyət kəsb edən elementlərdən uçot və nəzarət bazar iqtisadiyyatında aktual xarakter daşıyır. Auditor xidmətin formalaşma prosesi maliyyə və uçot sisteminə dövlətin və özəl sektorun qarşılıqlı maraqları təşkil edir. Dünya təcrübəsinə əsasən iqtisadiyyatı inkişaf etmiş ölkələrdə sahibkarla yanaşı dövlətin əmlaka dair maraqlarının təminatı müəssisələrin maliyyə fəaliyyətinə nəzarət prosesi auditorların azad fəaliyyətinə zəmin yaradır. Audit iqtisadi-hüquqi nəzarətin ən yüksək pilləsidir. Auditin qarşısında duran öhdəlik yeni yaradılmış iqtisadi münasibətləri təhlükələrdən qorumaq, iqtisadiyyatda baş verən hüquq pozuntularına mane olmaq və ictimai hüquq şüurunu yüksəltməkdir. Müəssisənin maliyyə vəziyyəti haqqında informasiya və qanuni əmlak maraqlarının qorunmaq məqsədi ilə zəruri informasiya əldə etmək auditin vəzifələrindən biridir. Auditin təşkili muhasibat hesabatının müstəqil şəkildə yoxlanılmasını və digər auditor xidmətlərin göstərilməsi sahibkarlıq fəaliyyətini əks etdirir. Auditor xidmətin hüquqi tənzimlənməsi prosesi qeydiyyat, sənədləşdirmə vasitəsilə gerçəkləşdirilir. Bir çox təsərrüfat fəaliyyəti ilə məşğul olan müsəssisələrdə qanuni aktların hazırlanması, maliyyə pozuntularına qarşı olan nəzarət autin əsas öhdəliklərindəndir. Auditorun təsdiqlənmiş sənədlərə əsasən peşə bacarığı olmalıdır. Bu səbəbdən auditor fəaliyyətinin təşkil edilməsi, onun təkmilləşdirilməsi böyük aktuallıq kəsb edir.

**Açar sözlər: Audit, bazar iqtisadiyyatı, auditor xidmət, istehsal prosesi.**

# Effect of the Internal and External Factors on E- Impulse Buying

**Woohee Park**
**Bilkent University**

**Abstract**

The main objective of this thesis is to examine the internal and external factors affecting online impulse buying of consumers in Turkey and South Korea. Factors influencing online impulse buying are classified as internal and external. External factors include promotion, price, security and visual appeal of the website, as well as navigability. Internal factors, on the other hand, consist of the mood, urge to buy impulsively and impulse buying tendency of the consumer. In this framework, this thesis developed a model which was applied for a survey undertaken in Ankara, Turkey and Busan, South Korea on consumers with experience in online shopping. The survey found that in the case of Turkish consumers, external factors such as price and promotion positively influence online impulse buying. The survey also showed that internal factors such as the urge to buy impulsively as well as impulse buying tendency have a positive influence on online impulse buying in Turkish consumers. In the case of South Korea, the survey found that external factors such as promotion, navigability play an important part in the online impulse buying of Korean consumers. As for internal factors affecting online impulse buying in South Korea, the survey produced similar results as in the case of Turkey accept mood factor. like the urge to buy impulsively, mood and impulse buying tendency positively influence online impulse buying of Korean consumers.

**Keywords Marketing, consumer behaviour, E- impulse buying, South Korea, Turkey.**

# İdarəetmə İnformasiyasının Mahiyyəti, Mənbəyi və Məqsədi

**Mətanət Əliyeva**
**Azərbaycan Dövlət Aqrar Universiteti**

**Xülasə**
Mövzuda idarəetmə sisteminin ən vacib xüsusiyyətlərindən biri olan məlumatların idarə olunmasından bəhs edilir. Hər hansı bir şəraitdə, biznes fəaliyyətində, idarəetmə uçotunda kompyüter sisteminin vacibliyinin önə çəkilməsi müasir dövrdə əsəs anlayışlardandır.
İnformasiya idarəetmə sistemi planlaşdırma, nəzarət, qərarvermə funksiyalarının və qərarvermənin təhlili, eləcə də, modelləşdirmə kimi müxtəlif aspektlərin yerinə yetirilməsi üçün menecerlərə praktiki tədbirlərin vacib olduğu xüsusi hallar üzrə hesabatlar, təhlillər, həmçinin, digər məlumatların da daxil olduğu verilənlər və məlumatları hesabat şəklində təmin edən sistemdir. [ İdarəetmə uçotu - ACCA (F2), 2016 ]. Müəssisələr idarəetmə informasiya sistemi nəticəsində toplanan bütün məlumatları menecerlərə təqdim etməlidir.Müəssisənin mühasibat sistemi ümumi idarəetmə sisteminin ayrılmaz hissəsidir. Bütün verilənlər toplanılır və informasiya şəklində təhlil olunur. Beləliklə informasiyalar müəssisədə menecerlərin vaxtında, tam və dəqiq məlumat əldə etməsinə kömək edir. Strukturundan asılı olmayaraq menecerlər idarəetmə informasiya sisteminin formalaşdığı müəssisələrdə məlumatları və hesabatları yazılı şəkildə kompüterləşmiş sistemə daxil edilməsi əsasında fəaliyyət göstərirlər. Mühasibat sistemləri informasiya sisteminin əsas təkmilləşmiş hissəsi olub. [ İdarəetmə uçotu - ACCA (F2), 2016 ]. İdarəetmə informasiya sistemi daha geniş məfhumdur və mühasibat məlumatları ilə müqayisədə daha çox məlumatı özündə birləşdirir. Sistemləşdirilmiş idarəetmə uçotu menecerlərə lazımi bütün məlumatların verilməsi üçün mövcud resursları bir yerə yığır. Biznes şəraitində bütün idarəetmə uçotunu həyata keçirmək, idarəetmə qərarlarını vermək eyni zamanda gələcək inkişafı proqnozlaşdırmaq üçün idarəetmə uçotunun məlumatları əsas mənbə hesab olunur.

**Açar sözlər: Nəzarət, informasiya idarəetmə sistemi, menecer, biznes.**

# Müəssisənin Satış Fəaliyyətinə Marketinq Kommnikasiyalarının Tətbiqi Xüsusiyyətləri

**Hacıəli Vüsal**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Son illərdə Azərbaycanda marketinqin artan rolu ilə yanaşı marketinq kommunikasiyalarının da əhəmiyyəti artmışdır. Yaxşı məhsul və xidmətlər kifayət deyildir. Satışlarını artırmaq və mənfəət əldə etmək üçün məhsul və xidmətlərdən istifadənin üstünlüklərini istehlakçılara çatdırmaq lazımdır.
Marketinq əlaqələri şirkətlərin məhsul və xidmətlərini hədəf auditoriyası üçün cəlbedici etmək üçün istehlakçılara mesajların ötürülməsini təmin edir. Effektiv müştəri rabitəsi istənilən təşkilat üçün əsas uğur amillərinə çevrilmişdir.
Müasir marketinq yaxşı bir məhsul yaratmaqdan, ona cəlbedici və ya ədalətli bir qiymət təyin etməkdən və hədəf alıcılara təqdim etməkdən daha çox şey tələb edir. Hazırkı məkalədə konkret secilmış firmanın ("Kontakt Home") marketinq kommunikasiya siyasəti təhlil edilmiş, əsas problemlər müəyyən edilmiş, onların həlli yolları araşdırılmış, bu firmanın marketinq kommunikasiya siyasətinin həyata kecirilməsi istiqamətində praktiki əhəmiyyətli tækliflər verilmişdir.

**Açar sözlər: Reklam, PR. , şəxsi satış, satışın stimullaşması, kommunikasiya.**

# Müəssisənin Kredit Reytinqi və Onun Təchizat Zənciri Qərarlarına Təsirinin Tədqiqi

**Fatimə Mustafayeva**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Məqaləni yazmaqda məqsəd müəssisələrin təchizat zənciri qərarlarına təsir edən bir faktor kimi kredit reytinqinin təhlil olunmasıdır. Məqalədə ilkin olaraq müasir dünyamızda həm böyük korporasiyaların, həm də kiçik və orta ölçülü müəssisələrin rəqabət şəraitində öz fəaliyyətlərini davam etdirə bilmələri üçün təchizat zənciri məsələlərinə xüsusi diqqət ayırmalı olduqlarından, eləcə də kredit reytinqinin müəssisələrin təchizat zənciri üçün əhəmiyyətindən bəhs olunur. Daha sonra isə ardıcıl olaraq kredit reytinqi anlayışından, onun müəyyən olunması metodlarından danışılır. Burada kredit reytinqinin müəyyən olunması metodologiyası kimi nüfuzlu reytinq agentliklərindən biri olan Standard&Poor's-un reytinq metodologiyası qeyd olunmuşdur. Həmin metodologiya vasitəsilə də seçdiyimiz müəssisənin 5 il üçün kredit reytinqi müəyyən olunmuşdur. Məqalədə göstərilmiş metodologiya ilə müəssisənin kredit reytinqi müəyyən olunduqdan sonra onun kredit reytinqinin təchizat zənciri qərarlarına təsirini tədqiq etmək məqsədilə onlar arasındakı korrelasiya əmsalı hesablanmışdır. Bunun üçün də müəssisənin son beş il üçün kredit reytinqi və kreditlə aldığı malların yerli valyuta ilə dəyəri istifadə olunmuşdur. Burada kredit reytinqi müstəqil dəyişən, kreditlə alınan malların yerli valyuta ilə dəyəri isə asılı dəyişən kimi istifadə olunmuşdur. Burada məqsəd müəssisənin kredit reytinqi dəyişdikcə onun kreditlə xammal və məhsul təchizatının necə dəyişdiyini yoxlamaqdır.

**Açar sözlər: Kredit reytinqi; kredit riskləri; təchizat zənciri; maliyyələşmə.**

# Основные Направления Инновационного Совершенствования Экономических Методов Разработки Системы Менеджмента Качества Непродовольственных Товаров

**Эльнара Мамедзаде**
**Азербайджанский Государственный Экономический Университет**

**Резюме**
Данная статья посвящена изучению концепции инновационного обеспечения управления качеством производимой непродовольственной продукции, которая играет решающую роль в освоении предприятия на внешнем и внутреннем рынках, а также обеспечивает конкурентоспособность на всех стадиях производства с наилучшими показателями качества. Рассмотрена закономерность этапов развития инновационного обеспечения качества, дано графическое описание процесса создания продукции на основе этого подхода, а также установлена стадия воспроизводства инвестиций фирмы-производителя. Выделены границы инноваций и содержание теории инновационного обеспечения УКП. Выявлены базовые принципы построения данной теории, такие как принцип маркетинга, принцип партнерской взаимосвязи, потенциал предприятия и др. названы основные методы УКП, изложена математическая последовательность свойств и характеристик продукции, раскрыт пошаговый способ оценивания коэффициента весомости. Описан анализ расхода предприятия на качество. Доказана возможность повышения стоимости и оборота товарообмена при высокой затрате на качество продукции. В целях раскрытия темы, были применены такие методы, как системный анализ, экспертное оценивание, логическое обобщение. Выводы в конце статьи позволяют использовать теоретическую основу системного и профессионального подходов к формированию и поддержанию надлежащего уровня качества на всех этапах жизненного цикла продукции непродовольственной отрасли. Предприятия смогут целенаправленно применять инновационное обеспечение в УК, а также придерживаться описанной тенденции самооценки качества и технологии внутреннего и внешнего аудита. Это приведет к стабильному росту сбыта, прибыли, рентабельности и, в итоге, положительному характеру производства, уменьшению затрат.

**Ключевые слова: Инновационные методы, непродовольственные товары, эффективность, управление качеством.**

# Loqistik Reqressiyanın Azərbaycanın Maliyyə Bazarları və Banklarında Kredit Dəyərləndirilməsi Modellərinə Tətbiqi

**Fərid Cəfərov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

2015-ci ildə neft qiymətlərinin kəskin düşüşü neftdən asılı iqtisadiyyata malik olan Azərbaycan üçün böyük iqtisadi sıxıntılar ilə nəticələndi. Valyutada devaluasiyaya gedilməsi, ixrac məbləğinin azalması nəticəsində ölkədə iqtisadi resessiya dövrü başlamışdır. İqtisadi resessiyanın ən çox təsir etdiyi sahələrdən biri də bank sektoru idi. Kredit bazarında fəaliyyət göstərən müəssisələr bu tipli problemlərin həlli üçün müasir riyazi modellərin tətbiqi ən yaxşı seçimlərdən biridir. Tədqiqatın mövzusu dirçəlməyə çalışan iqtisadiyyatın problemli hissələrinin araşdırılması baxımından aktual mövzudur. Bu məqalənin əsas məqsədi loqistik reqressiya modelinin tətbiqi addımlarına baxmaq və Azərbaycandaki aidiyyatı təşkilatlar üçün istifadə edilə biləcək loqistik reqressiya modeli qurmaqdır.

**Açar sözlər: Kredit skorinq, maliyyə modelləşdirilməsi, loqistik reqressiya.**

# Azərbaycan İdarəetmə Sistemində Yapon İdarəetmə Fəlsəfəsinin Tətbiqi İmkanlarının Tədqiqi

**Nurlan Rəsulov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

İdarəetmə sistemində innovativ yeniliklərin tətbiqi və idarəetmənin səmərəliləşdirilməsi hazırki dövrdə ən unikal məsələlərdən biri hesab edilir. Çünki, artıq son dövrlərdə dünyada innovasiya və yeniliklərə ayaq uydurmaq əlavə dəyər yox zərurət kimi qəbul edilməyə başlamışdır. Hazırda dünyada idarəetmə sistemi dedikdə ilk olaraq Qərb idarəetmə məktəbi və yapon idarəetmə məktəbi ağla gəlir. Yapon idarəetmə modeli bir çox xüsusiyyətlərinə görə dünyada unikal bir model hesab edilir və bu məktəbin bir çox idarəetmə metodları bütün dünyada araşdırılaraq tətbiq imkanları təhlil edilmişdir. Hazırda dünyanın bir çox ölkəsində müxtəlif korporasiyalar yapon idarəetmə fəlsəfəsini öz yerli təşkilatlarında tətbiq etməyə çalışırlar. İdarəetmənin yapon modeli eyni zamanda bir çox Qərb tədqiqatçıları tərəfindən də araşdırılır və tətbiq imkanları öyrənilir. Başda Toyota olmaqla bir çox qlobal təşkilat yapon idarəetmə sisteminin tətbiqinin faydalarını çoxdan görməyə başlamışdır. Toyota şirkətinin hazırda qazandığı uğurların böyük əksəriyyəti məhz bu fəlsəfə ilə əlaqələndirilir. Beləliklə, bu məqalədə dünyada ən geniş yayılmış yapon idarəetmə fəlsəfəsi olan kaizen fəlsəfəsinin ölkəmizdə yerli təşkilatlarda tətbiq imkanları araşdırılacaqdır.

**Açar sözlər: Menecment, idarəetmə, yapon idarəetmə modeli, innovasiya.**

# Improving the Economic Efficiency of the Use of Land and Water Resources in the Agricultural Sector

**Fuad Jafarli**
**Azerbaijan State Agricultural University**

**Abstract**
The paper analyses the situation in our daily life, in which the proportion of the worldwide countries are dealing with the problem related to the efficiency of natural resources. The paper clearly defines the terminology of the efficient usage of land and water resources. In addition, the paper explores the socio-economic impact on land and water resources. Furthermore, the paper indicates the ways of improvement the economic efficiency by various tools, in particular in the agricultural sector. In the second part of the paper, the author describes the distribution of the total land fund by purpose in the terms of land resources, and the protection and use of water resources within the territory of Azerbaijan Republic. Paper argues that, it will be important for Azerbaijan to continue the policy of rational and efficient usage of natural resources in the agricultural sphere. It will boost long-term impact of resources and increase the total economic impact.

**Keywords: Land, water, natural resources, economic efficiency, Azerbaijan.**

## Azerbaycanda Yüksek Eğitim Kurumlarında Kıyaslama Perspektiflerinin Belirlenmesi

**Aytac Hüseynova**
**Azerbaycan Devlet İktisat Üniversitesi**

**Özet**

Kıyaslama diğer kurumlarda olduğu gibi, eğitim kurumlarında da başarılı bir teknik olarak kullanılabilir. Eğitim kurumları hızlı değişen dünyayla uyum sağlamalı ve onun şartlarını uygulaya bilecek düzeyde olmalıdır. Bunun için en pratik teknik olarak kıyaslamanı göstere biliriz. Biz çalışmamızda eğitim kurumlarındakı kıyaslama perspektifleri ile alakalı bir sıra problemleri ele almış durumundayız. Genel olarak çalışmada aşağıdaki sorunlar araştırılmıştır: Azerbaycanda faaliyet gösteren yüksek eğitim kurumlarında kıyaslama teknikleri uygulanıyor mu? Ülkemizdeki yüksek eğitim kurumlarının hangi sektörlerinde kıyaslama tekniğinin kullanılmasına ihtiyaç vardır? Azerbaycanda faliyyet gösteren yükseköğretim kurumları arasında kıyaslama tekniği nasıl uygulana bilir? Ülkemizdeki yüksek eğitim kurumları ile yurtdışındaki yüksekeğitim kurumları arasında kıyaslamanın hangi türünün kullanılması ülkemiz için daha verimli ola bilir? Ülkemizdeki yükseköğretim kurumları diğer başka kurumlarla da kıyaslama yapa bilirmi? Ve Ülkemizdeki yükseköğretim kurumlarının yöneticileri, çalışanları ve öğrencilerinin kıyaslama ile ilgili bakış açıları nasıldır?

Çalışmadakı sorunlar nicel araştırma yöntemleri ile araştırılmıştır. Biz çalışmamızdakı sorunları anket araştırma yöntemi ile araştırdık. Daha sonra yapılan anket sonuçlarının güvenirlik analizleri, korelasyon analizi ve regresyon analizi SPSS programı kullanılarak değerlendirilmiştir. Yapılan araştırma sonucunda kıyaslama tekniğinin uygulanması ile şu sonuçlara varılmıştır: Değerlendirme ve analizleri karşılaştırıcı şekilde gözönüne aldığımızda kıyaslama objektivliği arttıracak, özellikle de ölçme ve değerlendirmenin yeterince zor olduğu eğitim kurumlarında, kıyaslama tekniği ile önemli başarılar elde edilecektir; Kıyaslamanın "keşfedilmiş olanı yeniden keşfetmeye gerek yoktur" mantığıyla başka örgütler tarafından kullanılmış uygulamalar, yüksek eğitim kurumlarını gerçekçi sonuçlara götüre bilecektir. Bu araştırma ile kıyaslama tekniğinin kurumsal boyutu oluşturulacak ve Azerbaycanda kullanılmaya uygun kıyaslama tekniği geliştirilecektir. Bütün bunların yüksekeğitim kurumlarının gelişimine katkı sağlayacağı öngörülmektedir.

**Anahtar Kelimeler: Kıyaslama, benchlearning, benchaction.**

**Mövzu: “Kapital bank”ın Balansının və Maliyyə Nəticələrinin Müqayisəli Təhlili**

**Nurlanə Salamova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
"Kapital Bankın balansının və maliyyə nəticələrinin təhlili" məqaləsində 2019-cu il ilə müqayisədə 2020-ci ildə Kapital Bank ASC-nin artım templəri və strukturundakı dəyişikliklər təhlil edilmişdir. Qeyri-sabit iqtisadi vəziyyətdə Kapital Bankın bazardakı mövqeyinin sabitliyi aktivlər, öhdəliklər, kapital və maliyyə nəticələrinin təhlili ilə araşdırılmışdır. COVİD-19 nəticəsində dünyada yaratdığı həm təbii, həm də iqtisadi problemlərin mənfi təsirləri nəticəsində qeyri-stabil bazarda Bankın mövqeyini necə dəyişməsi, bu sahədə olan dəyişikliklərə dərhal reaksiya vermək qabiliyyəti araşdırılmışdır. 2020-ci il ilə 2019-ci il arasından aktivlər və öhdəliklərdə mütləq fərq, inkişaf tempi hesablanmış, strukturda baş verən artım və dəyişikliklər təhlil edilmişdir. Hə iki il üzrə kapitalın təhlilinə xüsusi diqqət yetirilmişdir. Kapitalın yaranama mənbələri 2020-ci ildə baş verən artım və azalmalar, yaranma mənbələrinin üstünlükləri və əksiklikləri qeyd edilmişdir. 2019 və 2020-ci illərin Mənfəət nəticələri haqqında hesabatlarının təhlili zamanı faiz gəlirləri və faiz xərcləri araşdırılmışdır, inkişaf tempi təhlil edilmişdir. Faiz gəlirləri və Faiz xərcləri onlar arasında asılılıq təhlil edilmişdir. Bundan əlavə 2019 və 2020-ci illərin qeyri-faiz gəlirləri və qeyri-faiz xərcləri araşdırılmışdır, inkişaf tempi təhlil edilmişdir. Faiz gəlirləri və Faiz xərcləri onlar arasında asılılıq təhlil edilmişdir. Həm faiz həmdə qeyri-faiz gəlirləri arasında əlavə və üstünlükləri araşdırılmışdır. Xalis mənfəətdə baş verən dəyişiklik və yaranma mənbəyi təhlil edilmişdir.

**Açar sözlər: Maliyyə təhlili, “Kapital bank”, aktivlər, öhdəliklər, kapital, maliyyə hesabatları.**

# Ölkə Ərazilərinin İşğalı Nəticəsində Azərbaycanın Dövlət Büdcəsinə Azalan Daxilolmaların İqtisadi Cəhətdən Əsaslandırılması

**İlkin Əliyev**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Məqalədə ölkə ərazilərinin işğalı nəticəsində Azərbaycanın dövlət büdcəsinə azalan daxilolmaları iqtisadi cəhətdən əsaslandırılmışdır. 1993-cü ildən sonra da Azərbaycan Respublikasının digər əra¬zilərində 250-yə qədər yeni faydalı qazıntı yataqları aşkar¬lan¬dığı və bir sıra yataqların istis¬ma¬rından Dövlət büdcəmizə real gəlirlər daxil olduğu halda, 30 ildir ki, Azərbaycan tərəfi işğal əraziləri və 70 km-lik münaqişə zolağı boyu geoloji tədqiqatlar aparmaqdan və işğal altındakı ərazilərdəki zəngin mineral-xammal bazasından iqtisadi inkişafı naminə böyük gəlirlər əldə etməkdən məhrum olmuşdur. Uzun müddət işğal altında qalan Qızılbulaq, Vecnəli, Söyüdlü (Zod) qızıl filizi yataqları istismara cəlb oluna bilməmiş, bunun nəticəsində qızılçıxarma sənayesi infrastrukturunun yaradılması, planlı hasilatın aparılması işləri pozulmuş, respublikanın etibarlı qızıl fondu yaradıla bilməmişdir. Məqalədə Azərbaycanın postmüharibə dövründəki yeni hədəfləri ilə bağlı strateji proqram həyata keçirilməsi və Azərbaycanın gələcək inkişafını təmin etmək baxımından ölkə ərazilərinin işğalı nəticəsində iqtisadiyyata dəymiş ziyanın öyrənilməsi istiqamətləri haqqında nəzəri fikirlər qeyd edilmişdir. İşğal olunmuş ərazilərin iqtisadi potensialının əsas parametrləri ilə bağlı da məqalədə fikirlər yer almışdır. Məqalədə tədqiqatı davam etdirməklə sonrakı mərhələdə dövlət büdcəsinə daxilolmaların analitik və diferensial təhlilini aparmaqla fiziki şəxslərin gəlir vergisi üzrə itkiləri, mənfəət vergisi üzrə itkiləri, torpaq vergisi üzrə itkiləri, əmlak vergisi üzrə itkiləri, sosial sığortaya ayırmalar üzrə itkiləri hesablayıb və dəqiq rəqəmin müəyyənləşdirilməsi nəzərdə tutulmuşdur.

**Açar sözlər: Büdcə, daxilolmalar, Qarabağın iqtisadiyyatı, biznes.**

# Müəssisələrdə Resursların Planlaşdırılması (ERP) Sisteminin Tətbiqinin Mümkünlüyü və İnkişaf Yolları

**Şəfiqə Rəsulzadə**
**Bakı Mühəndislik Universiteti**

**Xülasə**

Günümüzdə bir müəssisənin informasiya texnologiyalarından kənarda qalması ağlasığmazdır. İş proseslərinin yenidən qurulmasına, yeni strategiyaların hazırlanmasına və işdə tətbiq olunmasına kömək edən məlumat vasitələrindən biri Nəzəri Resurs Planlaşdırma (ERP) tətbiqetmələridir. Resurs Planlaşdırması müəssisə daxilində həyata keçirilən planlaşdırma; insan resursları; satış; alış; inventar idarəsi; istehsalın idarə edilməsi, paylanması, göndərilməsi; maliyyə idarəetməsi; çoxsaylı anbar; çox fabrikli quruluş; beynəlxalq fəaliyyətlər və s. arasında inteqrasiya qurmaq kimi vacib və çətin bir işi öz üzərinə götürür. Bu araşdırmada, 1990-cı ilin sonunda bazara girən Müəssisə Resurs Planlaması tətbiqinin Türkiyədə Şüşə sənayesində fəaliyyət göstərən bir şirkətdə layihədən əvvəl və sonra, maliyyə ölçüləri müzakirə olunmuş və Müəssisə Resurs Planlaması tətbiqinin şirkətə faydaları aşkar edilmişdir. Aparılan araşdırmalara əsasən müəyyən edilmişdirki, Müəssisə Resurs Planlaması tətbiqinin üstünlükləri bütün funksiyalar arasındakı inteqrasiyanın quruluşdan asılı olmasını təmin etmək şərti ilə görülmüşdür. İş texnologiyası sistemləri şirkətin son iş növünə qədər yeniləyərək müəssisənin qabiliyyətini və iş dəyişikliyini izləyərək, müəssisə strukturu və işçi münasibətlərini əks etdirərək inkişaf etdirir və nəticədə rəqabət üstünlüyü əldə etməyə səbəb olur. Əlavə olaraq qeyd edə bilərik ki, bu sistemlər şirkətin rifahı üçün güclü bir məlumat bazası yarada bilən intellektual kapitalın yaradılması ilə inkişaf etdirilir. Bu səbəbdən ERP-ni rəqabət qabiliyyəti üçün istifadə edən təşkilatlar İnsan Resursları fəaliyyətlərini yenidən istiqamətləndirməlidir, çünki bu fəaliyyətlər rəqabət platformasında vacibdir.

**Açar sözlər: ERP, müəssisə resurs planlaması, ERP tətbiqləri, insan resurs idarəetmələri.**

## Potential Challenges in Valuation of Financial Performance of Manufacturing Companies in Azerbaijan

**Farid Mammadov**
**Azerbaijan State University of Economics**

**Abstract**

In this paper readers can get information about potential challenges in valuation of financial performance of manufacturing companies in Azerbaijan. Such problem can create additional challenges for stakeholders in making better decisions. The main challenges are listed in this paper and potential issues analysed. By focusing on cause and effect mindset the reasons, environment analysed by details. Manufacturing industry hold significant role in Azerbaijan economy as well global economy. Defficiency of resoruces, unskilled work force can lead to challenges like errors, fradulent acts. By occuring this issues it made the analysis of financial stataments more cumbersome activity. Thus, this topic will be actual among the financial eco-system in Azerbaijan. Because of this it is important to analyse potential issues in this area. Elements of financial statements analysed and potentia challenges demonsrated oint by Main focus are given to the banks which is one of the stakeholders of manufacturing companies. Examples will be given and at the end recommendations evolved about the topic.

**Keywords: Manufacturing, production, risk, challenges, valuation.**

# Covid-19 Epidemiyasında İqtisadiyyatın Vəziyyəti

**Aysən Fərəcova**
**AMEA İnformasiya Texnologiyaları İnstitutu**

**Xülasə**
Çinin Wuhan şəhərində ortaya çıxan və sürətlə yayılan, dünyaya təsir göstərən COVID-19, cəmiyyətin həyatına və ölkənin iqtisadiyyatına əhəmiyyətli dərəcədə təsir etdi. Ümumdünya Səhiyyə Təşkilatının Baş Direktoru, COVID-19'u 11 Mart 2020-ci il tarixindən etibarən epidemiya elan edərək, virusun yayılma sürətində əhəmiyyətli bir artım olduğunu və səlahiyyətlilərin lazımi tədbirləri görmədiklərini bildirdi. COVID-19 pandemiyası bir sağlamlıq böhranıdır və sağlamlıq böhranı bitənə qədər lazımi tədbirlərin alınması vacibdir. Karantin və ölkələr tərəfindən görülən digər tədbirlər bunun üçün məhdudiyyətlərdir. Bununla birlikdə, sağlamlıq böhranına nəzarət etmək üçün alınan bu tədbirlər iqtisadiyyata mənfi təsir edir. Bu araşdırma, COVID-19 epidemiyası zamanı alınan tədbirlərin ölkənin istehsal səviyyəsinə, əmək bazarına və istehlakına təsirlərini müzakirə etməkdir.

**Açar sözlər: Covid-19, pandemiya, iqtisadiyyat, böhran, istehsal.**

# İşğaldan Azad Olunmuş Ərazilərdə İqtisadi İnkişaf Potensialının Araşdırılması

**Səltənət Oruclu**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Azərbaycanın müstəqilliyi ilə qarşılaşdığı ən vacib problem Qarabağ münaqişəsi olmuşdur. Sovet Sosialist İttifaqı dağıldıqdan sonra regionda Qarabağ və Azərbaycana aid 7 bölgənin (Azərbaycan ərazilərinin 20% - i) Ermənistan tərəfindən işğalı ilə Azərbaycan ilə Ermənistan arasında atəş xəttini təşkil edən münaqişələrin mərkəzinə çevrildi və 1 milyon məcburi köçkün öz yurd yuvasından didərgin düşmüşdür. Lakin yenidən Ermənistan 27 sentyabr 2020-ci il tarixində Azərbaycanda mülki şəxslərə qarşı hücumlara başladı və Azərbaycan öz müdafiəsi hüququndan istifadə edərək öz xalqını və ərazi bütövlüyünü əks həmlə olaraq Ermənistana lazımi cavabı verdi.
İşğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı ilə bağlı dövlət tərəfindən həyata keçirilən tədbirlər, habelə bu bölgələrin iqtisadi potensialı Azərbaycana, xüsusən də qeyri-neft sektoruna yeni yerli və xarici sərmayələrin cəlb olunmasına zəmin yaradacaqdır . İşğaldan azad edilmiş ərazilərin bərpası və inkişafına inteqrasiya olunmuş yanaşmanı təmin etmək üçün tədbirlərin dörd mərhələdə həyata keçirilməsi planlaşdırılır. İlkin mərhələdə idarəetmə və təhlükəsizlik, infrastruktur məsələlərinin həlli, sonrakı mərhələdə sosial xidmətlərin işlənməsi, iqtisadiyyatın yenidən qurulması və inkişafı daxil edilir. Yol nəqliyyatının, kommunal infrastrukturun tikintisi, suvarma və meliorasiya sistemlərinin çəkilməsi, ənənəvi və alternativ enerji istehsalı üçün investisiya layihələrinin həyata keçirilməsində dövlət-özəl tərəfdaşlığın geniş istifadəsi təklif olunur. İqtisadi fəaliyyəti stimullaşdırmaq üçün işğaldan azad edilmiş ərazilərdə xüsusi güzəştli iqtisadi rejim tətbiq etmək vacibdir.
Məqalədə işgaldan azad olunmuş torpaqların iqtisadi potensialı, inkişafı, Azərbaycanın ümumi iqtisadi vəziyyətinə təsiri haqqında bəhs edilir.

**Açar sözlər : Vətən müharibəsi, Qarabağ, iqtisadi amillər, iqtisadi artım, iqtisadi potensial.**

# Vergilərin İqtisadi İnkişafa Təsirinin Tədqiqi: Nizami Gəncəvi İrsindən Baxış

**Nicat Əliyev**
**Azərbaycan Dövlət İqtisad Üniversiteti**

**Xülasə**
Məqalədə dahi mütəfəkkir şairimiz N.Gəncəvinin yaradıcılığındakı nəzəri-iqtisadi ideyaları, cəmiyyətin ictimai iqtisadi quruluşu, əmək, əmək bölgüsü, sərvət və onun mənbələri, bölgü,istehlak məsələləri üzrə özünə məxsus bir tərzdə irəli sürdüyü fikirlərə müraciət olunmuşdur.Davamı olaraq N.Gəncəvinin yaradıcılığındakı fikirlərdən istifadə edərək araşdırmalar aparılmışdır. Məqalədə analiz üçün 1995-2019-cü illərdə ÜDM,mənfəət vergisi, fiziki şəxslərin gəlir vergisi,investisiya,ixrac göstəricilərindən istifadə olunmuşdur. Məlumatlar Dövlət Statistika Komitəsinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəsmi internet saytlarından götürülmüşdür. Hesablamalar Microsoft Excel proqram paketinin köməyilə aparılmışdır.Məhz ölkəmiz nöqteyi nəzərdən birbaşa vergilərin iqtisadi artıma təsirinin tədqiq edilməsi,birbaşa vergilərdəki hər hansı bir dəyişmənin iqtisadi artıma müsbət yoxsa neqativ təsirini müəyyənləşdirmək, bu sahədə təkmilləşdirmə aparmanın yollarını araşdırmaq, beynəlxalq təcrübədəki müsbət cəhətlərin aşkarlanması və bu cəhətlərin ölkəmizin vergi sisteminə uyğunlaşdırılması yollarının aşkarlanmasına cəhddir.

**Açar sözlər: Vergi, iqtisadi artım, korrelyasiya-reqressiya analizi.**

**Finansal Performans Analizi ile İflas Tahmini**

**Emil Gurbanzade**
**Azerbaycan Devlet İktisad Universitesi**

**Özet**

Mali açıdan kıtlıklar ve iflasla ilgili araştırmalar elli yıla aşkın bir süredir derinleşerek devam ediyor. Bu araştırmaların temeli, işletmelerin finansal performanslarını inceleyerek iflas oranlarının veya iflas risklerinin hesaplanmasıdır. Hem mikro hem de makro modeller sonucunda işletmelerin iflas riskini hesaplamak son derece önemlidir. Ek olarak, modelleme ve yapay zeka alanındaki son gelişmeler bununla ilişkin araştırmaların güncelliğini daha da artırmıştır. İflas, mekan, zaman ve diğer faktörlere bağlı olarak çeşitli nedenlerden ortaya çıkabilir. Bu tür değişikliklere hızlı tepki veren hassas bir konu her zaman güncel en son bilgilerle beslenmelidir. İflas tahmininin amacı, bir şirketin mali durumunu ve performans beklentilerini değerlendirmektir. Ayrıca yazımızın temel amacı, Azerbaycan bankacılık sektöründe geleneksel iflas modellerinin incelenmesi ve uygulanması sonucunda bu modellerin doğruluğunu değerlendirmek ve modern modelleme yöntemlerinden olan makine öğrenmesi ve derin öğrenme tekniklerinin ülkemizde ugulanabilirliliyinin değerlendirilmesidir. Araştırma yapmak ve hipotezlerin geçerliliğini araştırmak için Azerbaycan Cumhuriyetinde faaliyet gösteren bankaların raporları, Azerbaycan Bankalar Birliği ve Azerbaycan Cumhuriyet Merkez Bankası raporları kullanılmışdır.

**Anahtar kelimeler: Altman Z skor, finansal performans, iflas tahmini, Springate, makine öğrenmesi.**

# Dördüncü Sənaye İnqilabı – Sənayenin Rəqəmsallaşması

**Yusif Yusifli**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Dördüncü sənaye inqilabı termininin həyatımıza daxil olduğu bir vaxtda, sənayelərdə kadr alımında qiymətləndirmə meyarları bir-birindən mexanizasiya ilə fərqlənir. Bu yeni dövrdə avtomatlaşdırma, ağıllı fabriklər və kiber fiziki sistemlər kimi yeni anlayışlar iş həyatını getdikcə fərqli bir ölçüyə gətirir. Texnologiyalardakı bu formada sürətli irəliləyiş olmasının əmək bazarına nəzərə çarpacaq təsiri də olacaqdır. Ümumiyyətlə isə, bu sənaye inqilabı ilə texnologiyaların bir çox işçilərin yerlərini almağa başlayacağı proqnoz edilsə də, yeni dövrlə bir sıra yeni iş sahələri yaradılacaqdır. Bu period yeni iş sahələrindən başqa, həmçinin mövcud işçi qrupundan gözləntiləri dəyişdirəcəkdir. Bu zaman IV sənaye inqilabı ilə bağlı yeni əmək anlayışı meydana gəlir. Bu şirkətlərdə işəgötürənin personaldan gözləntilərinin hansı formada və nə dərəcədə fərqlənəcəyinə əsaslanır. Bu işin əsas məqsədi, çox kriteriyalı qərar vermə üsullarından biri olan analitik şəbəkə prosesi üsulundan istifadə edərək dördüncü sənaye inqilabı mühitində işə qəbul proseslərində ön plana çıxan yeni meyarların əhəmiyyət səviyyələrini müəyyənləşdirməkdir. Bu istiqamətdə insan resursları fəaliyyətinin dəstəklənməsi hədəflənir.

**Açar sözlər: Dördüncü sənaye inqilabı, rəqəmsallaşan sənaye, işçi qüvvəsi, analitik şəbəkə prosesi.**

# Audit Sahəsində Əhəmiyyətli Təhrif Riskinin Qiymətləndirilməsi

**Vüsal Bayramov**
**Azərbaycan Texnologiya Universiteti**

**Xülasə**
Audit - maliyyə hesabatlarının düzgün, dəqiq və ədalətli şəkildə tərtib olunması ilə bağlı auditorun rəy verdiyi qanunvericilik standartlarına uyğun tapşırıqdır. Müasir dövrdə biznes əməliyyatlarının həcmindən asılı olaraq onlarının hər birinin auditor tərəfindən 100 faiz yoxlanılması mümkünsüzdür. Bundan əlavə onuda qeyd etməliyik ki, 100 faiz yoxlanılmış maliyyə-təsərrüfat hesabatı da auditora, eləcədə müəssisə rəhbərinə tam əminlik vermir. Bütün audit yoxlamalarında bəzi daxili məhdudiyyətlər mövcuddur. Buna görə də auditor rəy verməzdən əvvəl maliyyə hesabatlarında əhəmiyyətli təhrif riskini qiymətləndirməlidir. Burada biz nələrə diqqət edəcik? Diqqət edilməli məsələlər: audit riskinin komponentlərinin izahını vermək və maliyyə hesabatlarında əhəmiyyətli təhtif risklərini izah etməkdən ibarətdir.

**Açar sözlər: Audit riski, təhrif, qiymətləndirmə, maliyyə hesabatı.**

# Azerbaycanda Perakende Sektörü Şirketlerinin Tedarik Zinciri Yönetimi Faaliyeti (“Rahat Market” üzerinden araştırma)

**Ələddin Ağakişiyev**
**Azerbaycan Devlet İktisad Universitesi**

**Özet**

Günümüzün dünyasında işletmelerin en önemli misyon ve amaçlarından biri ürün ve ya hizmetin müşteriye vakti-vaktinde aktarılması ve elde olunan kazancın işletmeye değer katmasıdır. Son yıllarda dünyada globalleşme etkisinin daha da kabarması, rekabetin artması fonunda artık işletmelerin ürün ve ya hizmetleri müşterilerine ulaştırmaları müddetinde farklılık yaratmasına yönelik faaliyyetleri Tedarik Zincirinin önemini ifade etmekdedir. Menajerler süreç içi faaliyyelerin kalite, maliyet ve gelişim üzerine ciddi bir etkisi olduğunu kavramışlar. Son yıllarda rekabet ve globalleşmenin etkilerinin artması firmaları ucuz maliyetle daha kaliteli ve güvenilir ürün sunmaya mecbur etmişdir. İşletmeler yalnız kendi yönetimlerinde yer almalarının yeterli olmadığını anlamışlardır. Kendilerine girdi sağlayan yukarı doğru işletmelerin yer aldığı ve çıkdını oluşturan, tüketicilere ürünleri ulaştıran ve satışsonu hizmet veren aşağıya doğru işletmelerin yer aldığı şebekenin yönetiminde var olmaları gerektiğinin farkına varmışlardır. Araştırmanın amacı Tedarik Zencirinin şirketler ve işletmeler için günümüzdeki değerinden bahsetmekdir. Azerbaycan perakende sektöründe Tedarik Zinciri Yönetiminin uygulanma özelliklerinin araştırılması çerçevesinde “Rahat Market” üzerinden mülakat yürütülmüş ve onlara Tedarik Zinciri Yönetimi faaliyeti ile ilgili bazı sorular yöneltilmiştir. Mülakatta Tedarik Zincirinin faydaları, şirket için neden önemli olduğu, hangi modelden yararlandıkları, hangi faktörün Tedarik Zinciri uygulamalarında daha ağır bastığı, hangi gelişmiş uluslararası teknikleri kullandıkları, pandemi dönemindeki zorluklar ve önlem tedbirleri, pandemi dönemindeki satış performanslarıyla ilgili sorular tespit olunmuştur.

**Anahtar kelimeler: Tedarik zinciri yönetimi, ürün, perakende sektörü.**

# Transformation of Rural Areas And Peasantry During The Development Process of Turkey And South Korea: A Comparative Analysis

**So Young Lee**
**Istanbul University**

**Abstract**
Today, South Korea is one of the leading economies in the world. Behind of this reputation there are lots of arguments and debates on how this fast economic development was achieved. For many scholars and thinkers, Saemaul Undong considered as one of the main reasons for the "Miracle on the Han River. Saemaul Undong, also called New Village Movement, launched in 1970's was a village revitalization project at first sight. However, Saemaul Undong was the main rural development policy of the authoritarian Park Chung Hee regime which was also regimes response to the political-economic crisis at the end of the 1960's. The movement originally formed as a renovation of the village, constructing basic infrastructure projects but in its later stages the movement expanded to a full-scale agro-industrial production. Apart from its socio-economic objectives, Saemaul Undong was one of the most effective ideological apparatus of the Park's authoritarian regime for influencing the daily lives of the rural communities. Similar to the South Korean experience on rural development, the Village Institutes of Turkey which was officially implemented in 1940, showed a great example for developing countries on the efforts of rapid rural development. Although there were previous efforts of searches for possible rural development policies, the Village Institutes had twofold aim; solving the illiteracy problem of the peasants and boost agricultural production by providing modern agricultural methods to villagers via peasant origin, agro-teachers. It was the Kemalism's top policy on reaching out to peasants for getting support for the regime. Therefore, the institutes, the symbol of Peasantism, was the response of the Kemalist regime to the socio-economic and socio-political crisis of the country just after 1929's Great Depression.

**Key Words: Saemaul undong, village ınstitutes, rural development, peasantism.**

# Пути Реформирования Налоговой Системы Азербайджанской Республики

**Анар Асланов**
**Азербайджанский Государственный Экономический Университет**

**Резюме**

Целью исследования является – анализ условий, факторов и особенностей формирования и развития налоговой системы Азербайджана и основные направления налоговой политики, разработка на этой основе теоретических положений и практических рекомендаций. В основу исследования положена гипотеза о качественно новом объекте теоретического исследования, который не имеет аналогов мировой экономической мысли и поэтому невозможность в основном применения для Азербайджана существующих традиционных подходов к регулированию ее налоговой системы. После обретения независимости переход экономики Азербайджанской Республики на рыночные принципы вызвал, как и в других областях, необходимость коренных реформ в налоговой системе. Экономические реформы явились причиной важных качественных перемен в экономике Азербайджана. Привлечение крупных инвестиций в экономику страны, макроэкономическая стабильность, создание правовой базы, поощряющей деловую сферу, и ряд других факторов создали условия для развития налоговой системы. Несомненно, все это находит отражение в налоговых поступлениях в государственный бюджет Азербайджана. Основные пути реформирования налоговой системы Азербайджанской Республики признается эволюция, т.е. взвешенная последовательность предпринимаемых шагов по совершенствованию налоговой системы, которая приводит к уровню развития экономики. Предметом исследования является налоговая система Азербайджана и основные направления налоговой политики, а объектом исследования диссертационной работы являются показатели деятельности налоговой инфраструктуры и макроэкономические показатели развития экономики Азербайджана.

**Ключевые слова: Налоговая система Азербайджана, налоговая политика, экономические реформы.**

# İntellektural Tərəqqi və İnnovasiyalı İqtisadiyyata Keçid

**Cavid Babayev**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası**

**Xülasə**
Cəmiyyətimizin sürətli və sabit inkişafından doğan müvəffəqiyyətlər, müasir tarixin və zamanın tələbləri bizi artıq innovasiyalı ictimai sistem, innovasiyalı iqtisadiyyat, nümunəvi və mütərəqqi mənəvi həyat barədə daha dərindən düşünməyə və əməli işlər görməyə vadar edir. Cəmiyyətin və dövlətin innovasiyalara olan kütləvi və kəskin tələbatı bu gün bir fakt olaraq qalmaqdadır. Bu tələbat çoxşaxəli və çoxsəviyyəlidir. İnnovasiyalı tələbat yeni iqtisadi üsul və formalardan tutmuş yeni sosial təşkilatlanma və idarəetmə məsələlərinə qədər problemləri əhatə edir. Milli iqtisadiyyatda struktur dəyişiklikləri, diversifikasiya, innovasiya aktivliyinin yüksəldilməsi, elmin rolunun artırılması və habelə investisiyaların çoxalması olmadan davamlı iqtisadi artım mümkün deyildir. Bunlar bir tərəfdən iqtisadiyyatın müəyyən sahəsinə investisiyaların istiqamətləndirilməsini nəzərdə tutur, digər tərəfdən isə innovasiyaların artımı ilə iqtisadiyyatın modernləşdirilməsinə, bazarın tələblərinə adekvat investisiya resurslarının axınına təminat verir. Bu gün əsas məsələ Azərbaycanın davamlı iqtisadi artımına səmərəli təsir edəcək innovasiya tipli iqtisadi inkişafın prioritet məsələlərinin müəyyən edilməsidir.

**Açar sözlər: İqtisadiyyat; innovasiya; inkişaf; texnologiya.**

# Optimal Nakit Yönetimini Sağlayarak İkiden Fazla İkame Edilebilir Ürünler İçin Ekonomik Sipariş Miktarı Modelinin Oluşturulması

**Aysel Semedzade**
**Azerbaycan Devlet İktisad Universitesi**

**Özet**

Farklı ürün çeşitlerinin siparişini verən envanter firmalarının esas sorunarından biri de toplam maliyetleri minimumda tutarak EOQ-nü bula bilmektir. 2-den fazla ürünler için ikame edilebilir özelliğinin olması stokta 0-a ulaşan ürün için en iyi yeniden sipariş noktası ve talep seviyesini bulmanın yoludur. Envanter çeşitlerinin ikame edilmesi sürecinde firmanın optimum nakit yöntemi modellerinden Miller-Orr modelini kullanarak nakit akışının üst ve alt düzeylerini, geri dönüş noktasını belirlemektedir. Nakit düzeyi belirlenmesi ile ikame edilebilir ürünler için EOQ modelinin kurulması firmanın toplam maliyet ve harcamalarının dengede tutulmasına pozitiv yönde etki etmektedir. Bu araştırmanın amacı büyük ölçeklerde envanter siparişi ile çalışan firmaların finansal süreçlerine optimum nakit yönetimi modellerinden en uygununu seçib tatbik ederek ikame edilebilir ürünler EOQ modelinin hesaplnmasını temin etmektir. Özsüt Azerbaycan işletmetsinden elde edilen veriler finans və sipariş miktarı konularını kapsamaktadır. Ülkemizde konunun araştırılmasına veya pratikte kullanılmasına çok da yer verilmemiştir. Bu araştırmanı yaparak EOQ, ikame edilebilir ürünleri ve Miller – Orr modelini aynı süreçde kullanılmasını temin ederek firmanın toplam maliyet ve harcamalarında bir dengende tutulmasını sağlamaktır. Araştırma sonuçlarına dayanarak optimum nakit yönetiminde EOQ modelinin kurulması daha büyük envanter siparişi ile çalışan firmalar için kullanılması daha uygun görülmektedir.

**Anahtar kelimeler: EOQ, Miller-Orr, ikame edilebilir ürünler/**

**Koronavirus (COVID-19) Pandemiyasının Əmək Bazarına Təsiri**

**Adil Talıbov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

COVID-19 virusunun sürətli şəkildə yayılması dünya miqyasında əmək bazarlarına ciddi şəkildə təsir etmişdir. Son araşdırmalara görə, xüsusilə istehsal sahələrinin böhrandan yüksək və orta-yüksək dərəcədə təsirlənən sektorlarında işləyənlər işlərini itirmək, ödənişsiz məzuniyyətə çıxmaq və həftəlik iş saatlarının azaldılması kimi risklərlə üzləşirlər. Pandemiya dövründə əmək fəaliyyətində baş verən başqa bir əsaslı dəyişiklik evdə işləyənlərin nisbətindəki artımdır. Pandemiyadan əvvəl yalnız az sayda insan iş fəaliyyətini evdən həyata keçirsə də, böhrandan sonra evdə işləmək məcburi bir hala çevirlmişdir. Buna baxmayaraq hər bir işi evdən etmək mümkün deyil. Bir çox ölkələr COVID-19 böhranının ölkə iqtisadiyyatına və əmək bazarına zərərli təsirlərini azaltmaq məqsədilə daha əvvəl həyata keçirilməmiş tədbirlər görməyə başladılar. Ümumi olaraq, dünya ölkələri üzrə məşğulluq tədbirlərinin yeddi qrupda cəmləndiyi görülür: işsizlik müavinətləri, özünüməşğul olan və ya qeyri-rəsmi formada çalışan işçilər üçün dəstəklər, əmək haqqı şəklində verilən subsidiyalar, işləmə qaydalarında tənzimləmələr, ödənişli xəstəlik məzuniyyəti üçün subsidiyalar, işdən çıxarmanın məhdudlaşdırılması və peşə təhsili subsidiyaları. Bu məqalədə, koronavirus pandemiyası ilə başlayan böhranın işçi qüvvəsi və əmək bazarı üzərindəki təsirləri araşdırılmışdır. Belə ki, pandemiya dövründə müxtəlif ölkələr üzrə əmək bazarında baş verən dəyişikliklər araşdırılmış və müqayisəli formada tədqiq edilmişdir. Bununla yanaşı, pandemiyanın davam etdiyi dövrdə bir çox insanın işlədiyi peşə və fəaliyyət sahəsindən asılı olaraq işləmə formasındakı kəskin dəyişikliklər, evdə işləyənlərin və evdə işləyə biləcəklərin artan nisbəti son araşdırmalardan istifadə edərək ümumiləşdirilmişdir. Məqalədə COVID-19 böhranının əmək bazarına, məşğulluq və işsizlik dərəcələrinə zərərli təsirlərini azaltmaq üçün dövlətlər tərəfindən formalaşdırılan və həyata keçirilən məşğulluq tədbirlərini ümumiləşdirilir və bəzi ölkələrdə həyata keçirilmiş uyğun məzmunlu tədbirlərlə müqayisə edilir. Son olaraq isə pandemiya nəticəsində yaranan böhranın əmək bazarına təsilərinin öyrənilməsi məqsədilə əmək fəaliyyəti ilə məşğul olan 102 şəxsin iştirakı ilə anket sorğusu keçirilmiş və nəticələr analiz olunmuşdur.

**Açar sözlər: Koronavirus pandemiyası, Covid-19, əmək bazarı, işçi güvvəsi, məşğulluq tədbirləri.**

# Elektron Ticarətdə Marketinqin Tətbiqi Problemləri və Həlli Yolları

**Xalıqverdi Hüseynov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Bu işdə ənənəvidən elektronikə keçən ticarət və marketinq konsepsiyası müzakirə edilmiş və rəqəmsal marketinqin müəssisələr üçün üstünlükləri və digər marketinq metodlarına nisbətən üstünlükləri statistik göstəricilər ilə təhlil edilmişdir.İnternet sayəsində dünyanın müxtəlif yerlərində müəssisələr, təşkilatlar və şəxslər bir-biri ilə çox asanlıqla ünsiyyət qururlar. Gündən-günə artan istifadəçi sayında alış-veriş vərdişləri internet mühitinə keçir. İnsanlar istədikləri məlumatları asanlıqla əldə edə, istədikləri məhsulları araşdıra və internet saytlarına olduqları yerdən gəzərək alış-veriş edə bilərlər. Bunun fərqində olan müəssisələr, onlayn alış-veriş saytları yaradır və bu saytlara uyğun ənənəvi marketinq metodlarına əlavə olaraq onlayn marketinq üçün uyğun strategiyalar hazırlayırlar. İnternetin imkanları sayəsində tanıtım fəaliyyətləri sərfəli və ucuzdur. Ənənəvi marketinqlə müqayisədə aşağı xərclər müəssisələri, daha ucuz qiymətlər isə müştəriləri razı salır.Məhsullarını marketinqi zamanı ən vacib məsələlərdən biri hədəf auditoriyaya çatma strategiyası olmuşdur. Ənənəvi marketinqdə istifadə olunan metodlar həm müəssisələri maddi cəhətdən çətinliyə saldı, həm də hədəf auditoriyaya çatmaq üçün gözləntiləri doğrultmadı. Bu nöqtədə müəssisələr rəqəmsal marketinq üsulları ilə mövcud müştərilərini saxlamağı və potensial müştərilərinə minimum xərclə çatmağı hədəfləyirlər. 20-ci əsrin sonlarında rabitə texnologiyalarındakı inkişaf və internetin icad edilməsi ilə ticarət fərqli bir səviyyə qazandı. İnternet, sosial və iqtisadi həyatın yanında ticarət anlayışını və ticarətin tərzinə təsir edərək çox sürətlə dəyişdi. İnternet texnologiyasındakı inkişaflarla birlikdə qloballaşma və rəqabət artdı.

**Açar sözlər: Ticarət, internet, marketinq.**

# Covid-19 və İqtisadi Təsirləri

**Məqsəd Surxayev**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Covid-19 pandemiyası, xəstəliyin özünün yayılması və karantin səyləri xaricində böyük iqtisadi təsirlərə səbəb olmuşdur. SARS-CoV-2 virusu dünyaya yayıldıqca, narahatlıqlar tədarük tərəfindəki istehsal məsələlərindən xidmət sektorunda azalan iş sahəsinə keçdi. Pandemiya, tarixdəki ən böyük qlobal tənəzzülə səbəb oldu və qlobal əhalinin üçdə birindən çoxu kilidlənmə vəziyyətinə gəldi. Çaxnaşma başlaması, pandemiya ilə mübarizə aparmaq üçün malların istifadəsinin artması və Çin materikindəki fabriklər və logistikanın pozulması səbəbindən bir sıra sənaye sahələri ciddi ziyan gördü. Buna bağlı olaraq bir-neçə qiymət dəyişməsi halları da meydana gəldi. Dərman çatışmazlığı barədə geniş xəbərlər yayılmışdı, bir çox bölgədə panik hərərkət edilməsi və bunun nəticəsi olaraq qida və digər zəruri ərzaq məhsulları çatışmazlığı görüldü. Xüsusilə texnologiya sənayesi, elektron malların göndərilməsindəki gecikmələrə dair xəbərdarlıq etdi. Pandemiya planları qlobal olaraq dəyişdirməyə məcbur etdi. Bütün moda, idman və texnologiya konfransları və tədbirləri ləğv edildi və ya onlayn olaraq dəyişdirildi. Səyahət və ticarət sənayesindəki pul təsiri hələ tam olaraq proqnozlaşdırılmasa da, milyardlarla olması və artması ehtimalı var.

**Açar sözlər : Covid-19, Çin, Qlobal tənəzzül, İqtisadi təsir.**

# Влияние Инфляции на Доходы Населения

**Айтекин Мамедова**
**Азербайджанский Государственный Экономический Университет**

**Резюме**

В статье отражается влияние инфляции на доходы населения. Проведенные исследования в данной отрасли показывают, что существование инфляции негативно влияют на неравномерное распределение доходов, возрастание реальных расходов потребителей, снижение уровня жизни населения и многие прочие обстоятельства. Поэтому основой деятельности снижения негативных влияний инфляции является защита реальный доходов населения, то есть с помощью ограничение роста цен расширить возможности получения доходов населения. Обеспечение финансовой стабильности в стране является одним из основных требований рыночной экономики. Для этого важным условием является укрепление финансово-кредитной системы, снижение дефицита бюджета и уровня инфляции путем реализации жесткой денежной политики, укрепления курса национальной валюты. Инфляция, будучи постоянным элементом рыночной экономики считается одним из факторов нарушавшей стабильное развитие. Исторически утверждено, что чем больше инфляция, тем больше опасностей может возникнуть для общества. Когда идут инфляционные процессы в экономике возникает условие неравномерного распределения доходов между разными слоями общества.

**Ключевые слова: Инфляция, доходы, уровень жизни, антиинфляционные меры, минимальная потребительская корзина.**

# Problems and Challenges of IFRS Adoption

**Aziz Aghayev**
**Azerbaijan State University of Economics**

**Abstract**

The appropriation of International Financial Reporting Standards (IFRSs) in Europe and around the globe speaks to maybe the main bookkeeping administrative change lately. The utilization of IFRSs as a widespread monetary detailing language is acquiring energy across the globe as more nations are embracing IFRS or combining their nearby guidelines with it. Most nations have set a guide towards the reception of IFRS from January, 2012. In spite of the fact that there are contentions that IFRS are immaterial to agricultural nations yet they are embracing it in light of the fact that IFRS is an item with "network impacts". IFRS is seen as an excellent bookkeeping standard, contrasted with most nearby bookkeeping norms, which can assist with encouraging expanded equivalence of budget summaries by speculators. Globalization, expanded boundary posting, fascination of unfamiliar venture and helps, and other institutional components have been the inspiring elements for IFRS appropriation. Despite the fact that IFRS guarantees a ton of advantages for monetary revealing by adopters, there are numerous difficulties and hindrances which should be survived. Exercises from as of now adopters of IFRS uncover that for viable IFRS selection, there must empowering institutional system, bookkeeping schooling and preparing, effective limit building project to set up the different partners for the approaching progress and difficulties.

**Key words: Problems, challenges, IFRS adoption, first adoption process.**

# Фьючерсы – Один Из Важнейших Инструментов Финансового Бизнеса

**Джахангир Рзабеков**
**Азербайджанский Государственный Экономический Университет**

## Резюме

Финансовый бизнес – это направление бизнеса, реализация которого осуществляется на финансовых рынках. Операционной деятельностью в финансовом бизнесе является спекулирование корпоративными ценными бумагами, валютой, производными финансовыми инструментами (фьючерсы, форварды, опционы и т.д.). Помимо купли – продажи, в финансовом бизнесе оказываются посреднические услуги. Эти услуги оказывают специализированные брокерские и дилерские компании, а также коммерческие банки и другие частные инвестиционные компании. Основными направления инвестирования в финансовом бизнесе является инвестирования в корпоративные ценные бумаги и иностранную валюту, однако с развитием данного направления бизнеса потребности в финансовых ресурсах начали возрастать. Это привело к внедрению новых финансовых инструментов, которые также именуются производными. Одним из таких инструментов в финансовом бизнесе стал фьючерс. Фьючерсный контракт предполагает получение определённого объёма финансового актива или товара по цене, ожидаемой в будущем. Параллельно с развитием технологий и увеличением субъектов финансового бизнеса развивался и финансовый рынок фьючерсов. Благодаря развитию рынка фьючерсов появилась возможность спекулировать не только самим финансовым активом или товаром на товарной бирже, но фьючерсным контрактом на эти товары и активы, предполагающие моментальное заключение сделок по купле – продажи. Развитие фьючерсного рынка позволило усовершенствовать брокерские услуги – внедрение кредитного плеча. Теперь брокер являлся не просто посредником на финансовых рынках, но и позволял вести маржинальную торговлю, тем самым снижая инвестиционные расходы трейдеров. Благодаря этому количество инвесторов и объёмов денежных вливаний на финансовых рынках возросло. В статье даётся классификация фьючерсов, проводится сравнительный анализ и выявляются наиболее эффективные фьючерсные контракты.

**Ключевые слова: Финансовый бизнес, фьючерсный контракт, кредитное плечо, маржинальная торговля.**

**Sürdürülebilir Büyüme Oranı ve Hisse Senedi Değeri Arasındakı İlişki: Enerji Sektöründe Uygulama**

**Arife Hüseynova**
**Azerbaycan Devlet İktisad Universitesi**

**Özet**

Sürdürülebilir büyüme her dönemin güncel konularından biridir ve son dönemlerde Sürdürülebilirlik konusuna artan bir ilgi vardır. Birçok yatırımcı, uygulayıcı ve akademisyen, hisse senedi değerini etkilemeyle ilgili faktörleri bilmekle ilgilenmektedir ve Firma büyümesi uzun süreden beri hissedar değeri yaratmanın en önemli öğelerinden biri olarak gösterilmektedir. Büyüme, genellikle, öz sermaye değerinin önemli etkenlerinden biridir. Sürdürülebilir büyüme oranı (SBO), şirket büyümesinin eksikliklerini değerlendirmek için önemlidir ve bir şirketin değer yaratma olasılığını yakalar. Bu nedenle, bu çalışmanın amacı, sürdürülebilir büyüme ve hisse senedi değeri arasındaki ilişkiyi belirlemektir.Bunun için Türkiyenin Enerji sektöründe işlem yapan 5 firmanın 2017-2020 verileri elde edildi. Sürdürülebilir büyüme oranı hesaplamak için Sürdürülebilir büyüme oranını hesaplama modellerini inceledik ve SBO' yu hesapladık. Hesaplama sonuçlarımızı hisse senedi değerleri elde edilerek karşılaştırıldı. Sürdürülebilir büyüme oranı ve hisse senedi değer verilerimizi SPSS uyqulamasında Pearson Korelasyon analiz etdik. Elde etdiğimiz sonuçlara göre tüm şirketler, sürdürülebilir büyüme oranı ve ile hisse senedi değeri arasında bir ilişki gösterdi.Yapdığımız araştırmada 4 şirket positiv korelasyon gösterdi. Araştırmamıza dahil olan 5 şirketden yalnız 1 firmamız neqativ korelasyon gösterdi.

**Anahtar kelimeler: Sürdürülebilir büyüme oranı, hisse senedi , pearson korelasyon.**

# The Impact of Economic Transition and Entrepreneurship in Poland

**Nusrat Munzarin Methila**
**Khasan Fazliddinov**
**Siegen University**

**Abstract:**
In this paper, Poland's economic situation is analyzed, how the transitional economy impacted Poland socially, politically, and its enterprises. Tabular information Is given about economical comparisons between Poland, the Czech Republic, and Hungary. Also, this paper sheds light on entrepreneurship and Poland's entrepreneurial situation, especially social and female entrepreneurship. Afterward, the barriers to the entrepreneurial situation are discussed. The target of this paper is to represent the economical and entrepreneurial situation in Poland.

**Keywords: American-style mixed economy, West European–style welfare state, entrepreneurship, ınnovation, products, ınnovative entrepreneurship, government support of innovative business.**

# Azərbaycanda Hazır Geyim Markalarına İstehlakçı Tələbinin Təhlili

**Aynurə Məmmədzadə**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Qloballaşma ilə sosial-mədəni səviyyələrin inkişafı və buna uyğun olaraq dəyişən istehlakçı seçimləri hazır geyimə olan tələbatı artırmışdır. Getdikcə artan ehtiyacları ödəmək və istehlakçı tələbini yarada bilmək üçün hazır geyim sektorundakı müəssisələr bir-biri ilə rəqabət etməyə başladılar. Rəqabətdə olan müəssisələr məhsulların fərqli xüsusiyyətlərini və keyfiyyətlərini ortaya qoymaq üçün bir marka kimi fəaliyyət göstərməyə başladılar. Çox sayda marka olduğu üçün araşdırmada X markası nəzərə alınıb. Məqalədə, istehlakçıların hazır geyim alarkən diqqət etdikləri xüsusiyyətlər, alış-veriş yeri seçimləri, alış-veriş zamanı insanların fikirlərinə hansı amilərin təsir etdiyini ortaya qoymaq və marka dəyəri ölçülərinin hazır geyim almaq niyyətinə təsirini təyin etmək əsas götürülmüşdür.

Bu məqalə, marka dəyəri ölçülərinin X marka geyim sənayesində istehlakçıların alış niyyəti üzərindəki təsirlərini müəyyənləşdirmək və istehlakçıların üstünlük verdikləri hazır geyim markalarına olan baxışlarını ortaya qoymaq məqsədi daşıyır. Bu çərçivədə, istehlakçıların marka dəyəri və alış niyyətləri miqyasında izahlı təhlili aparılmışdır. Bu məqsədlə məlumat toplama vasitəsi kimi anket tətbiqinin istifadə edildiyi araşdırma işi aparıldı. İlkin məlumatları toplamaq üçün Azərbaycanda istehlakçılara online sorğu metodu ilə müraciət edilmişdir. Əldə edilən məlumatlar statistik analizdən istifadə edilərək şərh edilmişdir. Hazır geyim markalarının bir çoxunun bugünkü bazar şərtlərində rəqabət etdiyini nəzərə alsaq, marka strategiyaları istehlakçıların marka haqqında düşüncələrinə uyğun olaraq müəyyənləşdirilməlidir. Hazır geyim şirkətlərinin milli və beynəlxalq bazarlarda rəqabət gücünü artıraraq uğurlar əldə etməsində bunun böyük töhvəsi var. Bu baxımdan tədqiqat nəticələri hazır geyim sektorundakı marketinq və marka menecerlərinə markalarını yerləşdirməkdə və marka strategiyalarını təyin etməyə kömək edəcəkdir.

**Açar sözlər: Hazır geyim, marka, istehlakçı tələbi.**

# Restoran Sektorunda Qəbul Edilən Xidmət Keyfiyyəti və Müştəri Məmnuniyyəti Üzərinə Bir Araşdırma: Demoqrafik Dəyişkənlər Üzrə Qrupların Müqaisəsi (Bakı Nümunəsi)

**Aliyə Həsənli**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Qlobal bazarlarda artan rəqabət və beynəlxalq iqtisadi mühitin təzyiqləri nəzərə alınmaqla, müştərilərin saxlanılması daha vacib bir şirkət hədəfinə çevrilir. Buna nail olmaq üçün xidmət təşkilatları xidmət keyfiyyətinə diqqət yetirirlər. Xidmətlərin müştərilər tərəfindən nə dərəcə keyfiyyətli qəbul edilib-edilməməsini, buna təsir edən spesifik amilləri aydınlaşdırmaq müştəri məmnuniyyətinin əldə olunması üçün vacib bir məsələdir. Tədqiqat restoran sektorunda qəbul edilən xidmət keyfiyyəti və müştəri məmnuniyyətininin araşdırılmasını əhatə etmişdir. Araşdırmada xidmət keyfiyyəti və müştəri məmnuniyyətinin haqqında əvvəlki araşdırmalardan bəhs edilmişdir. Bundan əlavə olaraq, tədqiqatda xidmət keyfiyyəti və müştəri məmnuniyyətinə respondentlərin münasibətlərinin demoqrafik amillərə görə fərqlilik göstərib-göstərmədiyi də araşdırılmışdır. Demoqrafik amillər olaraq cins, aylıq gəlir, restorana getmə məqsədi, restorana getmə sıxlığı götürülmüşdür. "İnsanların müştəri məmnuniyyətinə olan münasibətləri hər iki cinsin üzvlərində eynidir mi?" və ya "Xidmət keyfiyyətinə münasibət insanların aylıq gəlirlərinə görə fərqlilik göstərir mi?" sualları əsasında araşdırılma aparılmış, analizlər edilmişdir. Restoran sektorunda çox tədqiqatlar olsa da, müştəri məmnuniyyəti və xidmət keyfiyyəti, onlara təsir edən amillər dərindən araşdırılsa da, Bakı şəhərində bu dəyişkənlərin demoqrafik amillərə görə fərqlilik göstərməsi məsələsi haqqında araşdırmalar çox azdır. Bu səbəbdən araşdırmanın bu cür aparılması tədqiqatın orginallığın da təmin etmişdir. Tədqiqatın obyekti Bakı şəhərində fəaliyyət göstərən restoranlar və müştəriləridir.Tədqiqatın predmeti isə Bakı şəhərində fəaliyyət göstərən restoranlarda xidmət keyfiyyəti, müştəri məmnuniyyəti və demoqrafik faktorlardan ibarətdir. Məqaləyə Bakı şəhərində keçirilən anket sorğusunun nəticələri daxil edilmiş və SPSS proqramında 356 respondentin cavabları üzrə Independent Samples T və One way ANOVA analizləri edilmişdir. Yekunda analizin nəticələri göstərilmiş və bu nəticələrə uyğun olaraq təkliflər verilmişdir.

**Açar sözlər: Müştəri məmnuniyyəti, xidmət keyfiyyəti, restoran, işçilər.**

# Ölkəmizdə Keçirilən Sosial İslahatlarin Əsas İstiqamətləri

**Fidan Babayeva**
**Aygün Hacıyeva**
**Azərbaycan Dövlət Aqrar Universiteti**

**Xülasə**

Sosial siyasət hər bir dövlətin daxili siyasətinin əsas istiqamətlərindən biri olmaqla, ictimai həytın sosial və ayrılmaz hissəsidir. Bu sahə cəmiyyətin müxtəlif təbəqələri arasında münasibətlərin tənzimlənməsinə, əhalinin yaşam keyfiyyətinin və həyat səviyyəsinin yüksəldilməsinə yönəldilmiş tədbirlər sistemidir. Sosial siyasətin əsas məqsədi cəmiyyətin müxtəlif sosial qrupları arasındakı qeyri bərabərliyin tədricən aradan qaldırılması və maddi mənəvi sərvətlərin bölüşdürülməsində sosial ədalətin təmin edilməsidir.

Azərbaycan dövləti sosial yönümlü bir dövlətdir. Ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində çox ciddi tədbirlər görülür.Əməkhaqları, pensiya təminatı sahəsində aparılan ciddi islahatlar, qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması üçün həyata keçirilən geniş proqramlar, şəhid ailələrinə göstərilən qayğı, sosial sahə ilə bağlı qəbul olunan çoxsaylı qanunlar və s. cəmiyyətin rifah halının yaxşılaşmasına yönəlmiş tədbirlərdir. Məqalədə əsasən aparılan uğurlu, məqsədyönlü siyasət nəticəsində ildən-ilə daha yüksək inkişaf göstəriciləri nümayiş etdirən iqtisadiyyatın formalaşdırılması ölkədə işgüzar fəallığın daha da yüksəldilməsinə, yoxsulluğun azaldılmasına əlverişli şərait yaratmış, əhalinin etibarlı sosial müdafiəsini, maddi-rifah halının əhəmiyyətli dərəcədə yaxşılaşdırılması göstərilmişdir.

**Açar sözlər: Sosial siyasət, sosial müdafiə, sosial sahə, islahat, həyat səviyyəsi.**

# İşğaldan Azad Edilmiş Rayonların İnkişaf Perspektivləri

**Nuranə Abbasova-Zeynalova**
**Mingəçevir Dövlət Universiteti**

**Xülasə**

Silahlı Qüvvələrin Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyəti, müzəffər Ordumuzun sücaəti nəticəsində 1989-1993-cü illərdə Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımız işğaldan azad olunmuşdur. İşğaldan azad olunmuş ərazilərdə mövcud infrastruktur uzun illər ərzində məhv edilərək yararsız hala salınıb. Bu ərazilərimiz çox böyük sahibkarlıq potensialına malikdir və bu ərazilərin işğaldan azad edilməsi həm dövlətin, həm də sahibkarların qarşısında böyük məsuliyyət qoyur, geri qaytarılan torpaqlarımızda iqtisadi fəaliyyətin canlanması zərurətə çevrilir. Burada sahibkarlığın bir çox növünü inkişaf etdirmək mümkündür. Həmin bölgələrə investisiya qoyuluşlarını stimullaşdırmaq və sahibkarları bu ərazilərə istiqamətləndirmək üçün təşviqedici vergi və gömrük siyasəti dövlətin diqqət mərkəzində olacaqdır. Qarabağ ərazisində sahibkarlığın inkişafı nəticəsində həm ölkəmizin ümumi daxili məhsulunun həcmi, həm də dövlət büdcəsinə vergi daxilolmaları artacaqdır. Azərbaycanın şanlı ordusunun torpaqlarımızı işğaldan azad etməsinin həmçinin iqtisadi inkişaf, məşğulluğun təmini, yeni iş yerlərinin yaradılması kimi müsbət təsirləri olacaqdır. İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatı dirçəltmək konfliktsonrası reabilitasiyanın həm strateji, həm də taktiki baxımdan son dərəcə mühüm, amma elə o qədər də mürəkkəb tərkib hissələrindəndir. Bu bölgədə iqtisadi dirçəlişin proqram məqsədi, sadəcə olaraq, ayrı-ayrı dağıdılmış istehsal obyektlərinin bərpası və ya hətta yenilərinin tikilməsi kimi ifadə edilə bilməz.

**Açar sözlər: Post-konflikt ərazilər, innovasiya sahibkarlığı, iqtisadi inkişaf.**

# The Impact of International Trade on Inequality Among Different Countries

**Afsana Huseynova**
**Azerbaijan State University of Economics**

**Abstract**
We should not be mistaken to say that the basis of economic relations between all the countries of the world today is trade operations in various and modern directions. Thus, trade occurred at a certain stage of development of the society at the stage when, together with the production of goods, labor is produced not only for its own production, but also for its sale. In other words, the development of the national economies of the countries trying to build the market system in the modern period is closely related not only to domestic opportunities, but also to the main form of international economic relations, as well as to the efficient use of foreign trade. From this point of view, the implementation of various directions of the system of economic relations between the countries of the world is important both theoretically and practically to study the development trends, principles, rules, regulation and improvement of international trade operations, which combine these ways. In this regard, the course material, which is prepared on the basis of generalized studies in the mentioned directions, has a great role in the teaching process, and the article I wrote covers this topic.

**Keywords: World countries, international trade, economy, import, export, international labor division, world trade.**

# Küresel İnovasyon Endeksine Göre Orta Asya Türk Cumhuriyetlerinin Mevcut Durumu

**Hasan Gül**
**Ondokuz Mayıs Üniversitesi**
**Azamat Maksüdünov**
**Aysuluu Beyşenova**
**Kırgızistan-Türkiye Manas Üniversitesi**

**Özet**

Günümüzde her alanda ekonomik büyüme ve teknolojik rekabetçilik için bilgi ve inovasyonun önemi gittikçe artmaktadır. Yapılan bu araştırmanın amacı, Orta Asya Türk Cumhuriyetlerinin inovasyon ile ilgili durumunu incelemektir. Bu amaçla her yıl Dünya Fikri Mülkiyet Örgütü (WIPO), Cornell Üniversitesi ve INSEAD işbirliğinde hazırlanan 2015-2020 yıllarını kapsayan Küresel İnovasyon Endeksi raporlarından yararlanılmıştır. Çalışma Kırgızistan, Türkiye, Kazakistan, Azerbaycan, Özbekistan ve Tacikistan olmak üzere 6 ülkeyi kapsamaktadır. Araştırma sonuçlarının bu ülkelerdeki inovasyonla ilgilenen kurum ve kuruluşlar için önemli ve yararlı bilgiler sağlayacağı düşünülmektedir.

**Anahtar Kelimeler: İnovasyon, küresel inovasyon endeksi, Türk Cumhuriyetleri.**

# Sənayedə İnnovasiya Fəaliyyətini Məhdudlaşdıran Amillər

**Ülviyyə Rəsulova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Məqalədə Azərbaycanda emal sənayesində innovasiya fəallığına mane olan amillər araşdırılmışdır. Bu amillərə emal sənayesində istehsalın həcminin kiçik olması, istehsal edilən məhsulların həcmində sadə və standart məhsulların payının yüksək olması, emal sənayesi məhsullarının satış həcminin illər üzrə dəyişkənliyinin böyük olması, əksər müəssisələrin ölçüsünün minimal səmərəli ölçüsündən əhəmiyyətli dərəcədə kiçik olması aiddir. Bununla yanaşı, ölkədə faiz dərəcələrinin yüksək, müəssisələrin maliyyə imkanlarının isə məh¬dud ol¬ması in¬novasiya fəallığını məhdudlaşdıran amillərə aiddir. Habelə, ölkədə fəlaiyyət göstərən Sahib¬karlığın İnkişaf Fon¬d və Azərbaycan İnves¬¬tisiya Şirkəti kimi inkişaf istitutlarının in¬novasiyaların maliy¬yə¬ləşdirilməsində rolu məhduddur. Qeyd edilənlərlə yanaşı, ölkədə innovasiya fəaliyyətinə mənfi təsir göstərən amillərdən biri də dövlət büdcəsindən elmə cəkilən xərclərin azlığı ilə əlaqədar olmuşdur. Bütövlükdə, sənayedə müəs¬si¬sələrin innovasiya potensialı məhdudluğu innovasiyanın mənimsənilməsinə mane olan əsas amillərdəndir.

**Açar sözlər: İnnovasiya, emal sənayesi, müəssisənin ölçüsü.**

# Young People's Labour Market Transition in Azerbaijan: An Analysis of the Youth Employment Support Programs

**Abbas Babayev**
**ADA University**

**Abstract**
This article, which draws on the study of the main policy documents and reports concerning Azerbaijani youth and employment policies, an online survey with young people, and in-depth interviews with experts and insiders of the national youth and employment policies of Azerbaijan, aims to evaluate the role of current support mechanisms to ensure smooth transition of young people into labour market in Azerbaijan and the extent to which young people, especially with poor educational background, can benefit from existing support mechanisms. The reason for studying the case of Azerbaijan is a potential sign of problematic youth transitions to the labour market in the form of considerable share of youth not in employment, education, or training (NEET youth) among the country's youth population. After brief overview of the importance of the NEET indicator, the detailed analysis of labour market support programs in Azerbaijan is conducted. The findings of analysis show that while the legal and policy documents concerning the state youth and employment policies demonstrate the policymakers' commitment to supporting youth in their transition to labour market, it takes time for all those plans to be transformed into real benefits for youth. The article also lays out potential areas, which are in case of receiving additional support from the government, can contribute to achieving better outcomes in ensuring smooth transition of youth to the labour market.

**Keywords: Youth unemployment; youth transition to labour market; youth not in employment, education.**

# Qiymətli Kağızlar Bazarında Maliyyə İnstitutları və Sahibkarlığın Qarşılıqlı Fəaliyyəti Mexanizmlərinin Təkmilləşdirilməsi

**Ötər Əlizadə**
**Azərbaycan Turizm və Menecment Universiteti**

**Xülasə**
Bazar iqtisadiyyatının formalaşması zamanı potensial maliyyə mənbələrinin ölkə iqtisadiyyatına intensiv cəlb edilməsi vacibdir. Həyata keçirilmiş iqtisadi islahatlar çərçivəsində dünya iqtisadiyyatına inteqrasiya dərinləşdirilmiş və nəticədə iqtisadiyyatın dinamik inkişafı təmin edilmişdir.Məlumdur ki, maliyyə bazarının seqmentlərindən biri qiymətli kağızlar bazarıdır. Qiymətli kağızlar bazarı pul resurslarına olan tələb və onun təklifi arasındakı əlaqədən ibarətdir. QKB-ı kapitalın başlıca sektorlara keçidini təşkil edir. Bununla bağlı olaraq pul resurslarının sahələarası köçürülməsinə şərait yaradır ki, bu da iqtisadi inkişaf tempini artırır. QKB-nın mövcud olmadığı bir ölkədə inkişaf etmiş bazar iqtisadiyyatının mövcud olduğundan söhbət gedə bilməz. Bazarda bir sahibkar öz hesabına iş yerləri yaradır, istehsal ilə məşğul olur, ehtiyaclarını ödəmək üçün qiymətli kağızlar bazarına müraciət edərək buraxılmış qiymətli kağızları sataraq vəsait cəlb edir. Hər sahədə inkişafa gətirib çıxaran bazar prinsipləri əsasında formalaşmaq, maliyyə qiymətli kağızları bazarının fəaliyyətinin artırılması və müasir tələblər baxımından bu istiqamətdə iqtisadi islahatların həyata keçirilməsində maksimum nəticələr əldə etmək vacibdir.

**Açar sözlər: Qiymətli kağızlar, səhm, istiqraz, fond birjası.**

# Sosial-Demoqrafik Amillərin İş Məmnuniyyətinə Təsirinin Tədqiqi

**Yasər Novruzov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

İdarəetmə sahəsinin əsas problemlərindən biri işçilərlə bağlı olan problemlərdir. İşçilərinin məmnun olması təşkilatların məhsuldarlığını artıra bilməsi üçün əsas şərtlərdən biridir. Məqalədə Azərbaycan Respublikasının xidmət sektorunda fəaliyyət göstərən müəssisələrində sosial-demoqrafik (yaş, cins, təhsil) amillərinin işçilərin iş məmnuniyyətinə təsirinin tədqiqi aparılmışdır. Bu günə qədər iş məmnuniyyəti mövzusunda beş mindən çox araşdırma aparılmışdır. Müasir dövrdə bir çox müəssisə və təşkilatların inkişafı və fəaliyyəti iş məmnuniyyəti ilə bir başa bağlı hala gəlmişdir. İşçinin iş məmnuniyyətinə təsir edən amillərin birdən çox olması iş məmnuniyyəti anlayışına fərqli yanaşmaların meydana çıxmasına səbəb oldu. İş məmnuniyyətinin formalaşmasına səbəb olan faktorlardan isə sosial-demoqrafik amillər böyük əhəmiyyət kəsb edir. Sosial-demoqrafik faktorlar günümüzdə diqqət verilməsi vacib olan məsələlərdəndir. Sosial-demoqrafik faktorların insanların iş həyatına, işdən məmnunluğuna təsirinin araşdırılması təkcə Azərbaycan ölkəsinin təşkilatları üçün deyil, həm də xarici ölkələrin təşkilatlarını maraqlandıran məsələ olmalıdır.

Alınan nəticələrə əsasən, sosial-demoqrafik amillərin iş məmnuniyyətinə təsir etdiyi müəyyənləşdirilmişdir. Lakin təşkilati amillərlə (staj, vəzifə) nisbətdə bu amilin təsiri daha azdır.

**Açar sözlər : Sosial-demoqrafik amillər, yaş, cins, iş məmnuniyyəti.**

# Влияние Пандемии на Рынок Труда

**Мехин Гулузаде**
**Азербайджанский Государственный Экономический Университет**

**Резюме**
Распространение болезни COVID-19 серьезно влияет на рынки труда во всем мире. Согласно недавним исследованиям, особенно те, чья производственная деятельность занята в секторах, пострадавших от кризиса в высокой и средне-высокой степени,сталкиваются с такими рисками, как потеря работы, пребывание в неоплачиваемом отпуске и сокращение рабочих часов в неделю. Еще одним событием во время пандемии стало увеличение доли тех, кто работает на дому. Хотя до пандемии лишь небольшая часть рабочей силы работала из дома, после кризиса работа на дому поощряется или является обязательной. Однако выполнять все профессии и работу из дома невозможно. Государства пытаются смягчить пагубное влияние кризиса COVID-19 на экономику и рынок труда в целом, принимая беспрецедентные меры в этот период. Хотя в разных странах они могут отличаться, глобальные меры занятости сосредоточены в семи категориях: субсидии для неформальных или самозанятых работников, пособия по безработице, субсидии заработной платы, новые правила труда, субсидии на отпуск по болезни, ограничения на увольнения и субсидии на профессиональное обучение. В этом исследовании влияние кризиса, начавшегося с пандемии COVID-19, на персонал и работу суммируется в свете появляющейся литературы. Затем влияние пандемии на исследование; В этот период рост числа работающих из дома и тех, кто может работать из дома, был обобщен с помощью недавних исследований. Наконец, в исследовании резюмируются чрезвычайные меры в области занятости, принятые государствами для смягчения пагубных последствий кризиса COVID-19 на рынке труда, и сравниваются меры, принимаемые в некоторых странах.

**Ключевые слова: Covid-19, рабочая сила, занятость, меры занятости.**

**Azərbaycanda Universitet-Sənaye İş Birliyində Mövcud Problemlər və Həlli Yolları (Dövlət Universitetləri Timsalında)**

**Rəşidə Əliyeva**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Universitetlər texnoloji bilik və fikir istehsal edən qurumlardır. Sənaye təşkilatları isə bu texnoloji bilikləri və fikirləri praktikada tətbiq edərək ticarət məhsuluna çevirirlər. Bu baxımdan, universitet-sənaye əməkdaşlığı bir ölkənin sosial-iqtisadi inkişafının davamlılığı üçün vacibdir. Eyni zamanda, universitetlər və sənaye təşkilatları arasındakı əməkdaşlıq bir bölgənin yerli potensialının üzə çıxarılmasına kömək edir. Universitet ilə sənaye təşkilatları arasındakı əməkdaşlığın quruluşu, forması və intensivliyi bölgələrdən bölgələrə görə dəyişir. Bu çərçivədə, universitet ilə sənaye təşkilatları arasındakı əməkdaşlıq səviyyəsini artırmaq üçün müxtəlif siyasi addımlar da atılır. Bu addımlar ümumiyyətlə; Aktyorlar arasında kadrların hərəkətliliyinin təmin edilməsi, əməkdaşlıqdakı hüquqi maneələrin aradan qaldırılması, birgə tədqiqat layihələrinin maliyyələşdirilməsi və milli tədqiqat proqramlarının yaradılması. Beləliklə, universitetlər və sənaye təşkilatları bu əməkdaşlıqla müxtəlif qazanclar əldə etməyi hədəfləyirlər. Bu qazanclar həm sosial kapital, həm də inkişaf baxımından vacib olaraq görülür.Sənayeləşmənin əsas hərəkətvericiləri elm, texnika və iqtisadiyyatdır. Bu gün texnologiya elmi biliklərə əsaslanır və davamlı yenilikçi bir yanaşma tələb edir. Universitetlər yenilikçi elmin istehsalçısı olduğu halda, sənaye yeni texnologiyaların və iqtisadi böyümənin yaradıcısı olmuşdur. Digər tərəfdən, xüsusilə elmi araşdırmalara maliyyə dəstəyi vermək vəzifəsi dövlətin üzərinə düşməkdədir.

**Açar sözlər: Universitet, sənaye, əməkdaşlıq, iş birliyi, texnologiya.**

# İşsizlik Sigortası: Türkiye ile Danimarka Karşılaştırması

**Hanife Saygı**
**Serdar Orhan**
**Sakarya Üniversitesi**

**Özet**

İşsizlik sigortası bireylere sağladığı güvenceyle çalışma hayatında önemli bir yer tutmaktadır. İlk örnekleri Sanayi Devrimi yıllarında Avrupa'da gerçekleşen işsizlik sigortası zaman içerisinde diğer ülkelerde de uygulanmaya başlanmış, bölgesel ve uluslararası örgütlerin sözleşmeleri, raporları ve önergeleriyle farklı nitelikler kazanmıştır. Türkiye'deki işsizlik sigortası Avrupa'ya göre geri kalmış ve yavaş ilerleyen bir süreç olarak kabul edilmektedir. İşsizlik sigortasının Türkiye'de uygulamaya geçmesi yaklaşık 50 yıl sürmüştür. 2000'li yıllarda zorunlu işsizlik sigortası sistemini yasalaştıran Türkiye'nin aksine Danimarka yaklaşık 100 yıl önce sendikal kaynaklı ghent sistemiyle işsizlik sigortasını uygulamaya başlamıştır. Çalışmanın amacı işsizlik sigortasının bu iki ülke üzerinden tarihsel bağlamda ve uygulanma farklılıkları üzerinden karşılaştırmasını yapmak ve gelişimini incelemektir.

**Anahtar kelimeler: İşsizlik sigortası, Türkiye'de işsizlik sigortası, Danimarka'da işsizlik sigortası.**

# Azərbaycanda Kiçik Sahibkarlığa İnvestisiyaların Cəlb Olunması Yolları

**Natiq Cavadov**
**Ağdam Dövlət Sosial-İqtisadi Kolleci**
**Seymur Məmmədov**
**Ayşən Məmmədova**
**Azərbaycan Texnologiya Universiteti**

**Xülasə**

Hal-hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə aparılan islahatlar daha geniş vüsət almaqdadır. Belə ki, sosial-iqtisadi inkişaf sahəsində keyfiyyətcə yeni, davamlı inkişaf mərhələsinə keçidin təməli qoyulmuşdur. Sosial-iqtisadi inkişaf siyasətinin əsas hədəfi, iqtisadi səmərəlilik, sosial ədalətlilik prinsiplərini rəhbər tutmaqla, milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsi və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası əsasında uzunmüddətli perspektivdə ölkədə əldə olunmuş dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir. Sahibkarlığa dövlət himayəsinin sistemli şəkildə həyata keçirilməsi, sahibkarlara dövlət dəstəyi tədbirlərinin səmərəsinin yüksəldilməsi bu sahədə mühüm nailiyyətlərin əldə edilməsinə şərait yaratmışdır. Sahibkarlığa dövlət maliyyə köməkliyi mexanizmi yaradılmış və bu mənbə hazırda kiçik sahibkarların maliyyə vəsaitlərinə olan tələbatının ödənilməsinin real mənbəyi kimi çıxış edir. Sahibkarlığın inkişafı sahəsində qəbul edilmiş normativ-hüquqi sənədlər, sahibkarlığa dövlət maliyyə mexanizminin daha da təkmilləşdirilməsi iş adamlarında özünəinam hissini artırmış, sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, xüsusilə də regionlarda yeni sahibkarlıq subyektlərinin fəaliyyətə başlamasına təkan vermişdir. Artıq ölkədə fəaliyyət göstərən sahibkarlıq subyektləri sosial təşəbbüslərə daha fəal qoşulmaqdadırlar.

Beləliklə, araşdırma göstərir ki, sosial – iqtisadi inkişafın müasir mərhələsində bazar strukturlarının, xüsusilə kiçik sahibkarlığın inkişafı ölkənin bir sıra problemlərinin həll edilməsinə mühüm təsir göstərir. Bu isə əhəmiyyətli dərəcədə kiçik sahibkarlığın investisiya imkanlarının artırılmasından asılıdır. Odur ki, sosial – iqtisadi inkişafın bütün mərhələlərində bu məsələnin prioritetliyinin diqqət mərkəzində saxlanılması və kiçik biznesin investisya imkanlarının artırılmasına dövlətin çoxsahəli köməyi və təsiri məqsədəuyğundur.

**Açar sözlər: Məşğulluq, maliyyə institutları, kreditlərin sığortalanması, istehsal infrastrukturu, mikromaliyyələşmə.**

# COVID-19 Impact on Brand Preference in Consumer Purchasing Decisions on Food Products in Azerbaijan

**Seymur Guliyev**
**Azerbaijan State Oil and Insurty University**

**Abstract**
As it is known, spread of COVID-19 pandemic could not be controlled and it has surpassed all the expectations. World countries closed the boarders; most of the economies went into recession and the entire world suffered from the emerged COVID-19 pandemic. Even though the impacts of COVID-19 global pandemic both economically and socially can be measured and predicted, thought the changes of consumer purchasing behaviour is not easily estimated. As food products are necessary to survive, consumers demand increased because of shut down, but supply decreased because of closed manufacturing operations and it caused panic hoarding by some of the consumers. The effect of the pandemic on human life became interesting for the researchers to explore the impact of the COVID-19 on the businesses, especially brand preferences in consumer purchasing decisions for food products. Overall, the purpose of this article is to explore the impact of global pandemic through complementary empirical research and the current literature on how a pandemic affects brand preference in consumer purchasing behavior, since this is a topic lacking in empirical research. In addition, based on the branding and consumer behaviour theory, the Phenomenon, Moderators and Outcome, shortly "PMO" model was a model of the study, and it provided the bases for gathering empirical data needed for the article. The methodology of the study is based on qualitative approach. Fifteen interviews were conducted with Azerbaijani customers. Research findings showed that there are some changes on consumer purchasing behaviours during yhe COVID-19 pandemic.

**Keywords: Brand preference, consumer purchasing behavior, Covid-19 pandemic, food, brand loyalty.**

# Взаимосвязь Кластеризации Экономики Карабаха и Экономического Роста Страны

**Нубар Ибадова**
**Азербайджанский Государственный Экономический Университет**

**Резюме**

В настоящей статье рассмотрены теоретические аспекты кластеров, также глобальные тенденции, с примерами успешных кластеров в мире. Исследовано несколько моделей кластерной политики, реализуемых в мировой практике, обобщены и представлены эти модели мирового уровня. Отмечена роль отраслевых направлений кластеризации экономики. В статье указаны экономические районы Азербайджанской Республики и ресурсный потенциал каждого из них, также они сгруппированы по уровню развитости. Выделены этапы кластеризации в мире, которое показывают процесс развития от создания научных городов до сети индустриального сообщества. Рассмотрены кластеры, которые на данный момент действуют в разных регионах Азербайджана роль, которых велика в экономическом росте страны. Особое внимание уделяется Карабаху. В этом регионе ожидается переход новой модели экономического развития, в связи с тем, что эти территории были оккупированы, но на данный момент освобождены. На этих территориях ожидается создание новых инфраструктур, иначе говоря, «строительный бум». Описан потенциал данного региона. Также предложено построение в данном регионе бизнес-инкубаторов, промышленных парков и туристических зон, которые в дальнейшем улучшат социально-экономического положение как региона, так и страны в целом.

**Ключевые слова: Карабах, кластер, промышленные парки, бизнес-инкубатор, туристические зоны.**

# Ağıllı Şəhərlər və Tətbiqetmə Sahələri

**Fərid Mehdiyev**
**Manisa Celal Bayar Üniversitesi**

**Xülasə**
Sənaye inqilabı ilə başlayan urbanizasiya nisbətlərindəki artım, yaşayış sahələrinə xas olan sərhəd həddinin aşılmasına və sağlam olmayan böyüməyə səbəb oldu. Şəhərləşmənin sürətlə böyüməsi, sıx metropol şəhərlərinin yaranmasına səbəb oldu. Əhalinin sürətli artımı nəticəsində şəhərlərdə yaranan nəqliyyat, enerji, su, səhiyyə, ətraf mühit və təhlükəsizlik kimi bir çox problemin həllində texnologiyanı bir vasitə olaraq istifadə edərək, ortaya çıxan problemlərə praktik həll yolları üçün ağıllı tətbiqlər sınanır. Bunların nəticəsi olaraq şəhərlər daha da rəqəmsal hala gəlir və vətəndaşlar rəqəmsal bir şəxsiyyət qazanırlar. Ağıllı şəhərkər, innovativ rəqəmsal texnologiyaların tətbiqi ilə ənənəvi şəbəkələri və xidmətləri daha səmərəli etməklə, şəhər sakinlərinin, dövlət idarələrinin və özəl sektorun xeyrinə daha əhatəli, davalı və bir-biri ilə əlaqləli şəhərlər yaradır. Ağıllı şəhərlər, iqdisadi, sosial və ekolojik mənbələrin məhdudiyyətliyini və gələcək nəsillərin ehtiyaclarını nəzərə alaraq həyat keyfiyyətini yaxşılaşdırmağı hədəfləyir. Azərbaycan işğaldan azad edilmiş ərazilərdə ağıllı şəhər, ağıllı kənd konsptini tətbiq etməyə hazırlaşır. Bu məqalənin məqsədi elə bu anlayışlara aydınlıq gətirmək və dünya təcrübəsini araşdırmaqdır.

**Açar sözlər: Şəhər, ağıllı texnologiya, ağıllı şəhər.**

# Nizami Gəncəvi “Xəmsə”sində İqtisadi Fikirlər

**Aynur Səfərli**
**Bakı Dövlət Universiteti**

**Xülasə**

Cənab İlham Əliyevin 2021-ci ili “Nizami Gəncəvi İli” elan etməsi, ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan ənənənin davamıdır. Nizami Gəncəvi yaradıcılığında Azərbaycanda pul sistemi haqqında, ümumiyyətlə pulun sosial-iqtisadi təbiəti haqqında mükəmməl elmi fikir və təsəvvürlər yaratmışdır. N.Gəncəvinin "Xəmsə"sində cəmiyyətin ictimai-iqtisadi münasibətləri haqqında təsəvvürlər daha aydın nəzərə çarpır. Humanizm və demokratizm dahi mütəfəkkirin iqtisadi ideyalarının əsasını təşkil etmişdir. N.Gəncəvi çox hallarda əməyə, sərvətə, mübadiləyə, pula, bölgü və istehlaka öz əxlaq fəlsəfəsi mövqeyindən yanaşmışdır. Əmək və əməkçi obrazları onun bütün əsərlərinin başlıca qayəsini təşkil edir. N.Gəncəvi «Xəmsə»də daxili və xarici ticarət mənbələrinə, onların inkişafına və aparılması qayda-qanunlarına dair qiymətli fikirlər söyləmişdir. O, tacirlərə, alqı-satqı ilə məşğul olanlara şərait və ədalət qanunları ilə sövdələşməyi tövsiyə edir. Nizami iqtisadi fikir və ideyaları «Xəmsə»sindəki ictimai-iqtisadi quruluşun tənqidi təhlili və ifadəsi kimi meydana çıxmışdır. Onun əsərlərində torpaq istehsal prosesinin ən qiymətli və təbii vasitəsi kimi səciyyələndirilir. Nizami heç də dövlətin və ordunun saxlanması üçün əhalidən alınan vergilərin əleyhinə olmamışdır. Lakin o, idarəedənlərin, məmurların vergi siyasətində apardıqları özbaşınalığın, əyalətlərdə və şəhərlərdə müxtəlif adlarla hər şeydən vergi toplanmasına qarşı çıxış edirdi. Nizaminin iqtisadi görüşlər sistemində mühüm məsələlərdən biri də peşə bölgüsü, ixtisaslaşma, əmək bölgüsü mövzusudur. “Xəmsə”də Nizami bu məsələyə ölkədə sərvətin və bolluğun artırılmasına təsir edən bir amil kimi yanaşır. Onun fikrincə, əməksevərlik, çalışqanlıq, halal əməklə yorulmadan məşğul olmaq insanda bir sıra müsbət əxlaqi keyfiyyətlər formalaşdırır. Dahi şair-pedaqoq bazar iqtisadiyyatına aid olan başlıca anlayışlarla gənc nəsli tanış etmiş, ailə həyatında və cəmiyyətin inkişafında iqtisadiyyatın rolu barədə gənc nəsildə təsəvvür yaratmışdır.

**Açar sözlər: Nizami ili, Nizami Gəncəvi, iqtisadi baxışlar, “Xəmsə”, bölgü və istehlak.**

# Qarabağ İqtisadiyyatının Klasterləşdirilməsi ilə Ölkənin İqtisadi İnkişafı Arasındakı Əlaqə

**Baba Məmmədov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Bu məqalədə klasterlərin nəzəri cəhətləri araşdırılmış, eləcə də qlobal trendlər və dünyada uğurlu olan klasterlər vurğulanmışdır. Dünya təcrübəsində həyata keçirilən klaster siyasətinin bir neçə modeli araşdırılmış və dünya səviyyəli bu modellər ümumiləşdirilərək təqdim edilmişdir. İqtisadiyyatın klasterləşmənin sahəvi istiqamətlərinin rolu qeyd olunmuşdur. Məqalədə Azərbaycan Respublikasının iqtisadi rayonları və hər birinin resurs potensialı göstərilmiş və inkişaf səviyyəsinə görə də qruplaşdırılmışdır. Burada həmçinin dünyadakı klasterləşmə mərhələləri vurğulanmışdır ki, bu da elmi şəhərlərin yaranmasından sənaye cəmiyyəti şəbəkəsinə qədərki inkişaf prosesini əhatə edir. Hazırda Azərbaycanın müxtəlif bölgələrində fəaliyyət göstərən, ölkənin iqtisadi artımında böyük rolu olan sənayə parkları təsvir olunub. Xüsusilə yeni işğaldan azad edilmiş Qarabağ zonası diqqət mərkəzində saxlanılmışdır. Bu səbəbdən dolayı bölgədə yeni bir iqtisadi inkişaf modelinə keçid gözlənilir. Bu ərazilərdə yeni infrastrukturların, başqa sözlə desək, "tikinti bumu"nun yaradılması gözlənilir. Bu bölgənin mümkün potensialı izah olunmuşdur. Həmçinin bölgədə həm bölgənin, həm də bütövlükdə ölkənin sosial-iqtisadi vəziyyətini daha da yaxşılaşdıracaq biznes inkubatorları, sənaye parkları və turizm zonalarının yaradılması təklif olunmuşdur.

**Açar sözlər: Qarabağ, klaster, sənaye parkı, biznes inkubator, turizm zonaları.**

# Azərbaycanın Emal Sənayesinin Dövlət Tənzimlənməsi Zərurətinin Nəzəri Əsaslandırması

**Rüxsarə Seyfullalı**
**Azərbaycan Texniki Universiteti**

**Xülasə**
İqtisadiyyatın dövlət tənzimlənməsi iqtisad elminin formalaşması dövründən bu günə qədər müzakirə edilən ən uzunömürlü mövzulardan hesab edilir. İctimai rifahın yüksəldilməsi və müxtəlif iqtisadi vəziyyətlərdə səmərəli tənzimləyici mexanizmlərin tapılması yolları həmişə iqtisadçı alimlərin diqqət mərkəzində olmuşdur. İqtisad elminin tənzimləmə üzrə müddəalarının təkamülünün, eləcə də bu sahədə irəli sürülən ideyaların real nəticələrinin tədqiqi dövlətin iqtisadi proseslərə müdaxiləsinin zərurəti və səmərəliliyinin artırılması istiqamətində yeni ideyalar mənbəyi ola bilər. Məqalənin məqsədi dövətin iqtisadi proseslərə müdaxiləsinin zəruriliyini vurğulayan elmi fikirlərin sintezini aparmaqdır. Tədqiqatın aparılmasında təhlil və məntiqi ümumiləşdirmə kimi yanaşmalardan istifadə olunmuşdur. İqtisad elminin nəzəri əsasları və beynəxalq maliyyə qurumlarının dövlət idarəetməsinin keyfiyyəti ilə bağlı hesabatları tədqiqatın informasiya bazası kimi qəbul edilmişdir. Məqalənin yazılmasında iqtisadi tənzimləmə üzrə elmi ədəbiyyatın təhili aparılmış və bu əsasda iqtisadi tənzimləmə sahəsində mövcud olan nəzəri mənzərənin təsvirinə cəhd edilmişdir. Tədqiqatda dövlətin iqtisadi proseslərə müdaxiləsinin zəruriliyi barədə elmi mülahizələrin ümumiləşdirilməsinə cəhd edilmiş, iqtisadi inkişaf üçün prioritet tənzimləmə obyektlərinin seçilməsi, həmin sahələrə təsir alətlərinin müəyyən edilməsi, tənzimləmənin keyfiyyətinin yüksədilməsi, tənzimləmə tədbirlərinin nəticələrinin qiymətləndirilməsi kimi məsələlərin Azərbaycan iqtisadiyyatı üçün aktuallığı əsaslandırılmışdır.

**Açar sözlər: Dövlət tənzimlənməsi, bazarın fiaskosu, dövlətin fiaskosu.**

# Avropa Birliyində Siyasi Populizmin İqtisadi Səbəbləri

**Paşa Mahmudov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Populizm sözü Latın dilində "populus" sözündən yaranır, sözün kollektivist mənasında "insanlar" mənasını verir. Avropada həddindən artıq sağda və ifrat solda olan populist partiyalar 2008-ci ilin Böyük tənəzzülündən sonra böyük səs payları qazandılar və bir çox ölkədə və hətta Avropa Parlamentində siyasətin əsas ölçüsünün sol-sağ dekoltendən qloballaşma / parçalanma tərəfdarı hissəsinə çevrilməsini müşahidə edirik. Bunun seçicilərin münasibətindəki dəyişikliklərlə və siyasi partiyaların bu dəyişikliklərə uyğunlaşması ilə əlaqəsinin olmasını sübut edən araşdırmalar zamanı populizmin yüksəlməsinin iki əsas səbəbi ortaya çıxmışdır: iqtisadi və mədəni səbəblər. Dəlilləri nəzərdən keçirərkən iqtisadi və mədəni amillər arasında kompleks qarşılıqlı əlaqənin olduğunu görünür. Qlobal maliyyə böhranından bəri populistlər iqtisadi çətinlikləri mühacirlər, AB və hökumət xərcləri ilə əlaqələndirirlər. Bunların hamısı müsəlman qadağaları, Brexit və qənaət kimi həddindən artıq tədbirlərə yönəldilmişdir. Buna baxmayaraq, tədbirlərin heç biri iqtisadi çətinliyi aradan qaldırmır. Böyük tənəzzül və qənaət siyasəti ilə əlaqəli böyük seçici qrupları arasındakı iqtisadi narahatlıq, populist partiyaların mədəni əks-səda mesajlarını yüksək səviyyədə qəbul etməyə səbəb olur.

**Açar sözlər: Siyasi populizm, Avropada poppulizm, populizmin iqtisadi səbəbləri.**

# Covid-19 Salgınının Birinci Döneminde Ülkelerin İnsanların Yaşam Kalitesini Artırıcı Tedbirleri: Azerbaycan ve Türkiye Değerlendirmesi

**Ali Rzayev**
**İstanbul Üniversitesi**
**Gafar Shamilov**
**Çanakkale Onsekiz Mart Üniversitesi**

**Özet**

Yaşanan salgınların ekonomik krizleri doğurması kaçınılmazdır. Son olarak yaşanan ve tüm dünyayı etkisi altına alan COVİD-19 salgını döneminde tüm dünyada büyük bir arz yönümlü kriz meydana gelmiş, bu etki hem gelişmiş hem de gelişmekte olan ülkeleri etkisi altına almıştır. Salgının ekonomik etkilerinin ve sonuçlarının araştırıldığı mevcut çalışmada Azerbaycan ve Türkiye açısından salgının etkilerinin ağır olduğunun, her iki ülkenin ekonomisinde bir daralma meydana geldiğini söyleyebiliriz. Nitekim, salgının sosyal ve ekonomik etkilerini azaltıcı tedbirler uygulayan ülkeler bu amaçla birçok alanı kapsayan tedbirler paketini salgının ilk dönemlerinden itibaren sunmaya başladı. Çalışma kapsamında Azerbaycan ve Türkiye`de uygulanan sosyo-ekonomik alanı iyileştirici tedbirler değerlendirilmiştir. Mevcut dönemde Türkiye`de istihdamı koruyucu tedbirler kapsamında, kısa çalışma ve ücretsiz izin uygulaması, bankalar tarafından sunulmuş düşük faizli kredi destekleri, sosyal yardım destekleri sunulduğu görülmüştür, Nitekim, aynı dönemde Azerbaycan`da insanlara minimum gelir seviyesini karşılamak için sosyal yardımlar sunulurken, işletmelere de çeşitli piyasayı koruyucu paket sunulmuştur. Bu çerçevede sunulan ekonomi paketlerinin dezavantajlı gruplar olan çalışanlar, işsizler ve sosyal yardımlara ihtiyaç duyan kesimlere yönelik olduğu gözlenmektedir.

**Anahtar Kelimeler: Covid-19, ekonomik kriz, Azerbaycan, Türkiye.**

## Dövlət Dəstəyi ilə Formalaşan Rəqabət

**Günel Kazımova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Məqalədə Azərbaycanda fəaliyyət göstərən müəssisələrin rəqabət mühitinin vəziyyəti və rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədilə sahibkarlığın inkişafı və biznes mühitinin daha da yaxşılaşdırılnıasının müasir vəziyyəti statistik göstəricilər əsasında təhlil edilmişdi. İnkişaf etmiş ölkələrin praktikası göstərir ki, sağlam rəqabət mühitinin mövcudluğu, əslində təsərrüfat subyektlərinin mülkiyyət mənsubiyyətindən asılı olmayaraq, bərabər iqtisadi və hüquqi şərait yaradılmasını, təsərrüfat subyektlərinə iqtisadi müstəqilliyin verilməsini özündə əks etdirir. Təsərrüfat subyektləri o halda sağlam rəqabət apara bilərlər ki, bərabər iqtisadi və hüquqi mühitdə təşkil olunsunlar. Bazarın dəyişməz atributu kimi səciyyələnməklə, hər bir təsərrüfat subyektinin əlverişli şəraitdə mövcudluğu öz fəaliyyətini həyata keçirmək uğrunda həyata keçirdiyi könüllü rəqabətin əyani təzahürü kimi qiymətləndirilir. Rəqabət strategiyasını planlaşdırarkən müəssisə həm daxili imkanlarına, həm də xarici amillərin verdiyi imkanlara güvənir. Bundan əlavə biznes subyektinin atdığı bir çox addımlar xarici təsirlərin nəticəsində formalaşır. Startegiyanın düzgün qurulmasının əsasını onun ayrı ayrı elementlərinin düzgün formalaşması təşkil edir.  Hal hazırda ölkəmizdə fəaliyyət gösətərən müəssisələr fəaliyyət istiqamətindən asılı olaraq fərqli imkanlara malikdirlər. Belə ki, qeyri neft sektoruna dövlət tərəfindən xüsusi diqqət göstərilməkdədir.

**Açar sözlər : Rəqabət mühiti, rəqabətqabiliyyətlilik, sağlam rəqabət.**

# Kiçik və Orta Sahibkarlıq Subyektlərində Klasterlərin Rolu və Turizm Sektoru üçün Uyğunluğunun Araşdırılması

**İlahə Əlibəyli**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**

Müasir dünyamızda sürətlə inkişaf edən texnika və texnologiya,bazarların qloballaşması sahibkarlıq subyektləri arasında rəqabətin artmasına səbəb olmuşdur.Bu rəqabət mühitində daha az xərclə daha yaxşı məhsul istehsal edə bilən,ətrafdakı dəyişikliklərə tez ayaq uydura bilən,üstün rəqabətqabiliyyətinə malik olan iri firmalar bazar paylarını daha da, artırmağa müvəffəq olurlar.Belə çətin rəqabət yarışında kiçik və orta sahibkarlar (KOS) üçün nəinki yeni bazar payı qazanmaq,hətta öz bazar payını əldə saxlamaq belə çox çətin bir hal alır.Bu baxımdan da, bəzi kiçik və orta sahibkarlıq subyektləri müflisləşərək bazardan çıxmalı olur.Öz rəqabətqabiliyyətini geri qazanmaq və bunun davamlı hal almasına nail olmaq isəyən KOS-lar isə bir sıra tədbirlər görməyə məcbur olurlar.Xüsusilə də, xidmət sektorunun ÜDM içərisindəki payının artması bu sahənin rəqabətqabiliyyətliyinin artırılmasının diqqətəlayiq olduğunun isbatıdır.Rəqabət üstünlüyünün əldə olunması,ixrac potensialının artırılması,firmaların öz imkanlarını genişləndirilməsi,bölgədə sosial-iqtisadi dəyişiklikləri əldə olunması üçün ən optimal yol klasterlərin yaradılmasıdır.

Bu məqalədə klasterlərin iqtisadi inkişafdakı rolu,inkişaf perspektivləri və xidmət sektoru içərisində xüsusi önəmə sahib olan turizm sektorunda klasterlərin yaradılmasının mümkünlüyü və üstünlükləri araşdırılmağa çalışılmışdır.

**Açar Sözlər: Klasterlər, turizm sektoru, rəqabətqabiliyyətlilik.**

# Azərbaycanda Qastronomik Turizmin İnkişaf Prespektivləri

**Elnurə Məmmədova**
**Azərbaycan Milli Kulinariya Mərkəzi**

**Xülasə**
Qastronomik turizm - turistlərin başqa ölkələrin milli mətbəx xüsusiyyətləri, mətbəx mədəniyyəti, süfrə adət və ənənələri ilə tanış olmaq üçün turizm marşurutlarının təşkil olunması, unikal olan yemək və ya məhsullarla tanışlığıdır. İnsanlar səyahət etdikləri ölkənin milli mətbəxi, məhsul və yeməklərin istehsalı və hazırlanması xüsusiyyətləri ilə tanış olur, eyni zamanda təlim və peşəkar bilik əldə edirlər. Bəzi ekspertlərin fikrincə qastronomik turizmi həmişə digər turizm sahələrindən ayırmaq mümkün deyil. Lakin bu turizm növünün sürətli inkişafı onun geniş imkanlara malik olmasının göstəricisidir.
Əlbətdə bu xarici turist üçün qastronomiya və yerli mətbəx, süfrə mədəniyyət haqqında dəyərli məlumat əldə etməyin bir yoludur.
Qeyd etmək yaxşı olar ki, xarici turistin ölkəyə münasibəti çox vaxt ölkənin yerli mətbəxi ilə tanışlıqdan başlayır. Bunun üçün ölkəmiz geniş potensiala malikdir. Azərbaycan milli mətbəxi Azərbaycan mədəniyyətinin bir hissəsidir, bu səbəbdən qastronomik turizmi milli mətbəx restoranları və milli xörəklərimiz olmadan təsəvvür etmək olmaz.
Bu turizm növü Azərbaycanda yeni inkişaf edir və təssüf ki, müstəqil formada belə turlar yoxdur, bu səbəbdən qastronomik turların komponentləri əsas proqramlara əlavə olunur. Qastronomik turizmin dünyada sürətlə inkişaf etdiyini nəzərə alasaq, qədim tarixə və mədəniyyətə malik olan ölkəmiz bu sahədə böyük uğurlar əldə edə bilər. Milli şərabların, milli məhsulların dünyada tanındılması ölkəmizdə turizmin bu formasınına dövlətin və yerli sahibkarların diqqətini artırır.

**Açar sözlər: Turizm, qastroturizm, milli mətbəx, kulinariya, şərabçılıq.**

# Karabağ'ın Yumuşak Güç Unsuru Olarak Turizm

**Ahmet Akalın**
**Ankara Üniversitesi**

**Özet**

Azerbaycan küresel turizm piyasası içerisinde önemli bir oyuncu olma potansiyeline sahiptir. Bu potansiyelin işgal altındaki Karabağ'ın azat edilmesiyle önümüzdeki dönemde daha da artması beklenmektedir. 2020 yılı sonunda Azerbaycan'da, Karabağ'da işgal altındaki toprakların 44 günlük Vatan Muharebesiyle (sert güç ile) azat edilmesiyle yeni bir dönem başlamıştır. Azerbaycan, "Kafkasya'nın Cenneti'ni dünyanın turizm merkezi haline getireceğiz" stratejisiyle Karabağ'da turizm alanında önemli yatırımlara başlamıştır. Çünkü Karabağ bölgesi doğal güzellikleri, tarihi dokusu, kültürel zenginlikleri ve endemik bitki örtüsüyle turizm sektörü için el değmemiş bir coğrafyadır.

Bu çalışmada Karabağ'da turistleri cezbedecek yumuşak güç unsurlarına değinilmektedir. Bu unsurların turizm potansiyelinin Azerbaycan'a ekonomik getirisinin öneminin ortaya konulması amaçlanmaktadır. Bu araştırma sert güç (muharebe) ile işgalden özgürleştirilen edilen Azerbaycan topraklarının yumuşak güç potansiyeli bakımından değerlendirilmesini içermektedir. Bu nedenle çalışma, örneklem olarak ele alınan Karabağ'ın yumuşak güç potansiyelinin turizmle birlikte Azerbaycan için nasıl yumuşak güç unsuru haline getirebileceğinin tartışılması açısından önemlidir.

**Anahtar Kelimeler: Karabağ, yumuşak güç, turizm, kültür diplomasisi, Kafkas'ın cenneti.**

# Nizami Gəncəvi Əsərlərində İqtisadi Fikirlər

**Vəfa Balakişiyeva**
**Mingəçevir Dövlət Universiteti**

**Xülasə**

Nizaminin əsərlərində cəmiyyətin iqtisadi-sosial quruluşu, ictimai münasibətləri xüsusi formalarda ifadə olunmuşdur. Onun bu sahədə yürütdüyü fikir və ideyaları "Xəmsə"nin beytlərində, misralarında, yaratdığı çoxsaylı obrazların deyimlərində iqtisadçıların adət etmədiyi bir tərzdə açıqlanır və nəticədə onun baxışları bir sistem şəklində müəyyənləşir. Nizaminin cəmiyyətin iqtisadi quruluşuna dair baxışlarında cəmiyyət həyatının idarə edilməsi, qurulması və təzələnməsi haqqında yürütdüyü ideyalar iqtisadi fikir tariximizin inkişafında mühüm yer tutur.

**Açar sözlər: Maddi nemətlərin bölgüsü, qənaətçilik, iqtisadi-sosial quruluş.**

# Azərbaycan İqtisadiyyatında Transmilliləşmə Səviyyəsinin Qiymətləndrilməsi

**Natiq Şixizadə**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Qloballaşma iqtisadi perspektiv çərçivəsində iki fərqli şəkildə müəyyən edilə bilər. Bunlardan birincisi qloballaşmanın nəzəri tərifi olaraq, reallaşması üçün tələb olunan şərtlər tam deyil. Yaxın gələcəkdə tamamlanacağına dair bir işarə yoxdur. İkinci tərif, nəzəri tərifdə yer alan əsas elementlərin yalnız bir hissəsini əhatə edən mövcud iqtisadi fenomeni təsvir etməyi hədəfləyir.
"Bütün dünyada heç bir maneə olmadan ölkələr arasında hər növ məhsulların, istehsal amillərinin və məlumatların sərbəst hərəkətini təmin edəcək ortaq qanuna əsaslanan və ümumi razılığa əsasən formalaşan ortaq bazarın inkişaf prosesinə dünya ölkələrinə Qloballaşma deyilir " Qloballaşma konsepsiyası istifadəçinin mövqeyinə görə, yəni səhv düşüncələrə səbəb olan bir anlayışdır. Məsələn zaman məkanının sıxılması, rabitə və yüksək texnologiyasının çatdığı nöqtəyə vurğu edərək verilən təriflər və buna bu nöqtədən sonra ortaya çıxan qaçılmaz reallığı (müsbət və ya mənfi mənada) qloballaşma kimi qəbul edir. Beləliklə, qloballaşma məkan baxımından kiçilir və fərdlər və bu yaxınlaşmada fərqlərini aydınlaşdırır, yerlərini daha çox ifadə edə biləcəkləri və yaşaya biləcəkləri bir müddət ərzində və az inkişafla və əmək kapital münasibətlərini istisna edərək, qloballaşma prosesinin hər bir fərd və hər bir ölkə üçün eyni fürsətlər təqdim edir. Qloballaşmanın tərifi iqtisadi fərqlər və bu səbəbdən prosesin təsirlərindəki bərabərsizliklər gözardı edilməməlidir. Qloballaşma, 1970-ci illərin sonlarından bəri kapitalizmin özüdür və yenidən qurulma ehtiyacı və bu ehtiyac nəticəsində iqtisadi siyasətin dəyişdirilməsi prossesi mənasında istifadə olunur. Qloballaşma, yeni liberal siyasətin həyata keçirilməsi ilə fərqli ictimai quruluşlar sosial strukturların qeyri-bərabər dərəcədə təsirləndiyi bir prosesdir.

**Açar sözlər : Transmilliləşmə, qloballaşma, investisiyalar, TANAT, TAP.**

# Nizami Gəncəvi Yaradıcılığında İqtisadi-Nəzəri İdeyalar

**Firuzə Sadıqova**
**Bakı Dövlət Universiteti**

**Xülasə**

Dahi mütəfəkkir Nizami Gəncəvinin iqtisadi fikir və ideyaları, onun «Xəmsə»sindəki iqtisadi baxışları sistem halında yaşadığı ictimai-iqtisadi quruluşun tənqidi təhlili və ifadəsi kimi meydana çıxmışdır. Onun bu sahədə söylədiyi fikir və ideyaların «Xəmsə» boyu səpələnmiş beyitlərdə, misralarda yaratdığı çox saylı obrazların deyimlərində iqtisadçıların adət etmədiyi bir tərzdə açıqlanır və nəticədə onun baxışları bir sistem halında müəyyənləşir. Buna görə də o dövrdə iqtisad elmi olmadığını, iqtisadi fikrin başqa elm sahələri tərkibində inkişaf etdirilməsini nəzərə alaraq dahi mütəfəkkir şair N.Gəncəviyə haqq qazandırmaq və qiymət vermək olar.

Böyük mütəfəkkirin layihəsini verdiyi nümunəvi ölkənin sakinləri insanlara mənəvi, yaxud ziyan vurmaqdan uzaqdırlar. Bir nəfərin təsadüf nəticəsində vurduğu belə ziyan hamılıqla ödənilir. Deməli, ideal ölkənin sakinləri nəinki özlərinin, həm də mənsub olduqları cəmiyyətin məsuliyyətini dərindən hiss edən nümunəvi insanlardır. Müasir dövr üçün də son dərəcə aktual olan bu müddəanı Nizami hələ XII yüzillikdə irəli sürmüşdü. Hüquqların təminatına və bərpasına dair ideya irəli sürməklə Nizami nəinki öz vətənində, eləcə də bütün müsəlman Şərqində öz dövrünü xeyli qabaqlamış birinci mütəfəkkir idi

Nizaminin ideal dövlət layihəsində cəmiyyət üzvlərinin yüksək mənəviyyatı, dinpərvərliyi və şəxsi tərbiyəsi ədalətin tələblərini qorumağa və onlara əməl etməyə kömək edir. Cəmiyyətdə qüvvədə olan əxlaq normaları elə köklənmişdir ki, onlar hər cür qeyri-əxlaqiyliyi və mənəviyyatsızlığı rədd edir. İdeal ölkənin sakinləri rahat və əmin-amanlıqda yaşamaq üçün, artıq əzab-əziyyətə düşməməkdən ötrü düzlüklə ömür sürürlər. Əslində, bu dövlətin qanunları elə ahəngdarlıqla işləyir ki, xətalı işlərə nəinki yol verilmir, onlar yaxına belə buraxılmır. Nizami təsvir etdiyi ideal cəmiyyətin mahiyyətini onun sakinlərinin dili ilə təqdim edir.

**Açar sözlər: İqtisadi, Nizami Gəncəvi, cəmiyyət, fikir, dövür.**

**Differential Item Functioning Analysis of Pisa 2015 Reading Items: Singapore, Australia and USA**

**Judith Cristina Espinoza**
**University of Newcastle**

**Abstract**

The purpose of this study is to determine whether there is DIF in the PISA 2015 reading section items from Singapore, Australia and the United States by employing the Mantel-Haenszel and the Logistic Regression methods. In order to calculate uniform DIF two research questions are asked: 1) Is there gender-related DIF and or (2) culture-related DIF in the 16 selected binary items of the PISA 2015 reading section from Singapore, Australia and the United States? The data was obtained from the PISA 2015 reading items section and the sample was divided according to the variables gender and culture for a total of 2293 students. The DIF values were determined and classified into categories A, B or C. MH findings showed that considering the variable gender, males and females were equally advantaged whereas the LR results demonstrated that females were favoured over males. Regarding the variable culture, MH showed that Australia was advantaged over Singapore, Singapore over USA and Australia over USA. However, LR analysis showed exactly the opposite results in all the cases. A total of 7 items were classified with C level and the overall levels were higher. In general, when the variable gender was studied most of the items were classified with A levels. Nevertheless, once the countries were paired to evaluate the variable culture, the DIF level increased into major occurrence of B and C levels. The overall results demonstrated that the items from the reading section of PISA 2015 functioned equally among the group members.

**Keywords: Differential item functioning, mantel-haenszel, logistic regression, PISA, Singapore, Australia, United States.**

# Səmərəli Büdcə İdarəçiliyi və Nəticəəsaslı Büdcənin Tərtibi

**Orxan Sadıqov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
Bu tədqiqatda dövlət büdcəsinin idarəçiliyi sahəsində mühüm islahat mexanizmlərindən biri kimi orta və uzunmüddətli büdcə planlaşdırması ilə bağlı nəzəri yanaşmalar, bu sahədə bir sıra ölkələrin təcrübəsi və Azərbaycanda büdcə planlaşdırması sahəsində mövcud durum təhlil edilib, ölkəmizdə bu istiqamətdə islahatlar üçün təklif və tövsiyələr işlənilib.
Tədqiqatın əsas məqsədi: İnkişaf etmiş ölkələrin dövlət büdcəsinin tərtibi prosesini, büdcə qanunvericiliyini və büdcə sistemini araşdırmaqla onların ölkəmizdə makroiqtisadi səviyyədə tətbiqi perspektivlərinin öyrənilməsidir.
Tədqiqat işi: əsaslı və sistemli təhlil üsulları əsasında yerinə yetirilmişdir. Həmçinin tədqiqat zamanı İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının, Beynəlxalq Valyuta Fondunun və digər maliyyə institutlarının təklif etdikləri fiskal siyasət və makroiqtisadi tədbirlər nəzərdən keçirilmiş və nəticələr təhlil olunmuşdur.
Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, məqalədə təklif edilən kompleks tədbirlərin reallaşdırılması nəticəsində ölkəmizdə səmərəli və dayanıqlı büdcə sisteminin, nəticəəsaslı büdcənin tərtibini reallaşdırmaqla davamlı iqtisadi inkişafın təmin ediləcəyi sübutlarla əsaslandırılmışdır.
Araşdırmalar onu da göstərir ki, strateji planlaşdırmaya əsaslanan nəticəli büdcə mexanizmlərinin tətbiq edilmədiyi şəraitdə dövlətin xərcləmələrin effektivliyini, şəffaflığını və hesabatlılığını təmin etmək imkanı son dərəcə məhdud olur.
Təqdim olunan araşdırma müxtəlif ölkələrin təcrübəsi əsasında Azərbaycan üçün nəticəəsaslı büdcə sisteminin tətbiqi ilə mexanizmlər təklif edir.

**Açar sözlər: Nəticəəsaslı büdcə, ortamüddətli xərclər çərçivəsi (OMXC), səmərəli büdcə mexanizmi, büdcə planlaşdırılması.**

# İşğaldan Azad Edilmiş Ərazilərimizin Bərpasında Beynəlxalq Təcrübədən İstifadə Edərək Biznes Mühitinin Formalaşdırılması

**Gülü Tağıyeva**
**Azərbaycan Dövlət Aqrar Universiteti**

**Xülasə**
Məqalədə işğaldan azad edilmiş ərazilərdə müasir infrastrukturun qurulmasında, kənd təsərrüfatında biznes mühitinin yaradılmasında, eləcə də biznes münasibətlərinin qurulmasında xarici ölkələrin təcrübəsindən istifadənin vacibliyi qeyd olunur. Kənd təsərrüfatında beynəlxalq əməkdaşlıqda biznesin xüsusiyyətləri müəyyənləşdirilir. Təhlil etdiyimiz mövzuda məqsəd böyük qayıdış proqramının reallaşdırılması və milli prioritetlərdən irəli gələn öhdəliklərin icra edilməsi istiqamətlərinin xüsusi əhəmiyyətini vurğulamaqdır. Sosial-iqtisadi inkişafa dair qarşıya qoyulan məqsədlərə çatmaq üçün möhkəm sosial-iqtisadi baza yaradılmalıdır. Mövzunun aktuallığı regionda sabitliyin, təhlükəsizliyin qarantı olan Azərbaycanda, sosial və maddi rifahın, qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi, milli və multikultural dəyərlərin möhkəmləndirilməsidir. Qarşıdakı dövrdə dövlətin əsas vəzifəsi işğaldan azad edilmiş ərazilərdə milli prioritetlərin müəyyənləşdirilməsi, sosial – iqtisadi inkişafın reallaşdırılması, kənd təsərrüfatı sektorunda xarici ölkələrlə biznes əlaqələrinin genişləndirilməsidir. Həmçinin Türkiyə, İsrail, Pakistan, Ukrayna, İtaliya kimi ölkələrlə işğaldan azad edilmiş ərazilərdə biznes əlaqələrinin inkişafı, sabitliyin və dayanıqlığın qorunub saxlanması əsas prioritetlərdəndir. İşğaldan azad edilmiş ərazilərimizin qısa müddət ərzində müasir innovasiyalar məkanına çevrilməsi qarşıya hədəf kimi qoyulmuşdur.

**Açar sözlər: Beynəlxalq təcrübə, biznes, kənd təsərrüfatı, infrastruktur.**

# Activity Based Costing and its Implementation in The World Practice

**Gunesh Ragimova**
**Baku Engineering University**

**Abstract**
The subject of this logical investigate is “Activity Based Costing and its Implementation in the World Practice”. Although the topic of ABC costing isn’t relevant in our country, it may be a production philosophy that is connected in numerous countries and gives expectionally important comes about. ABC was first characterized within the late 1980s by Kaplan and Bruns. It can be considered as the modern version to absorption costing, enabling managers to better understand product and customer net profitability. This provides the better knowledge to the company, make more value-based and therefore more succesful decisions. Cost accounting and process accounting are difficult for companies with intricate processes and manufacturing practices such as a company where many raw goods are used to create many different items.ABC was created out of the need to overcome these difficulties by core operations in order to overcome this problems. The aim of this article is to provide a comprehensive overview of studies on activity-based costing from around the world. ABC is commonly more widely used in developed countries than in developing countries. Better product costing, which improves a company's profitability and productivity, is one of the main advantages of using ABC. Using ABC enables cost transparency, which has consequences for planning, monitoring, and making decisions. The key to a successful ABC implementation is to address the relevant behavioral, technological, and organizational factors. The majority of the issues identified in the literature were related to ABC's realistic, technological, and device challenges. Many businesses struggle due to cultural and operational problems, as strategies must be modified when used in various environments.

**Keywords: Activity Based Costing, ABC Implementation, Traditional Costing System.**

# Dahi Mütəfəkkir Nizami Gəncəvinin Əsərlərində İqtisadi Fikirlər

**Gülnarə Tağıyeva**
**Təranə Byramova**
**Azərbaycan Dövlət Aqrar Universiteti**

**Xülasə**
Məqalədə Azərbaycanın dahi şairi Nizami Gəncəvinin ictimai-iqtisadi fikirləri öyrənilir. Nizami Gəncəvinin ölkənin təsərrüfat həyatının idarə olunması qaydaları, var-dövlət, sərvət, insan və onun əməyinə verilən qiymət, elm və digər məsələlərlə bağlı fikirləri araşdırılır. Nizami Gəncəvinin iqtisadi fikirləri Azərbaycan elmi ədəbiyyatlarında da öyrənilib. Nizami irsinə diqqət yetirsək, orada biz əmək nünasibətləri ilə yanaşı, iqtisadi münasibətlərin ifadəsini də görə bilərik. İnsanın şərəfini və üstünlüyünü əməkdə,çalışmaqda görən Nizami onların təbiətlə qarşılıqlı kömək və yardım münasibətləri şəraitində fəaliyyət göstərmələrini zəruri hesab edir. Dahi şairin iqtisadi fikirlərinin dəyərləndirilməsinə xüsusi ehtiyac vardır. 2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyinin tamam olması ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu ilin respublikada Nizami Gəncəvi ili elan edilməsi ilə bağlı Sərəncam imzalamışdır.

**Açar sözlər: Nizami Gəncəvi, iqtisadi düşüncə, Xəmsə.**

# Süni İntellekt Sistemləri və Onun İnsan Hüquqlarına Təsiri

**Fidan Rüstəmli**
**Azərbaycan Milli Elmlər Akademiyası**

**Xülasə**
Süni intellect sistemləri 1950-ci ildən etibarən meydana çıxmağa başladı və o, texnoloji inqilabın ayrılmaz hissəsidir. O, kifayət qədər maraq doğuran və invesitisiya cəlb edən sahələrdəndir. Süni intellektin inkişafı insan intellekti ilə rəqabət apara bilən və bəzi hallarda onu üstələyən sistemlərin yaranmasına gətirib çıxardı. Süni intellektin inkişafı insan həyatının köklü surətdə dəyişməsinə və əsasən də, əmək hüququ ilə bağlı məsələlərin yenidən qurulmasına gətirib çıxara bilər. Süni intellekt sistemləri fərdi hüquq və öhdəliklərə münasibətdə bir sıra problemlər meydana gətirir. Texnologiyalar insan əməyini daha çox əvəzlədikcə, bizim fərdi vəzifələrimiz daha çox qaranlıq məqam olur. Buna görə də, bu məqalədə süni intellekt sistemlərinin inkişafı çərçivəsində, onun insan hüquqlarına, əsas azadlıqlara və etik normalara uyğunluğunun araşdırılması vacibdir.

**Açar sözlər: Süni intellekt, insan hüquqları, robotlar.**

# The Impact of The Stock of Foreign Direct Investment Inflows and Domestic Investment on Income: Empirical Evidence From Australia, Germany, Brazil, and Turkey

**Alfusainey Touray**
**Yeditepe University**

**Abstract**

According to all the economic growth models, the source of economic growth is domestic investment, DI, technological progress, ideas and innovation. Thus, countries design policies to stimulate these sources of economic growth. Unfortunately, sometimes DI and domestic technology are not sufficient to start economic growth process, hence, policy-makers design policies to attract foreign direct investment, FDI to fill the saving gap. While the impact Of DI on an economy is unambiguous, the impact of FDI on the economy of a host country is not clear-cut in the literature. It is due to this ambiguousness this thesis examines the impact of the stock of FDI inflows on aggregate income of Australia, Germany, Brazil and Turkey. To compare the productivity of DI and the stock of FDI inflows, the study also includes the impact of DI on aggregate income. The study used bounds testing approach to cointegration. In all the countries the results show that there exist cointegration among the variables, and the impact of DI on aggregate income is greater than the impact of the stock of FDI inflows in all the countries in both short-run and the long-run. While the impact of DI on aggregate income is positive and significant in all the countries, the impact of the stock of FDI inflows is mixed.

**Key words: Domestic investment, the stock of FDI inflows, economic growth, income, bounds testings, ARDL, Australia, Germany, Brazil, and Turkey.**

## Biznes Proseslərinin Optimallaşdırılmasında Modelləşdirmənin Tətbiqi Zəruriliyi və Əhəmiyyəti

**Günel Həmidova**
**Azərbaycan Dövlət İqtisad Universiteti**

**Xülasə**
İşgüzar dünyada iqtisadi proseslərin sürətli artım tempi sosial-iqtisadi sistemlərin biznes proseslərinin optimallaşdırılmasını zəruri edir. Müasir informasiya texnologiyalarının dəyişikliklərinin və imkanlarının idarəetmə üsullarından istifadə edilməsi ciddi irəliləyişlərlər əldə etməyə imkan verir.
Alimlər tərəfindən sosial-iqtisadi sistemlərdə biznes modelləşdirmənin tətbiqi və istifadəsinin bir sıra problemləri təsvir edilmiş və işlənib hazırlanmışdır, lakin təşkilati layihələndirmənin kompleks mexanizminin yaradılması problemi hələ də dərindən tədqiq edilməmişdir.
Azərbaycan üçün yeni bazar şəraitində təşkilati idarəetmə sisteminin təkmilləşdirilməsi, neft hasilatı müəssisələrində biznes prosesinin inkişafının səmərəliliyinin idarə edilməsinə yüksək tələblər qoyur. Müəssisələrin rəqabətqabiliyyətliliyi əsasən biznes proseslərinin idarə olunması strategiyasının düzgün seçilməsindən asılıdır.
Tədqiqatın əsas məqsədi təşkilati layihələndirmənin hərtərəfli mexanizmini quraraq təsərrüfatçılıq subyektinin rəqabət qabiliyyətinin artırılması ideyasını inkişaf etdirməkdir.
Tədqiqat kontekstində biznes prosesi dedikdə, təşkilatın imkanları nəzərə alınmaqla istehlakçı üçün gəlirin əldə edilməsinə və faydalılığın (dəyərin) artırılmasına yönəldilən istehsal-idarəetmə tədbirlərinin məntiqi ardıcıllığı başa düşülür.

**Açar sözlər: Biznes prosesləri, optimallaşdırılma, modelləşdirmə.**

# The Development of Former Satellite States of the Post Soviet Union after the Fall of the Communism

**Christopher Herchen**
**Svenja Weber**
**Siegen University**

**Abstract**

